RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 76 (8669) ÇƏRŞƏNBƏ, 14 aprel 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır

## Prezident ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edib

Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edib.

AZƏRTAC xəbər verir ki, dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələrinin iştirak etdiyi konfransı ADA Universitetinin rektoru, səfir **Hafiz PAŞAYEV** açaraq deyib:

- Zati-aliləri cənab Prezident, hörmətli konfrans iştirakçıları.

Bu gün bizim konfransda iştirakına və regionun gələcəyi ilə bağlı baxışını bizimlə paylaşmaq istəyinə görə Prezident İlham Əliyevə bütün iştirakçılar adından təşəkkürümü bildirməkdən şərəf duyuram.

Bizim universitet Prezident İlham Əliyev tərəfindən təsis edilib və o, hər zaman ölkədə təhsil sahəsində islahatların tərəfdarı olub. Onun Azərbaycanda müasir universitetlə bağlı baxışı və həmin universitetin elm və siyasətlə bağlı müzakirələrin aparılması üçün beynəlxalq platformaya çevrilməsi bizim bugünkü tədbirə tam uyğundur. Çünki ADA Universiteti bu konfransın əsas təşkilatçılarındandır.

Cənab Prezident, Sizi universitetimizdə salamlayır, fürsətdən istifadə edib Sizi professor, müəllim və tələbə heyəti adından Qarabağ müharibəsində mühüm Qələbə münasibətilə təbrik etmək istəyirəm. Bu Qələbə nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqları işğaldan azad edildi və ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Biz 30 il ərzində bu günlərin həsrətində idik və Sizin liderliyiniz və həyatlarını qurban vermiş qəhrəmanlarımızın sayəsində Azərbaycan xalqı bu Zəfər sevincini yaşamışdır.

Hörmətli tədbir iştirakçıları, biz bu müzakirələri sizin Ağdama, Qarabağın azad olunmuş rayonlarından birinə səfərinizdən sonra keçiririk. Orada siz dağıntıların və Ermənistanın işğalının qorxunc nəticələrinin şahidi oldunuz. Müharibə başa çatıb və artıq indi Cənubi Qafqaz üçün inkişaf və əməkdaşlığa hesablanmış yeni baxışın formalaşmasına ehtiyac var ki, Qarabağın dünyanın ən gözəl bölgələrindən birinə çevrilməsi mümkün olsun. Bizim universitetin professor və müəllim heyəti siyasətlə bağlı müxtəlif toplantıların keçirilməsində iştirak etmiş və hökumətimizə yenidənqurma işlərində yardım etmək məqsədilə qaçqın və məcburi köçkünlərin doğma yurdlarına geri dönmələri mövzusunda rəy sorğusu təşkil etmişdir.

Ardı 2-ci səh.

## Azərbaycan Prezidenti İlham Əliyev ilə Belarus Prezidenti Aleksandr Lukaşenkonun qeyri-rəsmi görüşü olub



Aprelin 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ölkəmizdə işgüzar səfərdə olan Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko arasında qeyri-rəsmi görüş keçirilib.

## Hərbi Qənimətlər Parkının açılışı Ermənistanda zəlzələ effekti verdi:

## "İlham Əliyev Paşinyan və Sarkisyanın şərəfini, erməni generallarının paqonlarını tapdaladı"



Bakıda açılan Hərbi Qənimətlər Parkı Ermənistanda əsl faciə kimi qarşılanıb, zəlzələ effekti verib. Bunu mətbuatda dərc olunan materiallardan, sosial şəbəkələrdə edilən paylaşımlardan görmək olur.

### "İlham Əliyev müharibədə öldürülən erməni hərbçilərin dəbilqələrinin yanından qalib kimi keçir"

"İravnuk" qəzeti Azərbaycan Prezidentinin müharibədə məhv edilən erməni hərbçilərin dəbilqələrinin yanından qürurla keçməsinə diqqət çəkib: "Bakıda açılan Hərbi Qənimətlər Parkında İlham Əliyev müharibədə öldürülən erməni hərbçilərin dəbilqələrinin yanından keçir. Bu cür alçaldıcı vəziyyətlə barışa bilmirik".

Erməni politoloq Stepan Qriqoryan da baş verənlərdən narazı qalanlar sırasındadır: "Qarabağ münaqişəsi mövcud olduğu dövrdə Ermənistanın regional layihələrin icrasında iştirakını əngəlləyən əsas amil oldu. Həmçinin bu münaqişə ölkənin hələ də qismən izolyasiya vəziyyətində yaşamağa davam etməsinin başlıca təkanverici mənbəyidir. Deməli, Qarabağ məsələsinin mövcudluğu Ermənistana çoxsaylı zərər vurur. Bunların fonunda daha bir ağrılı məsələ Bakıda Hərbi Qənimətlər Parkının açılışıdır. Azərbaycan bununla bizim texnikaları döyüşlərdə necə məhv etdiyini bütün dünyaya bir daha göstərir və bu, illərlə nümayiş olunacaq. Belə vəziyyət hər bir ermənini mənən, ruhən sındırır. Çox ağrılı haldır".

Ardı 9-cu səh.

## İlham Əliyevin ədalət çağırışı

### Vaksinasiyaya nəzarət və inhisarçılıq savaşının real mənzərəsi: Böyük Britaniya öz əhalisinin 295, Avstraliya 269 faizi qədər, Kanada isə adambaşına 9 doz peyvənd əldə edib

Dünya iqtisadiyyatının pandemiyaöncəsi vəziyyətə qayıtması və iqtisadi aktivliyin bərpa edilməsi üçün vaksinasiya çox vacib proses hesab edilir. Vaksinasiya prosesinin bərabər və ədalətli şəkildə getməsi təkcə ənənəvi həyat tərzinə qayıdış baxımından deyil, ümumilikdə iqtisadi aktivliyin təmini üçün də önəmlidir.

### Azgəlirli ölkələr ölümə məhkum edilir

İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bir-biri ilə sıx iqtisadi tellərlə bağlıdırlar. Ona görə də yalnız inkişaf etmiş ölkələrin vaksinasiya prosesini başa çatdırması hələ onların iqtisadi aktivliyinin bərpası demək deyil.

2020-ci il ərzində koronavirus pandemiyasına qarşı görülən tədbirlər, sərt karantin rejimləri, qapanmalar ümumilikdə dünya üzrə istehlakın 4,4 faiz azalmasına gətirib çıxardıb. Pandemiyanı nəzarət altına almaq üçün əsas alət rolunu isə vaksinlər oynayır.

Ümumiyyətlə, qısa müddət ərzində təsirli vaksinlərin hazırlanıb dövriyyəyə buraxılması dünya əczaçılıq tarixində rekord hesab edilə bilər.

Ardı 9-cu səh.

## Qələbənin və qəhrəmanlığın rəmzi

### İlham Əliyevin təşəbbüsü ilə salınan Hərbi Qənimətlər Parkı Azərbaycanın parlaq Zəfərini və Ordumuzun rəşadətini nümayiş etdirir




Azərbaycanın Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsi xalqımızın son yüzilliklərdəki ən böyük uğuru kimi tarixə həkk olundu.



Bu Qələbə ilə zəbt olunmuş torpaqlarımız azad olundu, Ermənistanın işğal siyasətinə son qoyuldu, tarixi ədalət və beynəlxalq hüquq bərpa edildi. Prezident İlham Əliyevin Ali Baş Komandanlığı ilə rəşadətli Ordumuz bütün bunları güc yolu ilə təmin etdi. Azərbaycanın "dəmir yumruğu" işğalçı Ermənistana elə bir dərs verdi ki, bu işğalçı ölkə tarixboyu onun zərbəsinin ağırlığını unuda bilməyəcək.

Ardı 9-cu səh.

◆ Vaksinasiya prosesindən reportaj

## "Ya peyvənd, ya da xəstəlik..."

### Vətəndaşlar artıq kütləvi şəkildə düzgün qərar verir

Bəşəriyyət bütün dünyanı çənginə alan koronavirus pandemiyasından qorunmağa çalışır.



Əgər COVID-19-un yayılmağa başladığı ilk dövrlərdə ondan qorunmağın yolu yalnız maska taxmaq, sosial məsafəni gözləmək, gigiyena qaydaları və sərt karantin rejimi idisə, hazırda dünya koronavirusla daha effektiv yol olan peyvənd vasitəsilə mübarizə aparır. Ötən ilin dekabrından etibarən əksər ölkələrdə vaksinasiyaya start verilib və Azərbaycan da bu il yanvarın 18-dən etibarən tibb işçilərinin peyvəndlənməsi ilə bu prosesə qoşulub.

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli qərarı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq mühafizə orqanlarının əməkdaşları və onlar tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvəndlənib. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Ölkəmizdə vaksinasiya prosesi bütün bölgələrdə sürətlə və uğurla davam etdirilir və hazırda 40 yaşdan yuxarı olan əhali arasında könüllülük prinsipi ilə vaksinasiya işi aparılır.

### Vətəndaşlar vaksinasiyadan həvəslə keçir

Koronavirusa qarşı vaksinasiya prosesini izləmək üçün Suraxanı rayonunda yerləşən 24 nömrəli Birləşmiş Şəhər Xəstəxanasına yollandıq. Burada iki peyvənd, iki həkim, iki kompüter, vaksin vurulanlar üçün müşahidə otaqları fəaliyyət göstərir.

Ardı 11-ci səh.

# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır

*Əvvəli 1-ci səh.*

Sizin töhfəniz və ideyalarınız bizim işimiz üçün faydalı olacaq. Sizə Bakıya səfəriniz və konfransımızda iştirakınıza görə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, bizə vaxt ayırdığınıza görə bir daha təşəkkür edir və böyük şərəf hissi ilə sözü Sizə verirəm.

**Prezident İlham ƏLİYEV** çıxış edərək dedi:

- Sağ olun. Əvvəlcə, ADA Universiteti və onun rektoru Hafiz Paşayevə belə bir tədbirin təşkilinə görə təşəkkürümü bildirmək istəyirəm. Şadam ki, nisbətən qısa bir zamanda ADA Universiteti Azərbaycanın aparıcı universitetlərindən birinə çevrilib və geniş beynəlxalq əlaqələrə malikdir. Həmçinin mən tədbir iştirakçılarına da minnətdarlığımı bildirirəm. Təsəvvür edə bilərsiniz ki, müharibədən sonrakı vəziyyət olduqca həssasdır. Atəşkəsə əməl olunsa da, münaqişədən sonrakı inkişafla bağlı çoxsaylı suallar var və bu konfransın mövzusu da münaqişədən sonra inkişaf və əməkdaşlıqdır.

Bir daha bütün iştirakçılara təşəkkür edirəm. Biz bunu yalnız regionda cərəyan edən hadisələrə marağın deyil, eyni zamanda, 30 il ərzində Ermənistanın işğalından əziyyət çəkən Azərbaycan xalqı ilə həmrəyliyinizin əlaməti hesab edirik. Münaqişədən sonrakı inkişaf mövzusuna toxunmazdan əvvəl başa düşülməlidir ki, bizim torpaqlarımız 30 ilə yaxın işğal altında olub. Biz ailə üzvlərini itirmiş, özlərinin doğma yurdlarında yaşamaqla bağlı fundamental hüquqlardan məhrum edilmiş insanların taleyini bir kənara qoya bilmərik. Biz Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilmərik. Biz heç vaxt Ermənistan və qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını və günahsız qurbanların xatirəsini unutmayacağıq. Bu səbəbdən həmin yaddaşın bizimlə qalacağını anlamaq olduqca vacibdir. Bu yaddaş qəlblərimizdə yaşayacaq. Eyni zamanda, biz gələcəyə baxmalıyıq. İşğaldan azad olunmuş ərazilərdəki dağıntıların miqyası bizim ən pis gözləntimizdən də qorxuncdur. Bizim şəhər və kəndlərimizdə ermənilər tərəfindən nələrin törədildiyi haqqında təsəvvürümüz var idi. Vaxtaşırı videomateriallar təqdim olunurdu, o torpaqlara səfər edə bilən xarici nümayəndələr tərəfindən məlumatlar verilirdi. Yeri gəlmişkən, bəlkə bilirsiniz ki, o vaxtkı Dağlıq Qarabağa qanunsuz səfər edən əcnəbilər, sizin səfər etdiyiniz ərazilərə gəlmək hüququndan məhrum idi. Onlar keçmiş Dağlıq Qarabağ inzibati vilayətinin ətrafında yerləşən Ağdam, Füzuli və digər rayonlara səfər etmək hüququndan məhrum idi. Səbəb ondan ibarət idi ki, Ermənistan hökuməti onların həmin ərazilərdə olan dağıntıları, işğalın, azərbaycanlılara qarşı olan nifrətin nəticəsinin şahidi olmasını istəmirdi. Aydındır ki, həmin ərazilər Birinci Qarabağ müharibəsi dayandıqdan sonra viran qoyulmuşdu, çünki müharibə gedə-gedə şəhər və kəndləri dağıtmaq mümkün olmazdı. Onlar bunu bilərəkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər. Beləliklə, burada Azərbaycan xalqının hissləri başa düşülməlidir. Biz artıq həmin torpaqlara qayıdaraq işğalçı erməni qüvvələrinin bizim tarixi və dini abidələrimizi, şəhər və kəndlərimizi necə viran etdiyinin şahidiyik. Bu isə münaqişədən sonrakı dövrdə addımlarımızın planlaşdırılması baxımından mühüm amildir. Siz hansı hadisələrin baş verdiyini yaxşı bilirsiniz. Siz prosesdə maraqlanan şəxslərsiniz və burada 30 illik işğalla bağlı geniş danışmağa ehtiyac duymuram. Mən burada çıxışımı dayandırmaq və müzakirələrə daha çox vaxt ayırmaq istəyirəm. Bir daha iştirakınıza görə sağ olun.

Azərbaycan Respublikası Prezidentinin Köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri **Hikmət HACIYEV:**

- Sağ olun, cənab Prezident. İcazənizlə tədbirimizin sual-cavab hissəsinə keçmək istərdik. Burada 10 nəfərdən çox iştirakçı söz almaq arzusunu ifadə edib. Söz ATƏT-in Minsk qrupunun sabiq həmsədri, beynəlxalq ekspert Metyu Brayzəyə verilir.

ABŞ-ın Atlantika Şurasının böyük elmi işçisi, beynəlxalq ekspert **Metyu BRAYZƏ: Təşəkkür edirəm cənab Prezident, bu gün Sizinlə birlikdə olmaq mənim üçün şərəfdən çox şadam. Sizi bu yeni dünyada görməkdən çox şadam. Çıxışınızda qeyd etdiyiniz son məqama - Ermənistanda və Azərbaycanda insanların yanaşması məsələsinə toxunmaq istəyirəm. Azərbaycan innovasiya, texnologiya və taktika ilə yanaşı, misilsiz cəsarət nəticəsində həlledici Qələbə qazanmışdır. Bəziləri bəlkə də bunu dərk eləmir, ancaq Siz təmkinli şəkildə müharibə apardınız. Qarşı tərəfin mülki infrastrukturuna zərər və mülki vətəndaşlar arasında itki minimal səviyyədə olmuşdur. Siz müharibənin hərbi fazasını Şuşadakı Qələbənizdən sonra dayandırmaqla strateji baxış nümayiş etdirdiniz. Müharibə zamanı vurğulanan hədəflər, əslində, illər boyu aparılmış danışıqların, ilkin razılaşmaların, 2009-cu ildə razılaşdırılmış baza prinsipləri ilə uzlaşırdı. Yeganə istisna Dağlıq Qarabağın hüquqi statusu ilə bağlıdır. Onun da səbəbi odur ki, Ermənistan münaqişənin dinc yolla həllini qəbul etmədi və nəticədə müharibədə məğlub oldu. Mənim sualım belədir: Ermənistan dərk edirmi ki, Siz müharibəni təmkinli qaydada aparmısınız və bu, bir müddətdən sonra xalqlar arasında hansısa barışıqla nəticələnə bilərmi? İkinci sualım isə tədbirin sonunda bizimlə fotoşəkil çəkdirmək istəyiniz varmı?**

**Prezident İlham ƏLİYEV:** Əlbəttə, çəkdirərik. Çıxışınıza görə sizə təşəkkür edirəm. Siz danışıqlar prosesində birbaşa iştirak edən şəxs olmusunuz, bizim və Ermənistanın mövqeyinin nədən ibarət olduğunu yaxşı bilirsiniz. Azərbaycanın mövqeyi hər zaman konstruktiv olub. Sizin keçmiş həmkarlarınız - Minsk qrupunun Fransadan və Rusiyadan olan həmsədrləri ilə görüşlər zamanı qeyd olunurdu ki, Azərbaycan münaqişənin tezliklə həllinin tərəfdarı idi, çünki əziyyət çəkən tərəf də biz idik. Danışıqlar zamanı məndə güclü bir hiss var idi və mən bunu sizlərə deyirdim ki, Ermənistan münaqişənin həllini istəmir və bunun üçün əlindən gələni edir. Biz torpaqları azad edəndən sonra orada 100 milyonlarla dollar hesabına başa gəlmiş nəhəng istehkamlar, minalanmış sahələr və müdafiə sədlərinin quruluğunun şahidi olduq. Aydındır ki, onlar bunu torpaqlarımızı əbədi işğal altında saxlamaq üçün etmişlər. Onların taktikası, danışıqlarda iştirak etmək, müəyyən məsələlərə razılıq vermək, digərlərini qəbul etməyərək prosesin imitasiyası ilə məşğul olmaqdan, həlledici qərar verməyə gəldikdə isə geriyə addım atmaqdan ibarət idi. Mən burada əvvəlki hökuməti nəzərdə tuturam. Bu, Fransada Rambuye görüşündə baş vermişdi. 2009-cu ildə Ermənistan Dağlıq Qarabağın ətrafında olan rayonların Azərbaycana qaytarılmasını və dırnaqarası statusun gələcək danışıqlar predmeti olmasını nəzərdə tutan münaqişənin həlli formulasını rədd etdi. Yəni, məsələ bu yerdə idi və siz bunu çox yaxşı bilirsiniz.

Bizim müharibə zamanı davranışımıza gəldikdə, artıq müharibənin ilk günlərindən bəlli idi ki, Azərbaycan yalnız XXI əsrin müharibəsini deyil, eyni zamanda, yeni mənəvi qaydalar əsasında döyüş aparır. Mənim hərbçilərimizə verdiyim ilk əmrlərdən biri ləyaqətlə, təmkinlə davranmaları və mülki vətəndaşlara zərər verməməyə maksimum çalışmağa bağlı idi. Bunun nəticəsində Ermənistan tərəfinin mülki vətəndaşlar arasında itkiləri 40 nəfərdən az oldu. Biz ərazilərimizi azad edirdik və bu ərazilərin bir hissəsində qanunsuz məskunlaşma aparılmışdır. Beləliklə, bizim hücum əməliyyatlarımız və texniki vasitələrimizin yeganə hədəfləri hərbi hədəflər idi. Həmin 40 nəfər mülki erməninin böyük bir hissəsi də hərbi əməliyyatlarda iştirak edənlər idi. Bu mülki vətəndaşlar hərbi hissələrə çağırılmış və əməliyyatlara cəlb olunmuşdular. Ermənilər tərəfindən tərk edilmiş mülki vətəndaşlara olan münasibətimiz də bizim humanist siyasətimizin və ordumuzun humanist davranışının təzahürüdür. Məsələn, Hadrut bölgəsində bir neçə yaşlı insan tərk edilmişdi. Bizim hərbçilər oraya gəldikdə bu insanlar qorxu içərisində idi. Həmin ermənilər keçmişdə azərbaycanlılar arasında yaşadıqlarına görə Azərbaycan dilində səlis danışırdılar. Onlar bizim xəstəxanaya aparıldı. Daha sonra biz Qırmızı Xaç Komitəsinin iştirakı ilə onları təhvil vermək istəyəndə Ermənistan imtina etdi. Yaşlı insanların birinin səhhəti pis idi və onlar dedilər ki, biz onu qəbul etmirik. Beləliklə, həmin şəxs Qırmızı Xaç Komitəsinin iştirakı ilə Azərbaycanda xəstəxanaya yerləşdirildi.

O ki qaldı bizim müharibə zamanı davranışımız Ermənistan tərəfindən düzgün qiymətləndirilirmi sualına, mənim cavabım xeyrdir və bu, çox təəssüf doğuran haldır. Biz münaqişədən sonrakı inkişafdan danışırıq və gələcək barışığa apara biləcək müəyyən elementlər üzərində diqqətimizi cəmləşdirməliyik. Lakin Ermənistanda o qədər uzun müddət dövründə Azərbaycana qarşı demonizasiya siyasəti, uydurmalar, azərbaycanlıları düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal edən formada təqdimatı hökm sürüb ki, cəmiyyətin bunun əksini dərk etməsi üçün vaxt tələb olunacaq. Yalnız müharibə zamanı deyil, biz müharibədən sonrada da eyni davranış nümayiş etdirdik. Biz 1500-dən çox erməni əsgərinin cəsədlərini Ermənistana təhvil vermişik. Biz Rusiya sülhməramlıları ilə birlikdə axtarış əməliyyatlarında iştirak edirik. Onu da deməliyəm ki, Birinci Qarabağ müharibəsində bizim 4 min hərbçimiz itkin düşüb və bir cəsəd belə bizə qaytarılmayıb. Budur, aramızda olan fərq. Biz dəmir yolumuz vasitəsilə Rusiya sülhməramlı qüvvələrinə maneəsiz nəqliyyat və logistika dəstəyini təmin edirik. Onlar dəmir yolu vasitəsilə yüklərini Bərdəyə daşıyır. Bu yüklərin hava yolu ilə İrəvana, oradan isə 5-6 saat avtomaşınlarla Laçın dəhlizindən daşınmasından daha tez və ucuz başa gəlir. Mən digər çoxsaylı nümunələr sadalaya bilərəm. Biz Rusiya ərazisində təmir işlərinin aparılması ilə əlaqədar "Qazprom" şirkətinə Azərbaycan üzərindən Ermənistana təbii qazın nəqlinə icazə vermişik. Biz yox da deyə bilərdik, ancaq biz buna icazə verdik. Bu da bir göstəricidir, bir jestdir. Biz Zəngilan və Qubadlı rayonlarının ərazisində ermənilərə 21 kilometr uzunluğunda yolumuzdan istifadə etməyə icazə veririk. Həmin yol Azərbaycan ərazisindədir və əvvəllər ermənilər tərəfindən istifadə edilib. Biz buna mane olmadıq, ancaq müharibə dövründə işğal altında saxladıqları ərazilərdə bizə bir metr irəli hərəkət etməyə icazə verirdilərmi? Xeyr. Yəni, bütün bunlar birtərəfli qaydada atılmış addımlardır. Bu, təkcə jest deyil, bu, müharibə səhifəsini çevirməklə bağlı düşünülmüş siyasətdir. Giriş nitqimdə ermənilərin bizə qarşı törətdiklərini heç vaxt unutmayacağımızı qeyd etməklə yanaşı, bildirmək istəyirəm ki, biz gələcəyə baxmalıyıq. Hesab edirəm ki, burada biz Ermənistanın vətəndaş cəmiyyətinin daha fəal olmasını gözləyirik. Çünki bu gün Ermənistanda nə hökumət, nə də müxalifət Azərbaycan haqqında nəinki müsbət, heç neytral fikir söyləmək iqtidarında deyil. Bu Azərbaycanofobiya konsepti, onilliklər ərzində azərbaycanlılara qarşı nifrətin aşılanması, əslində, erməniləri hüquqlarından məhrum edib. Ancaq hesab edirəm ki, onlar özlərində cəsarət tapmalı, erməni xalqına həqiqəti söyləməlidirlər. Müharibə artıq tarixdə qalıb, münaqişə həll edilib və biz gələcəyə baxmalıyıq.

ABŞ-ın Prinston Universitetinin dosenti **Maykl REYNOLDZ: Cənab Prezident, 1990-cı illərin sonunda Azərbaycanda belə bir fikir var idi ki, vətəndaş cəmiyyəti və QHT-lər münaqişə başa çatdıqdan sonra etimadın gücləndirilməsi baxımından işlər görə bilər. Siz qeyd etdiniz ki, münaqişə başa çatıb. Bu mənada vətəndaş cəmiyyətləri sülhün möhkəmləndirilməsi və regionda yeni baxışla bağlı hansı rol oynaya bilər? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Hesab edirəm ki, onlar mühüm rol oynaya bilərlər. Xüsusilə də mənim Ermənistanın siyasi seqmentindən gözləntilərim haqqında fikirlərimin fonunda. Burada barışıq məqsədilə addımların atılması üçün vətəndaş cəmiyyətinin fəaliyyəti ilə bağlı geniş imkanlar mövcuddur. Sizin də bununla bağlı bəlkə məlumatınız var - Ermənistanın vətəndaş cəmiyyətinin çox azsaylı nümayəndələri var ki, Azərbaycanla sülh barəsində danışsın. Belə fikir söyləyənlər isə ictimai təqiblərə, bəzən fiziki hücumlara məruz qalırlar. Onlara xəyanətkar deyilir və erməni siyasətçiləri onları türk adlandırırlar. Bu isə onların siyasi jarqon dilində yəqin ki, təhqir deməkdir. Yəni, siyasətçilər onlara hədə-qorxu gəlirlər. Biz, hətta münaqişə dövründə vətəndaş cəmiyyəti nümayəndələri arasında körpü yaratmağa cəhdlər etmişik. İki dəfə belə bir nümayəndə heyəti Ermənistanda və Qarabağda səfərdə oldu. Onlar da Bakıya səfər etdilər. Lakin vətəndaş cəmiyyətinin nümayəndələri, jurnalistlər və parlament üzvlərinin ikinci səfərindən sonra erməni tərəfi bunu dayandırdı. Mən Ermənistanın ozamankı prezidenti Sarkisyandan soruşanda ki, bunu niyə dayandırdınız, cavab verə bilmədi. Sonra məlum oldu ki, onlar müəyyən yaxınlaşma, müəyyən əməkdaşlıq elementlərinin yarana biləcəyindən qorxdular. Yəni, onlar hər zaman buna mane olurdular. Ancaq indi onlar fərqli vəziyyətdədir. Biz mesajlarımızı Ermənistan cəmiyyətinə çatdırmaq iqtidarında olmalıyıq. Bu baxımdan resurslar məhduddur. Ermənistanda ictimai mühitə hökumət tərəfindən ciddi nəzarət edilir və dediyim kimi, Azərbaycanla bağlı deyilən istənilən müsbət söz xəyanət hesab olunur. Bu səbəbdən, beynəlxalq təşkilatlar, xüsusilə də münaqişədən sonrakı dövrdə barışıq və münasibətlərin normallaşdırılması, habelə etimad quruculuğu tədbirləri sahəsində təcrübəsi olanlar daha fəal ola bilərlər. Bu işdə QHT-lərin rolu böyük ola bilər və Azərbaycan bu məsələdə QHT-lərlə çalışmağa hazırdır.

İtaliya Beynəlxalq Siyasi Araşdırmalar İnstitutunun kiçik elmi işçisi **Karlo FRAPPİ: Təşəkkür edirəm, cənab Prezident, iştirakımdan şərəf duyuram. Mənim sualım yenidənqurma ilə bağlıdır. Azərbaycanın tərəfdaşları bu işdə Sizə necə kömək edə bilərlər? İtaliya-Azərbaycan münasibətlərini xüsusi qeyd etmək istəyirəm. 2020-ci il münasibətlərimiz üçün mühüm il olmuşdur. Mən "Cənub qaz dəhlizi"nin, nəhayət, istifadəyə verilməsini nəzərdə tuturam. Ancaq zənnimcə, burada söhbət daha geniş təmasların nəticəsindən gedir. Sizin ötən ilin fevralında İtaliyaya dövlət səfəriniz dönüş nöqtəsi olmuşdur. Səfər zamanı "Çoxölçülü Strateji Tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannamə"nin imzalanması ilə İtaliya ilk dəfə Azərbaycanın ərazi bütövlüyünə sadiqliyini vurğuladı. Bu, İtaliyanın ötən illər ərzində apardığı siyasətdən və Avropa İttifaqına üzv olan bəzi dostlarımızın siyasətindən uzaqlaşması demək idi. Həmin öhdəlik müharibədən sonra da rəsmi olaraq yenidən vurğulandı. İtaliyanın yüksək rütbəli rəsmilərindən ibarət nümayəndə heyətinin azad olunmuş ərazilərə səfərindən sonra, cənab Prezident, Siz qeyd etdiniz ki, Azərbaycan yenidənqurma işlərində İtaliya ilə sıx əməkdaşlıq etmək əzmindədir. Mənim sualım belədir: hazırda vəziyyət necədir və gələcəklə bağlı gözləntilər nədən ibarətdir? İtaliya təkcə yenidənqurma prosesində deyil, barışıq mövzusunda da necə kömək edə bilər? Sağ olun.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. İkitərəfli tərəfdaşlığımızla bağlı sizin dediklərinizlə tamamilə razıyam. İtaliya bizim yaxın dostumuz və tərəfdaşımızdır. Mən ötən il İtaliyaya dövlət səfərimi yaxşı xatırlayıram. Bildiyiniz kimi, ondan öncə İtaliyanın Prezidenti cənab Mattarella Azərbaycana dövlət səfərinə gəlmişdi. Mənim səfərim strateji dialoqun davamı idi. Qeyd etdiyiniz kimi, biz strateji tərəfdaşlıqla bağlı sənəd imzaladıq. Bu, ikinci belə bir sənəd idi. Birincisi, bir neçə il ondan öncə imzalanmışdı. Bu, bizim qarşılıqlı sadiqliyimizi nümayiş etdirir.

Qeyd etdiyiniz kimi, biz İtaliyaya münaqişənin həlli ilə bağlı birmənalı və ədalətli yanaşmaya görə minnətdarıq. Biz bilirik ki, bu mövqeyi aydın ifadə etmək o qədər də asan məsələ deyil, xüsusilə də Avropa İttifaqı ailəsində Ermənistanın güclü tərəfdarları var. Onlar hər zaman münaqişə qurbanı ilə işğalçı qüvvələri eyni tərəziyə qoymağa çalışıblar. Yəni, mövqeyiniz bu əməkdaşlığın vacib əlaməti olub. Onu da deyə bilərəm ki, biz artıq Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalamışıq və zənnimcə, İtaliya ilə olan təcrübəmiz onları bu işə həvəsləndirib.

Bizim siyasi əlaqələrimiz əladır. Biz güclü əməkdaşlığı davam etdiririk. Bu əməkdaşlıq müharibə zamanı və müharibədən sonrakı dövrdə sınaqdan keçib və qeyd etdiyiniz kimi, İtaliya nümayəndə heyətinin azad olunmuş ərazilərə səfəri tərəfimizdən dəstəyin növbəti əlaməti hesab edilmişdir. Yenidənqurma ilə bağlı planlaşdırmanın ilk günlərindən biz İtaliya şirkətlərini dəvət etdik. Bu dəvət İtaliyanın ölkəmizdəki səfirliyi vasitəsilə edildi. Yeri gəlmişkən, artıq fəaliyyət müddətini başa vurmuş səfiriniz İtaliyanın maraqlarının və İtaliya işgüzar dairələrinin ölkəmizdə təşviqi baxımından olduqca fəal idi. O, Azərbaycanın yaxşı dostu idi. Beləliklə, biz İtaliyanın ölkəmizdəki səfirliyinə müraciət edərək italyan şirkətləri ilə bağlı tövsiyələr verməyi xahiş etdik. Bizim əvvəlki illərdə təmaslarımız olub, çünki italyan şirkətləri ölkəmizdə böyük layihələr icra ediblər ki, bura neft-kimya, neft emalı, tikinti və memarlıq layihələri daxildir. İşə artıq start verilib və biz italyan şirkətlərinin iştirakını genişləndirmək arzusundayıq.

Mən bildirmişdim ki, müharibədən sonra biz dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bu, təbii haldır, çünki müharibə bizim üçün kimin-kim olduğunun aydın göstəricisi idi. Əlbəttə, bizim bu və ya digər ölkənin mövqeyi ilə bağlı müəyyən ehtimallarımız var idi, ancaq 100 faiz əminlik yox idi və burada müharibə hər şeyi aydın göstərdi. İtalyan şirkətlərinin artıq dəvət edildiyi sahələrə gəldikdə, biz muzey və müharibə memoriallarının yaradılması işinə italyan şirkətini cəlb etmişik. Biz təkcə Bakıda deyil, digər şəhərlərdə, o cümlədən azad olunmuş ərazilərdə də Zəfər muzeyləri və müharibə memorialları yaradacağıq. Bu, bir sahədir.

İtalyan şirkətlərini dəvət etdiyimiz digər sahə enerji istehsalıdır. Müharibədən sonra nəinki təmaslar qurulub, hətta ilkin sənədlər belə imzalanıb. Azad olunmuş ərazilərdə enerji istehsalı üçün nəhəng potensial var, xüsusilə də söhbət yenilənən enerji mənbələrindən - su, günəş və küləkdən əldən olunan enerjidən gedir. Dediyim kimi, ilkin sənədlər artıq imzalanıb. Biz azad olunmuş ərazilərdə İtaliyanın kənd təsərrüfatının inkişafı təcrübəsindən də faydalanmaq niyyətindəyik, çünki həmin ərazilər münbit torpağa malikdir və orada maksimum məhsuldarlıq əldə etmək olar. Deyə bilərəm ki, hazırda azərbaycanlı həmkarları ilə fəaliyyətə başlamış xarici şirkətlər Türkiyə, İtaliya və Böyük Britaniyadandır.

Əlbəttə, biz yenidənqurmanın ilk mərhələsindəyik. Yenidənqurma başlayıb, infrastruktur layihələri icra olunur, ancaq gələcək üçün nəhəng potensial var və digər ölkələrdən də yeni şirkətlər işə başlayacaq. Biz bütün dostlarımızın yenidənqurma işlərində iştirakını və bu imkanlardan faydalanmasını arzulayırıq. Ölkə, hökumət və xalq olaraq biz yaxşılığı unutmuruq. Biz bu yaxşılığı hər zaman qəlbimizdə saxlayır və bunun qarşılığında buna bərabər yaxşılıq etməyə çalışırıq. İtaliya ilə dostluq münasibətlərimizi, güclü siyasi əlaqələri, italyan şirkətlərinin böyük təcrübəsini, - əminəm, siz də mənimlə razılaşarsınız ki, İtaliya dünya mədəniyyətinin mərkəzlərindən biridir, - bizim dini və tarixi abidələrimizin bərpası planlarını nəzərə alsaq, burada geniş və çoxşaxəli əməkdaşlıq imkanları olacaq.

Beynəlxalq Böhran Qrupunun Türkiyə nümayəndəliyindən **Nigar GÖKSEL: Cənab Prezident, dünən biz Ağdamda olduq, böyük miqyasda fiziki dağıntının şahidi olduq, eyni zamanda, parçalanmış həyatların faciəsini, insanlara dəyən ziyanı təsəvvür edə bildik. Mən hesab edirəm ki, yenidənqurma ilə yanaşı, Ağdamın yerli sakinləri öz evlərinə qayıdanda onların yaxınlıqdakı erməni kəndləri ilə qarşılıqlı əlaqədə ola bilmələri üçün etimadın yaranması müəyyən vaxt və səy tələb edəcək. Mənə maraqlıdır, Siz bu etimadın yenidən yaranması üçün onların, İnşallah bir gün yanaşı, sülhməramlılar olmadan yaşaya bilməsi üçün Ermənistan tərəfdən, eləcə də Qarabağdakı ermənilərdən hansı addımları gözləyirsiniz. Mən, həmçinin daha geniş planda bilmək istərdim, Siz yaxın və orta müddətli perspektivdə Türkiyənin Ermənistanla sərhədini açmasının həm regional inteqrasiya baxımından, həm də cəmiyyətdə geniş şəkildə müşahidə etdiyimiz türkofobiyanın azalması baxımından faydalı olacağını düşünürsünüzmü? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Sözsüz ki, azərbaycanlıların və ermənilərin gələcəkdə necə qarşılıqlı əlaqədə olacağını proqnozlaşdırmaq çətindir. Düşünürəm ki, bu, əhəmiyyətli dərəcədə siyasətçilərin iradəsindən və siyasi müdrikliyindən asılı olacaq. Çünki düşünürəm ki, körpülər yaratmağa çalışmaq üçün burada və İrəvanda bizim daha fəal olmağımıza ehtiyac var. Əlbəttə ki, əgər Ermənistan bunu istəyirsə. Biz onların niyyətlərinin nə olduğunu bilmirik. Onlar heç vaxt bu barədə ətraflı məlumat verməyiblər. Mən artıq dəfələrlə açıq şəkildə bildirmişəm ki, biz münaqişə səhifəsini bağlanmış hesab edirik. Biz, hətta Ermənistanla mümkün sülh razılaşması barədə danışa bilərik və mən bunu bir neçə dəfə demişəm. Bizim planlarımız budur. Lakin biz Ermənistan tərəfdən bu cür mesajlar almamışıq. Ermənistanın baş naziri susur, Ermənistanın xarici işlər naziri çox aqressivdir və indi Ermənistan elə vəziyyətdə deyil ki, Azərbaycana qarşı aqressiv olmağı özünə rəva görsün. Onlar müharibə vaxtı nə baş verdiyini xatırlamalıdırlar. Ermənistan müxalifəti hazırda faktiki olaraq isterikadadır və azərbaycanofobiya, türkofobiya onların əsas, - bu, hər zaman çox mühüm olub, - lakin indi zənnimcə, yeganə amilinə çevrilib. Mən əminəm ki, onlar öz seçki kampaniyalarını azərbaycanofobiya, türkofobiya, revanşizm hissləri üzərində quracaqlar. Ona görə də biz bu qarşılıqlı fəaliyyəti birtərəfli qaydada qura bilmərik. Bizim mövqeyimiz aydındır. Biz buna hazırıq. Bu, asan olmayacaq. Ağdam və digər ərazilərə qayıdacaq keçmiş qaçqınlar ermənilərin onların torpaqlarına, əzizlərinin qəbirlərinə, dini abidələrinə nə etdiyini görəcəklər. Onlar nə hiss edəcəklər? Mən proqnozlaşdıra bilərəm. Mən müharibə vaxtı təmas xəttinə yaxınlaşanda, Ağdamı yalnız binoklla görə biləndə və bütün işğal olunmuş ərazilərə gedəndə eyni hissi keçirmişəm. Bəli, mən Prezidentəm və vəzifələrimə uyğun davranmalıyam. Lakin biz hamımız insanıq, hisslərimiz var. Biz onları gizlədə bilərik, onlara nəzarət edə bilərik, lakin bəzən bu, çox çətin olur. Buna görə də mən proqnozlaşdıra bilmərəm, əksinə, mən keçmiş azərbaycanlı qaçqınların nə hiss edəcəyini proqnozlaşdıra bilərəm. Lakin Prezident olaraq, gələcəyə baxan bir şəxs olaraq, əgər Ermənistan bizə müsbət işarələr versə, biz bu əlaqələri qura bilmək üçün hər şeyi edərik. Bizim tərəfimizdən birtərəfli qaydada edilənlər, mən artıq qeyd etmişəm, bunun aydın göstəricisidir. Mənə inanın ki, biz bunların heç birinin olmasına imkan verməyə bilərdik və heç kim bizi məcbur edə bilməzdi. Biz bunu düşünülmüş şəkildə etmişik. Bu, birinci. İkinci suala gəlincə, biz Türkiyəyə münasibətdə siyasətlərinin yenidən nəzərdən keçirilməsi ilə bağlı Ermənistan isteblişmentində bəzi işarələr və bəzi zəif fikirlər görürük. Hətta münaqişə zamanı mən dəfələrlə bu barədə danışaraq demişəm ki, tamamilə qəbuledilməz və qəribədir ki, Ermənistan kimi kiçik, yoxsul və zəif ölkənin Türkiyə kimi böyük və güclü ölkəyə qarşı ərazi iddiaları var. Onlar öz ideoloji doğmalarına o qədər tabe idilər və türkofobiya dövlət siyasəti oldu ki, onlar hətta reallıq hissini itiriblər. Bildiyimə görə, Türkiyə hökuməti addımlarını çox konstruktiv şəkildə planlaşdırır. Lakin, əlbəttə ki, onlar adekvat cavab almalıdır. Ermənistan ilk olaraq nə etməlidir? Onlar Türkiyəyə qarşı ərazi iddialarından əl çəkməlidir, öz konstitusiyalarını yenidən yazmalıdırlar. Onlar yeni konstitusiya qəbul etməlidirlər. Onlar bunu planlaşdırırlar, lakin bu, hökumətin siyasi gündəliyi üçündür. Hökumət öz siyasi mövqeyini gücləndirmək istəyir. Lakin, eyni zamanda, düşünürəm ki, onlara yaxşı məsləhət verə bilərəm. Öz konstitusiyalarından Türkiyəyə qarşı ərazi iddialarını çıxarsınlar. Mən bilmirəm, hansı ölkənin konstitusiyasında digər ölkəyə qarşı ərazi iddiaları var. Zənnimcə, bu, nadir haldır və hər kəs başa düşməlidir ki, tarix boyunca çoxsaylı müharibələr olub və onların soyqırımı ilə bağlı saxta tarixinin reallıqla heç bir əlaqəsi yoxdur. Bu, müharibə idi, elə bir vəziyyət idi ki, insanlar bir-birilə savaşırdılar, ölkələr bir-birilə savaşırdı, lakin sonra barışıq oldu. Yeri gəlmişkən, həmin dövrdə Ermənistanın nəinki Osmanlı imperiyası ilə çətinlikləri var idi, onların digər qonşuları ilə də çətinlikləri var idi. Niyə onlar haqsız hücumları üçün yalnız Türkiyəni seçdilər? Türkiyə hökuməti bu məsələlərlə qərəzsiz, obyektiv şəkildə məşğul olmaq üçün tarixçilərdən ibarət birgə qrupların yaradılmasını açıq şəkildə dəfələrlə təklif edib. Lakin onlar imtina ediblər. Niyə? Çünki onların siyasi dividendlər qazanmaq üçün bu saxta tarixə ehtiyacı var. Onlar bəzi ölkələrdən müdafiə, müəyyən yardım əldə etmək üçün bu saxta hekayədən istifadə edirdilər. Beləliklə, mənim mövqeyim bundan ibarətdir. Eyni zamanda, nə əlavə edə bilərəm. Əlbəttə ki, mən Türkiyənin adından danışa bilmərəm, lakin deyə bildiyim sirr deyil. Bildiyiniz kimi, bu gün biz kommunikasiyanın açılmasını, xüsusilə Zəngəzur dəhlizini müzakirə edirik və Zəngəzur dəhlizi Türkiyənin razılığı və onların iştirakı olmadan açıla bilməz. Baxmayaraq ki, Türkiyə Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunda iştirak etmir, Türkiyə müzakirələrlə bağlı bizim tərəfimizdən məlumatlandırılır və əgər Ermənistan kommunikasiyalarla bağlı çətinliklərə son qoymaq istəyirsə, onlar tranzit ölkə olmaq üçün hər hansı imkana malik olmaq istəyirlərsə, yalnız Türkiyə onları bununla təmin edə bilər. Bildiyimə görə, Türkiyə hökuməti hazırdır. Beləliklə, top Ermənistan tərəfdədir. Onların yaxşı həkimlərə ehtiyacı var. Mən dəfələrlə demişəm, onlar zəhərləniblər. Bu zəhər əsasən onların Fransanın cənubunda, Kaliforniyada, Krasnodar diyarında və bəzi başqa paytaxtlarda çox sakit və gözəl yerlərdə oturub öz həyatlarından zövq alan diasporundan gəlir. Onlar istəyirlər ki, keçmiş Dağlıq Qarabağda və Ermənistanda olan ermənilər onların girovları, alətləri olsun, onlar da bəzi iddialı və şovinist ideyaları ilə məşğul ola bilsinlər.

*Ardı 3-cü səh.*



# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır







*Əvvəli 2-ci səh.*

Erməni cəmiyyətinin dəmir pərdəni dağıtmağa ehtiyacı var, əgər mən bu analogiyalar barədə danışa bilərəmsə, onlar dəmir pərdə arxasında yaşayırlar və bu zəhərli ideyaların təsiri altındadırlar. Biz bu işdə onlara kömək etməyə hazırıq.

Rusiyanın Dünya İqtisadiyyatı və Beynəlxalq Münasibətlər İnstitutunun böyük elmi işçisi **Stanislav PRİTÇİN: Cənab Prezident, bu gün Sizinlə birlikdə olmaq böyük şərəfdir. Vaxt ayırdığınıza görə çox sağ olun. Mənim sualım Azərbaycanın gələcəyi ilə bağlıdır. Hər kəs bilir ki, bir neçə aydan sonra Azərbaycan müstəqilliyinin 30 illiyini qeyd edəcək və həmin vaxta qədər Azərbaycan bəlkə də müstəqilliyinin, ərazi bütövlüyünün bərpasının əsas məsələsini, əsas məqsədini həll edib. Zənnimcə, indi növbəti 30 il üçün uzunmüddətli məqsədlər müəyyənləşdirmək vaxtıdır. Bununla əlaqədar, Sizdən soruşmaq istərdim Azərbaycanın gələcəyi ilə bağlı baxışınız necədir? Azərbaycan dövlət olaraq gələcək üçün hansı məqsədlər müəyyənləşdirib? On, iyirmi ildən sonra ümumi daxili məhsul, iqtisadiyyatın inkişafı, strategiya baxımından, ümumiyyətlə, dövlət olaraq Azərbaycanı necə görürsünüz? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Bu suallara cavab vermək üçün bizim bəlkə də bir neçə saatlıq xüsusi sessiyaya ehtiyacımız var. Lakin mən çox qısaca cavab verməyə çalışacağam. Biz Azərbaycan üçün ortamüddətli və uzunmüddətli inkişaf strategiyasını faktiki olaraq müharibədən əvvəl işləyib hazırlamışdıq. Əlbəttə ki, ərazilərin işğaldan azad edilməsi əlavə imkanlar verəcək. Çünki ərazilərin bərpası çoxlu resurs tələb edəcək. Lakin, eyni zamanda, bu resurslar Azərbaycanda sərf olunacaq. Onlar biznesi stimullaşdıracaq, iqtisadiyyatımızın tikinti sektorunu stimullaşdıracaq, yeni iş yerləri yaradacaq, imkanlar yaradacaq, kənd təsərrüfatına əlavə dəyər qatacaq. Bu səbəbdən də indi bizim müəyyən mənada iki inkişaf proqramımız var. Birincisi, bizim hər il qəbul etdiyimiz illik inkişaf proqramı və həmçinin 2030-cu ilədək inkişaf proqramı. İkincisi, Qarabağın bərpası üçün inkişaf proqramıdır ki, hazırda bu, başlanğıc mərhələsindədir. Hazırda bizim hökumət strukturlarımız ikisi arasında birləşmə və ya koordinasiya üzərində işləyir ki, eyni məqsəd üçün iki dəfə xərc çəkilməsin. Bu məqsədlə, hazırda biz işğaldan azad edilmiş ərazilərdə tamamilə yeni idarəçilik modelini təqdim edirik. Prezident hakimiyyətinin, Prezident Administrasiyasının fərqli idarəçilik modeli olacaq və inkişafa çox müasir yanaşma olacaq, təkcə bərpa zamanı deyil, həm də bərpadan sonra. Ona görə də hazırda biz Ermənistan tərəfindən qanunsuz istismar olunmuş bütün resurslarımızı qiymətləndiririk. Həmin ərazilərdə mədənçilik üçün böyük potensial var. Yeri gəlmişkən, biz işğaldan azad edilmiş ərazilərdə mis və qızıl resurslarımızı qanunsuz şəkildə istismar etmiş bəzi dırnaqarası iş adamlarına qarşı artıq qanuni prosedurlara başlamışıq. Bərpaolunan enerji, xüsusilə külək enerjisi üçün nəhəng potensial var. İşğaldan azad edilmiş ərazilərin bəzi yerlərində, məsələn, Laçında, Kəlbəcərdə külək enerjisi üçün nəhəng potensial var. Cəbrayılda, Zəngilanda günəş enerjisi və su üçün nəhəng potensial var. Laçın və Kəlbəcəri azad edəndən sonra biz əsas su ehtiyatlarımıza çıxış əldə etmişik. Çünki Qarabağdakı erməni əhalisinin istifadə etdiyi su ehtiyatlarımızın əksər hissəsi öz mənbəyini oradan alır. Hazırda biz ermənilərin müharibə bitəndən sonra Kəlbəcəri tərk edənədək dağıtdığı 12 su elektrik stansiyasının bərpası prosesindəyik. Beləliklə, 15 gün ərzində onlar 12 su elektrik stansiyasını dağıdıblar. Bu da onların hisslərini və siyasətini nümayiş etdirir. Sözsüz ki, biz həmin ərazilərdə xüsusi yaşayış standartları yaratmaq istəyirik, çünki oraya qayıdacaq insanlar 30 il əziyyət çəkiblər. Onların layiqli həyata ehtiyacı var. Ona görə də "ağıllı kənd" üzrə ilk pilot layihəyə artıq başlanılıb, şəhər planlaşdırılmasına başlanılıb. Beləliklə, Qarabağ iqtisadiyyatımızın qeyri-enerji sektorunda, həmçinin nəqliyyatda böyük həcmdə ümumi daxili məhsul istehsal edəcək. Üç hava limanı ilə bağlı proses artıq başlayıb. Bir hava limanında işlər artıq başlayıb. Dəmir yolu əlaqələri. Yerləşməyini və qonşulara yaxınlığını nəzərə alaraq Zəngilan mühüm nəqliyyat və logistik hab ola bilər.

Azərbaycanın qalan hissəsinə gəlincə, əsas strategiyamız iqtisadiyyatın qeyri-enerji sektorunu inkişaf etdirməkdir. Həyata keçirdiyimiz islahatlar yaxşı nəticələr verir. Biz bu nəticələri əsasən yaxşı idarəçilikdə görürük. Bu üç ayda biz planlaşdırdığımızdan daha çox vergi və gömrük rüsumu toplamışıq, profisit təxminən 400-500 milyon manatdır. Büdcəmizdə neftin bir barrelinə görə 40 dollar nəzərdə tutulub. Əgər bu, bir barrelə görə 30 dollar olsa belə, Azərbaycan əhalisi bunu hiss etməyəcək. Beləliklə, sənayeləşmə, qeyri-enerji sektoruna daha çox investisiya cəlb olunması, biznes imkanları. Siz yəqin ki, eşitmisiniz, aparıcı reytinq agentlikləri bizim reytinqimizi yaxşılaşdırıb. Dünya Bankının "Doing Business" hesabatında biz 28-ci yerdəyik. Beləliklə, biznes mühiti yaxşılaşır. Bizim əhali çox savadlıdır. Gənc nəsil ideyalarla çıxış edir, bu, gələcəyə ümiddir. Mənim müharibə vaxtı dediyim kimi, müharibənin ən böyük yükü, mən hakimiyyətə gələndə uşaq olanların çiyinlərinə düşüb. Beləliklə, biz gənc nəslin inkişafına kömək etməyə nail olduq. Enerji ehtiyatlarını və iqtisadiyyatımızı əlavə təchizat mənbələri ilə təmin edəcək bütün əsas neft və qaz kəmərlərinin tamamlanmasını nəzərə alaraq biz xarici yardımdan asılı deyilik. Bizim xarici borcumuz ümumi daxili məhsulun təxminən 18 faizinə bərabərdir. Mən qarşıya onu ümumi daxili məhsulda 10 faizədək azaltmaq hədəfi qoymuşam. Bu, dünyada ən yaxşı nəticələrdən biri olacaq. Bizdə yoxsulluq səviyyəsi çox aşağıdır, təxminən 5 faiz. Mən bu vəzifəyə gələndə bu, 49 faiz idi. Biz faktiki olaraq hiss edirik ki, strateji baxışla bağlı bütün planlarımızı həyata keçirmək iqtidarında olacağıq. Lakin bunun üçün bizim Azərbaycanın daxilində artıq 28 ildir olan sabitliklə yanaşı, sərhədlərimizin hüdudlarından kənarda sabitliyə ehtiyacımız var. Əsas işlərimizdən biri riskləri minimuma endirmək üçün atacağımız addımlarımız olacaq. Biz Qoşulmama Hərəkatının sədri öhdəliklərini böyük uğurla həyata keçirmişik. Bizim regionda beynəlxalq səylərimiz yeni əməkdaşlıq formatlarının yaranmasına gətirib çıxardı. Türkiyə-Rusiya, Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İranla artıq üçtərəfli əməkdaşlıq var. Bu da sabitlik və proqnozlaşdırılmaya töhfədir və əlbəttə ki, Ermənistan tərəfdən qisas cəhdləri sıfır risk olmalıdır. Əgər onlar bunu etsələr, dediyim kimi, biz sülh istəyirik, lakin biz onları tamamilə məhv edərik. Onları tamamilə məhv edərik və indi dediklərimi unutmağa qoymarıq.

İsveçin Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru **Svante KORNEL** (onlayn): **Çox sağ olun, hörmətli cənab Prezident. Əvvəla, icazə verin, Sizi və Azərbaycan xalqını Azərbaycanın ərazi bütövlüyünün bərpası münasibətilə təbrik edim. Aydındır ki, bu tarixi nailiyyət Qafqaz regionunu və onun sərhədlərini aşaraq siyasəti dəyişmişdir. Ən önəmlisi, hesab edirəm ki, bu nailiyyət dünyaya Azərbaycanın bacarıqlarını və Azərbaycan dövlətçiliyinin qətiyyətini nümayiş etdirmişdir. Azərbaycanın böyük güclər arasında real və ya təsəvvürdə olan geosiyasi oyunların bir obyekti olmadığı, tam əksinə, öz hüququ olan bir güc olduğu sübuta yetirilmişdir. Əlavə edərdim ki, biz bu tendensiyanı regionda müşahidə edirik, harada ki, Azərbaycanla birlikdə, Özbəkistan və Qazaxıstan kimi bir neçə dövlət real tərəflərə çevrilir. Bunun aydın olduğunu nəzərə alaraq, cənab Prezident, sualım ondan ibarətdir ki, bu, Azərbaycanın xarici siyasətinə, onun ətraf ölkələrlə, o cümlədən regional güclərlə, həmçinin şərqə doğru Mərkəzi Asiyada yerləşən və bir çox maraqları paylaşdığınız ölkələrlə münasibətlərinizə necə təsir göstərəcək? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Şərhlərinizə və ərazi bütövlüyünün bərpası ilə bağlı təbriklərinizə görə təşəkkür edirəm. Siz tamamilə haqlısınız. Tamamilə əminəm ki, biz beynəlxalq birliyin bir çox üzvlərinə məlum olmayan bacarığımızı nümayiş etdirdik. Əslində, bütün bu illər ərzində biz sakit bir mühitdə hazırlığımızı görürdük. Biz nəyisə gizlətmirdik, xeyr. Bizim etdiyimiz hər bir şey açıq şəkildə edilmişdir. Lakin biz özümüzü təşviq etməyə, təqdimatlar keçirməyə, PR aparmağa cəhd göstərmirdik. Biz ölkə üçün, xalqımız üçün doğru olanı edirdik və bir çox sosial məsələləri həll edirdik, qaçqınları yenidən məskunlaşdırırdıq. Birinci Qarabağ müharibəsində qətlə yetirilənlərin ailələri üçün yaxşı şəraiti təmin edirdik, iqtisadiyyatı gücləndirirdik, həyata keçirilməsi asan olmayan nəhəng transmilli enerji layihələrini icra edirdik. Beləliklə, biz ölkəni gücləndirmək və onu həqiqətən müstəqil etmək üçün hər bir şeyi edirdik. Ona görə mən bu vəzifəyə gələndə iqtisadi müstəqillik gündəliyimdə duran bir nömrəli hədəf idi. Çox qısa müddət ərzində biz Beynəlxalq Valyuta Fonduna olan bütün borclarımızı geri ödədik. Bundan sonra isə bizim mühüm islahatları həyata keçirmək üçün çoxlu imkanlarımız oldu. Biz müstəqil iqtisadiyyat qura bildik. Artıq dediyim kimi, biz hər hansı bir xarici yardımdan, kreditdən asılı deyilik. Bu da siyasi müstəqilliyə, kimin nə dediyindən və necə reaksiya göstərməsindən asılı olmayaraq, ölkələrlə münasibət qurmaq bacarığımıza gətirib çıxardı. Bilirik, bizim bəzi ölkələrlə təmaslarımız bəzi böyük güclərin xoşuna gəlmir. Lakin bu, bizim problemimiz deyil. Biz Azərbaycanın, ölkəmizin marağında olanları, onun necə gücləndirilməsi ilə bağlı olanları, xalqımızın marağına uyğun olanları və bu vəziyyətdə daha çox təhlükəsizliyin necə təmin olunması ilə bağlı olanları edirik. Müharibədə göstərilənlər bizim hərbi bacarığımız da daxil olmaqla beynəlxalq ekspertlərə məlum idi. Çünki biz olanlarımızı paradlarda bir neçə dəfə nümayiş etdirmişdik. Ola bilsin, biz özümüzdə olan hər bir şeyi nümayiş etdirmirdik, lakin hesab edirəm, müharibə onu göstərdi ki, nəyisə sürpriz kimi saxlamaq doğru addım idi. Biz açıq şəkildə qüdrətli ordu qururuq. Dövlət büdcəmizin ən böyük hissəsi hərbi quruculuğa sərf edilib. Mən Ermənistanın bunu sülh yolu ilə etmədiyi təqdirdə, ərazi bütövlüyümüzü güc yolu ilə bərpa edəcəyimizi gizlətmirdim. Beləliklə, müharibə sanki bizim bacarığımızın konsentrasiya olunmuş şəkildə həyata keçirilməsi idi. Biz heç vaxt özümüzü həddindən artıq qiymətləndirməmişik. Biz heç vaxt Azərbaycanın aparıcı ölkələrin gündəliyində bir nömrəli və ya onuncu məsələ olduğunu düşünməmişdik, xeyr onların başqa məsələləri var. Biz bunu normal qəbul edirik. Çünki nəhəng güclər bizi nə qədər az xatırlasa və ya haqqımızda az düşünsə, bu, bizim üçün bir o qədər də yaxşıdır. İndi nə baş verəcək və nə baş verir məsələsinə, qonşu ölkələrə gəldikdə münasibətlər çox uğurla inkişaf edir. Müharibə bir daha nümayiş etdirdi ki, - mən bunun təfərrüatlarına dərindən varmaq istəmirəm, - bizi qonşularımızın davranışı və ya hərəkətləri, əsasən, qane edir.

Əlbəttə ki, biz müharibənin ilk günündən son gününə qədər çox güclü siyasi və mənəvi dəstəyə görə qardaş Türkiyəyə minnətdarıq. Lakin digər üç qonşumuza gəldikdə, bizim əsas hədəfimiz onların bitərəf qalması idi. Bu da bəzi ölkələrdə müəyyən dərəcədə, digər ölkələrdə isə nisbətən yüksək dərəcədə baş verdi. Lakin buna baxmayaraq, mən bunun təfərrüatlarına dərindən varmaq istəmirəm. Müharibədən sonrakı vəziyyət onu da nümayiş etdirir ki, indi bizim qonşularımız regional inkişafla bağlı baxışlarımızı paylaşırlar. Yeri gəlmişkən, biz bunu artıq qonşu ölkələrlə müzakirə etmişdik. Region necə inkişaf etməlidir, nəqliyyat, logistika ilə bağlı hansı layihələr olmalıdır, enerji əməkdaşlığı, ticarət və sairə. Beləliklə, bizdə heç bir fikir ayrılığı yoxdur. Doğrudur, Ermənistan hələ açıq şəkildə öz siyasətini bəyan etməyib, lakin onların de-fakto etdikləri də qənaətbəxşdir. Mən hökuməti nəzərdə tuturam. Xəzər dənizinin o tayında olan qonşularımızla münasibətlər uğurla inkişaf edir və onların hər biri ilə bizim konkret əməkdaşlıq istiqamətimiz var. Ən böyük hissə nəqliyyatla əlaqəlidir. Çünki Azərbaycan Türkiyə ilə dəmir yolu bağlantısı, dəniz limanı və avtomagistrallar kimi bütün nəqliyyat və logistika layihələrini tamamladıqdan sonra artıq önəmli nəqliyyat qovşağına çevrilib. Açıq dənizə çıxışımızın olmamasına baxmayaraq, biz şərq-qərb və cənub-şimal nəqliyyat dəhlizlərində fəal iştirak edirik. İndi isə bu layihələrə daha çox ölkələr cəlb olunur. Odur ki, Xəzər dənizinin o biri tayındakı qonşularımızla əməkdaşlığın əsas sahəsi nəqliyyatdır, lakin əməkdaşlıq təkcə bundan ibarət deyil. Biz qarşılıqlı ticarətin həcminin necə artırılması, qarşılıqlı investisiyaların yatırılması üçün daha yaxşı imkanların necə təmin olunması üzərində çox yaxından çalışırıq.

Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru **Xalid Teymur ƏKRƏM: Çox sağ olun, cənab Prezident. Mən, ilk növbədə, Pakistan xalqı və dövləti adından bu Qələbə münasibətilə Sizi təbrik etmək istəyirəm. Pakistan xalqı Sizinlə çox qürur duyur. Siz Pakistanda məşhur bir şəxsə çevrilmisiniz. Çünki hər gün Siz Pakistandakı qəzetlərdəsiniz. İndi hətta Pakistanın müxtəlif böyük universitetlərinin beynəlxalq əlaqələr fakültələrində Qarabağ müharibəsini və Azərbaycanın uğurunu öyrənirlər. Beləliklə, Pakistanda biz Sizinlə və Azərbaycan xalqı ilə çox qürur duyuruq. Sualıma gəldikdə isə, cənab Prezident, sonuncu 44 günlük müharibə zamanı Azərbaycan yalnız öz ərazisində savaşaraq işğal olunmuş ərazilərdə Ermənistanın hərbi mövqelərini və hərbi texnikasını hədəfə alırdı. Azərbaycan Ermənistanın mütəmadi olaraq törətdiyi müharibə cinayətləri ilə də üzləşmişdi. Ermənistan 44 günlük müharibədə qəsdən əhalinin sıx yaşadığı yerləri və Azərbaycanın mülki vətəndaşlarını hədəfə alırdı. Biz Gəncə, Tərtər, Bərdə və digər şəhərlərə atılmış ballistik raketləri xatırlayırıq. Bu yaxınlarda biz mediada "İsgəndər-M" ballistik raketinin qalıqlarını gördük. Bu raket Şuşada tapılmışdır və Ermənistan tərəfindən atılmışdır. Bundan əvvəl Ermənistanın baş naziri tərəfindən qeyd olunmuşdu ki, Ermənistan müharibə zamanı "İsgəndər-M" raketini Azərbaycana atmışdır. Bu ballistik raket çox təhlükəlidir və o, həmçinin nüvə silahını da daşıya bilər. Bununla bağlı Sizin fikriniz nədir və bu əmələ görə beynəlxalq birlik nə tədbir görməlidir?**

**Prezident İlham ƏLİYEV:** Təbriklərinizə görə təşəkkür edirəm. Pakistana təşəkkür edirəm. Mən müharibə zamanı davamlı dəstəyə görə Pakistan xalqına minnətdarlığımı çatdırmağınızı sizdən xahiş etmək istəyirəm. Pakistan qarşıdurmanın ilk günlərindən Azərbaycana açıq şəkildə dəstək verən ölkələrin sırasında olmuşdur. Son günlərə kimi Pakistan həmişə bizim tərəfimizdə olmuşdur. Biz ərazi bütövlüyümüzlə bağlı məsələlərdə çox ardıcıl yanaşmalarına görə Pakistan hökumətinə və xalqına çox minnətdarıq. Ola bilsin ki, tədbir iştirakçılarının bir çoxları bunu bilmir, lakin Pakistan təcavüz və işğala görə Ermənistanla diplomatik əlaqələr qurmayan çox azsaylı ölkələrdəndir. Pakistan kimi çox az sayda ölkə var. Odur ki, biz buna görə həmişə minnətdarıq və bu da qardaşlığımızın həqiqi əlamətidir. Yəqin müharibə zamanı bizim şəhərlərimizdə çox sayda Türkiyə və Pakistan bayraqlarının dalğalandığını bilirsiniz. Əlbəttə ki, biz bizi kimin dəstəklədiyini deyirdik və bu da bizim xalqımızın qəlbindən gələnlər idi.

Ermənistan tərəfindən törədilmiş müharibə cinayətlərinə gəldikdə, bu, birinci dəfə baş vermir. Onlar Birinci Qarabağ savaşı zamanı müharibə cinayətlərini törədib, lakin həmin vaxtı fərqli informasiya mühiti var idi. Bir çox dəhşətli barbarlıq əməlləri sənədləşdirilməmişdir və ya sənədləşdirildiyi təqdirdə beynəlxalq auditoriyaya çatdırılmamışdır. Buna görə də onlar öz müharibə cinayətlərini gizlətməyə nail oldular. Həmin vaxt təkcə Xocalıdan söhbət getmirdi. Kəlbəcərdə Ağdaban kəndi kimi bir çox başqa kəndlər də var idi. Dünyada bir çox insanların bunun haqqında məlumatı yoxdur, lakin burada da eyni hadisələr baş vermişdir. Onlar günahsız insanları qətlə yetirib yandırırdılar. Bir çox başqa kəndlər də erməni barbarlığının qurbanı olmuşdur. İkinci Qarabağ müharibəsi zamanı, sizin də dediyiniz kimi, onların bizim şəhər və kəndləri necə bombalaması beynəlxalq birliyin gözü önündə idi. Təkcə ballistik raketlərlə deyil. Onlar bizi artilleriya və minaatanlarla hər gün bombalayırdı. Kiçik Tərtər şəhərinə 16 min bomba atılmışdır. Onlar hətta dəfn mərasimini bombalayaraq bir ailəni qətlə yetirmişdir. Onlar Bərdəni, Naftalanı bombalayırdılar. Naftalanda onlar beş nəfərdən ibarət ailəni öldürmüşdülər. Onlar qəsdən bizim şəhər və kəndlərimizə hücum edir və düşünürdülər ki, bunu etməklə bizi dayandıracaqlar. Biz eynisini etmədik. Biz heç vaxt heç bir kənd və ya şəhərə zərbə endirməmişik. Biz yalnız Xankəndidə yerləşən hərbi obyektlərə zərbələr endirirdik, çünki bunlar hərbi obyektlər idi. Gecə vaxtı Gəncə şəhərinə qarşı ballistik raketdən istifadə onların barbarlığını açıq-aydın nümayiş etdirirdi. Çünki bu ballistik raketin hədəfi var idi. Onun yaşayış yerinə düşməsi təsadüf deyil. Bu, insanların gecə yatdığı vaxt həyata keçirilən hədəfə alınmış hücum idi və bu, bir dəfə yox, bir neçə dəfə baş vermişdir. Bundan sonra onlar nə etdilər? Onlar dedilər ki, bunu onlar etməyiblər. Rəsmi olaraq erməni rəsmisi dedi ki, bunu ermənilər etməyib. Onda bunu kim edib? Kim? Biz özümüz? Siz yəqin bilirsiniz ki, onlar hətta Xocalı soyqırımına görə günahı bizim üstümüzə atmaq istəyirdilər. Onlar hekayələr uydurur və beynəlxalq birliyi inandırmağa çalışırdılar ki, azərbaycanlılar özləri Xocalıda günahsız insanları qətlə yetiriblər. Onlar "Toçka-U" və "Elbrus" raketləri ilə bağlı da eynisini ediblər. Onlar hətta Bakıdan 100 kilometr məsafədə yerləşən Xızıya zərbə endirmişdilər. Onlar Bakıya çatmaq istəyirdilər. Onlar Qəbələyə hücum edirdilər. Qəbələ münaqişə zonasından çox uzaqda yerləşir. Beləliklə, Bərdə, Ağdam, Ağcabədi, Füzuli, Goranboy, Naftalan, Xızı, Qəbələ. Onların etdikləri budur. Orada hərbi qurğular yox idi. Əlbəttə ki, "İsgəndər" hücumu ilə bağlı xəbər bizi təəccübləndirdi. Ermənistanın baş naziri "İsgəndər"dən istifadə etdiklərini, lakin onun yalnız on faizinin partladığını deyəndə hər kəs gülürdü. Yəqin ki, o, çatdırmaq istədiyi mesajı düzgün çatdıra bilməmişdi. Fevralın sonunda mənə sual veriləndə dedim ki, mən onların bunu etmədiklərini deməmişəm. Mən dedim ki, biz onu aşkar etməmişik. Bu, ayrı-ayrı şeylərdi. Həmin vaxt biz onu hələ də aşkar etməmişdik. Lakin o, onu dedikdən sonra, sabiq prezident Sarkisyan "İsgəndər"in atıldığını və raketi bizim boru kəmərlərimizə atmadığından təəssüfləndiyini dedi. Bilirsiniz, bu müharibə canisi, əli Xocalı qurbanlarının qanına bulaşan Sarkisyan Paşinyanı boru kəmərlərinə zərbə endirmədiyinə görə günahlandırırdı. Sonra Ermənistan ordusunun sabiq baş qərargah rəisi Movsesyan da, - mən onun adını xatırlamıram, - onların bu raketdən istifadə etdiyini demişdi. Sonra onlar "İsgəndər" raketinin necə buraxılması ilə bağlı videogörüntünü yayımladılar. Mən onu tapmaq üçün göstəriş verdim və biz bu raketi tapdıq. Nəyə görə biz onu əvvəl tapmadıq? Mən bilmirəm, çünki Şuşada qar var idi. Müharibədən sonra qar yağmağa başladı. Hətta mən yanvar və fevral aylarında orada olanda qar var idi. Qar əridikdən sonra raket tapıldı. Onun tapılmasından sonra baş verənlər isə çox qəribədir. Ermənistan ordusunun baş qərargah rəisi demişdir ki, o, bu məsələ ilə bağlı heç bir şərh verə bilməz. Biz bunu necə başa düşməliyik? Bəli, yoxsa, xeyr kimi? Yəqin ki, bəli kimi. Çünki cavab xeyr olsaydı, o, deyərdi ki, xeyr biz bunu etməmişik. Əgər o, "mən şərh verə bilmərəm" deyibsə, bu, o deməkdir ki, bəli, bunu onlar ediblər. Ermənistanın sabiq müdafiə naziri də şərh vermişdir. O demişdir ki, bu müharibə sirri olduğu üçün bunu deyə bilməz. Siz bu insanların səviyyəsini görürsünüz? Bilirsiniz, bu insanlar hərbi əməliyyatlarla bağlı qərar qəbul edən insanlar idi. Bunun müharibə sirri olduğunu demək, bəli, bunu onlar ediblər anlamına gəlir. Lakin əfsuslar olsun ki, biz Rusiyadan da heç bir cavab almadıq. Çünki sizin də bildiyiniz kimi, Paşinyan raketdən istifadə etdiyini söyləyəndə Rusiya Müdafiə Nazirliyinin rəsmi nümayəndəsi demişdi ki, yox, Ermənistan istifadə etməyib. Paşinyan Ermənistanın baş naziridir. O deyir ki, biz raketdən istifadə etmişik. Rusiya Müdafiə Nazirliyinin rəsmisi isə onların raketdən istifadə etmədiyini deyir. Bu, nə deməkdir? Bu, Rusiya Müdafiə Nazirliyinin Ermənistan Müdafiə Nazirliyinə nəzarət etməsi deməkdir? Bu, cənab Konaşenkovun nə dediyi anlama gəlirmi? O, "Ermənistan raketdən istifadə etməyib, bütün "İsgəndər" raketləri anbardadır" deyəndə onlar bunu haradan bilirlər? Onlar Ermənistanın anbarlarına nəzarət edirlər? Əgər onlar erməni anbarlarını idarə edirlərsə, onda bu raket kimin sərəncamındadır? Sonra cənab Putinin mətbuat katibi cənab Peskov bəyanat verdi. O, "İsgəndər"dən istifadə edilmədiyini dedi. "İsgəndər" buradadır, siz gedib baxa bilərsiniz, 15 dəqiqəlik bir yoldur. Mən onu dünən Hərbi Qənimətlər Parkında özüm gördüm. Bu, təkcə "İsgəndər" deyil, bu, "İsgəndər-M"dir. Hansı ki, Ermənistan Ordusu heç vaxt malik ola bilməzdi. Mən sizə daha çoxunu deyə bilərəm, çünki biz uzun müddət idi ki, gözləyirdik. Mən bunu Azərbaycan xalqından gizlədə bilmədiyim həssas məsələ olduğu üçün sizə daha çoxunu deyə bilərəm. Mən aprelin 1-də cənab Putinlə telefon söhbətim zamanı bu məsələni qaldırmışdım. Bu telefon söhbəti ilə bağlı yayılan rəsmi məlumata daxil deyildi, çünki biz telefon söhbəti ilə bağlı məlumatı onlar verdiyi kimi vermişdik. Siz onları müqayisə edə bilərsiniz. Lakin mən bu sualı verdim. Mən dedim ki, biz cavabı bilməliyik. Azərbaycan xalqı nəyin baş verdiyi ilə bağlı cavabı bilməlidir. Artıq iki həftə keçib. Aprelin 4-də bizim Müdafiə Nazirliyimiz Rusiya Müdafiə Nazirliyinə bu məsələ ilə bağlı rəsmi məktub ünvanlayaraq foto, video və digər materialları təqdim edərək onlardan cavab istəyib. Bu raketlər nə raketləridir və nə baş verib? Artıq doqquz gün keçib, heç bir cavab yoxdur. Bir qrup Azərbaycan jurnalisti Rusiyanın Azərbaycandakı səfirliyinə açıq məktub yazıb və bu məktub açıq xarakter daşıyır. Yəqin ki, siz onu görmüsünüz. Heç bir cavab verilmədi. "İsgəndər" buradadır, "İsgəndər-M", hansı ki, heç bir yerə ixrac olunmamalı idi, Şuşaya necə gətirilib? Haradan atılıb? Kim onu atıb? Biz cavabları gözləyirik. Sizə bir şey də deyə bilərəm. Bəzi suallara bizim artıq cavablarımız var. Lakin biz Ermənistandan rəsmi cavab gözləyirik, çünki bu raketlər Ermənistanın ərazisindən buraxılıb. Biz onların dəqiqliklə haradan atıldığını bilirik. Bu suallar cavablandırılmalıdır. Bu, ciddi məsələdir. Bu, adi bir raket deyil. Bu raket buraxılmışdır və onlardan neçəsi buraxılmışdır, haradan və nə zaman biz onları da bilirik. Bizə, Azərbaycan xalqına bu suallara cavablar lazımdır.

Böyük Britaniyanın LINKS təşkilatının direktoru **Dennis SUMMUT** (onlayn): **Cənab Prezident, bu səhər bizimlə birlikdə olduğunuz və suallara belə ətraflı cavab verdiyiniz üçün çox sağ olun. Müharibə həmişə qurbanlar tələb edir. 44 günlük müharibə hər iki tərəfdə minlərlə insanın ölümü ilə nəticələnmişdir. Lakin biz həm də bilirik ki, bu müharibə nəticəsində yüz minlərlə qaçqın və məcburi köçkünün doğma evlərinə qayıtmaq imkanı var. Bu, əlbəttə ki, bizim hamımızın bildiyi bir şeydir. Müharibə və onun nəticələri regional əməkdaşlıq üçün bir neçə perspektivə yol açıb. Lakin Sizin də artıq çıxışınızda qeyd etdiyiniz kimi, bəzi həll olunmamış məsələlər var. Mən iki sual vermək istəyirəm. Birincisi odur ki, Siz dəfələrlə Qarabağ münaqişəsinin artıq bitdiyini demisiniz. Bu, Azərbaycanın Ermənistanın nəzarəti altında qalan Dağlıq Qarabağın digər hissələrini ələ keçirmək üçün gücdən imtina etməsi anlamına gəlirmi? İkinci sual 10 noyabr tarixli üçtərəfli bəyanatla bağlıdır. Bu bəyanatın mühüm əhəmiyyət kəsb etməsi və Cənubi Qafqazda dinamikanı dəyişdirmək üçün potensiala malik olması ilə bağlı hamımız razılaşırıq. Lakin bu, üçtərəfli bəyanat olaraq qalır. Azərbaycan bu üçtərəfli bəyanatın ona müəyyən mənada qlobal və beynəlxalq legitimlik verəcək və bütün tərəflərin onun müddəalarına əməl edəcəklərini təmin edəcək BMT-nin Təhlükəsizlik Şurasının qətnaməsinə daxil edilməsi fikrini nəzərdən keçirirmi?**

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Mən 10 noyabr tarixli bəyanatın mühüm əhəmiyyət kəsb etməsi ilə tamamilə razıyam. Bu bəyanat, əslində, bütün vacib elementləri əhatə edir və həmçinin Dağlıq Qarabağ münaqişəsinin yekunlaşdığını da göstərir. Səmimi desəm, biz bu bəyanatın beynəlxalq legitimləşdirilməsi haqqında düşünməmişik. Bizə bu məsələ ilə bağlı nə Rusiya, nə də Ermənistan tərəfi müraciət etməyib. Yəni, biz belə bir məsələni nəzərdən keçirməmişik. Biz bəyanatın imzalandığını və rusiyalı sülhməramlıların orada olduğunu, bəyanatın tamamilə icra olunduğunu düşündük. Ən önəmlisi onun hazırda icra olunmasıdır və bu bəyanatın əksər hissələri artıq icra olunub. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə gəlincə, biz 1993-cü ildə qəbul olunmuş qətnamələrlə nə baş verdiyini bilirik. Onlar kağız üzərində qalmışdır və biz döyüş meydanında doğru olanı etməsəydik, bir otuz il də kağız üzərində qalardı. Buna görə də belə bir şey bizim əlimizdə olanlara əlavə nə verəcək? Bizim bəyanatımız var. Azərbaycan bütün müddəaları icra edir. Ermənistan işğal olunmuş qalan ərazilərin qaytarılması ilə bağlı bəndləri icra etməyə məcbur edilmişdir.

*Ardı 4-cü səh.*

# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır

*Əvvəli 3-cü səh.*



Rusiya isə sülhməramlı xidmətlərini təmin edir. O ki qaldı indi ermənilərin məskunlaşdığı Qarabağ ərazilərini ələ keçirmək üçün gücün tətbiqi ilə bağlı suala, xeyr, bizim belə planlarımız yoxdur. Mən dedim ki, Dağlıq Qarabağ müharibəsi bitib. O, öz həllini tapıb. Rusiyalı sülhməramlıların nəzarət etdiyi ərazilərdə yaşayan erməniləri biz öz vətəndaşlarımız hesab edirik. Humanitar yardım, logistik dəstəklə bağlı indiyə kimi etdiklərimiz bu niyyətləri nümayiş etdirir. Mən sizə, hətta daha çoxunu deyə bilərəm. Bu gün suyun idarəçiliyi ilə əlaqədar məsələlərlə bağlı müəyyən mütəxəssislər səviyyəsində artıq təmaslar var. Çünki uzun illər, otuz il ərzində biz separatçılar tərəfindən idarə olunan iki su anbarına görə Tərtər çayının suyundan məhrum olmuşduq. Bu su anbarlarından biri azad edilmişdir və indi bizim Tərtər çayının suyuna tam çıxışımız var. İndi isə Rusiya sülhməramlılarının nəzarəti altında yaşayanların müəyyən mənada bizimlə su əməkdaşlığına daha çox ehtiyacı var. Beləliklə, bu proses başlayıb. Bu baxımdan da Azərbaycan konstruktiv davranır. Lakin dediyim kimi, əgər Ermənistan Azərbaycana qarşı hansısa bir düşmənçilik xarakterli əməliyyat planlaşdırarsa və bunu görəriksə, - biz indi Ermənistanda və hər yerdə bizə lazım olanları görürük, - əgər Azərbaycan xalqına və ya ərazi bütövlüyümüzə qarşı bir faiz risk təhlükəsinin olduğunu görəriksə, biz özümüzü müdafiə etmək üçün bütün vasitələrdən istifadə edəcəyik. Lakin bizi buna təhrik etmədikləri halda, biz heç vaxt gələcəkdə hər hansı bir düşmənçilik xarakterli əməliyyatlara başlamayacağıq.

Gürcüstanın Strateji Tədqiqatlar Mərkəzinin böyük elmi işçisi, ictimai yayımçı **George GVİMRADZE: Bu görüş üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür edirəm, cənab Prezident. Mən təşkilatçılara Sizə sual vermək məqsədilə məni buraya dəvət etdikləri üçün minnətdarlığımı ifadə etmək istəyirəm. İcazə verin, regional əməkdaşlığa qayıdaq. Müharibə bitəndən sonra Türkiyə Prezidenti Ərdoğan Bakını ziyarət etmiş və bir daha 3+3 formatı kimi məlum olan regional əməkdaşlığı qeyd etmişdir. Bu əməkdaşlıq on ildən çoxdur ki, mövcuddur. Hesab edirəm ki, o, bu məsələnin qaldırılması üçün düzgün vaxtın olduğunu düşünürdü. Mən diqqətinizi bu əməkdaşlığa və bu əməkdaşlığın perspektivlərinə, xüsusilə bu formatın bir potensial iştirakçısına yönəltmək istəyirəm. Mən Gürcüstanı nəzərdə tuturam. Siz əvvəl qeyd etmişdiniz ki, region ölkələrindən olan həmkarlarınızla regional əməkdaşlıq perspektivlərini müzakirə etmisiniz. Sizcə Gürcüstanın bir tərəfdən Rusiya ilə çox mürəkkəb münasibətlərinin olması, digər tərəfdən isə Qərbə inteqrasiya etmək arzularını nəzərə alaraq, Gürcüstan bu növ layihələrdə, əməkdaşlıqda nə dərəcədə iştirak edə bilər? Biz bilirik ki, regional güclərin Qərblə münasibətləri pisləşməkdə davam edir.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Mən, əslində, dünən bu məsələni Gürcüstanın Baş naziri ilə müzakirə etməli idim. Lakin əfsuslar olsun ki, o, koronavirusa yoluxub. Mən ona möhkəm cansağlığı və tezliklə sağalmağı arzulayıram. Onun səfəri aprelin 12-nə nəzərdə tutulmuşdu. Lakin əlbəttə ki, o, koronavirusa yoluxduqdan sonra səfər təxirə salındı. Buna görə mənim onunla bu məsələ ilə bağlı birbaşa danışmaq fürsətim olmayıb. Lakin sağalan kimi biz onun səfərini gözləyəcəyik. Ancaq digər qonşularla, Prezident Ərdoğanla, Prezident Putinlə mən bunu açıq şəkildə müzakirə etmişəm və Azərbaycan və İran rəsmiləri arasında da çox yüksək səviyyədə müzakirələr olub. Mən bizim yanaşmamızda heç bir fərqin olmadığını görürəm. Azərbaycan, Türkiyə, Rusiya, İran regional əməkdaşlıqla bağlı eyni yanaşmanı bölüşür və indi əsas diqqət nəqliyyat sahəsinə yönəlib. Çünki bu vəziyyətdə uduzan tərəf yoxdur. Bundan hamı udur. Ermənistan da səssiz olaraq qoşulub, lakin açıqlamalarda onlar qoşulmadıqlarını deyirlər. Onlar bu xəstəliyi, azərbaycanofobiya və türkofobiyanı müalicə etməlidirlər. Beləliklə, bu əməkdaşlığın ölkələr üçün hansı üstünlüklərinin olması çox aydındır. Hesab edirəm ki, Ermənistan da bu üstünlüyün böyük bir payını əldə edən ölkə olacaq, çünki bu gün onların Rusiya ilə dəmir yolu bağlantısı yoxdur, İranla dəmir yolu bağlantısı yoxdur. Ermənistandan İrana dəmir yolunu inşa etmək üçün bir qeyri-real plan var idi. Lakin düşünürəm ki, onlar hesablamalar aparıb bunun 3 milyard dollara başa gələcəyini anladılar. Yaxşı layihədir, lakin onun pulunu kim ödəyəcək? Bu, sualdır. Beləliklə, onlar bu layihədən artıq vaz keçdilər.

Hesab edirəm ki, Gürcüstan üçün Rusiya dəmir yolları ilə bağlantı yaratmaq baxımından istənilən imkan real deyil və siz bunun səbəbini məndən yaxşı bilirsiniz. Azərbaycan ərazisindən də bu, mümkün deyildi. Beləliklə, əgər bu layihə baş tutsa, Ermənistanın dəmir yolu ilə Rusiyaya, İrana və potensial olaraq Türkiyəyə çıxışı olacaq. Bu, əlbəttə ki, ölkənin inkişafı üçün əlavə imkanlar yaradacaq. Azərbaycan Zəngəzur dəhlizi vasitəsilə öz dəmir yolunu Naxçıvan və Türkiyə ilə birləşdirəcək. Buna baxmayaraq, Türkiyə ilə bizim artıq Gürcüstan ərazisindən bağlantımız var - Bakı-Tbilisi-Qars. Rusiyanın Azərbaycan, Ermənistan ərazilərindən Türkiyə ilə əlavə bağlantısı olacaq. İranın da Ermənistanla bağlantısı olacaq. Bu, İrandan Rusiyaya Cənub-Şimal nəqliyyat dəhlizinin də bir hissəsi ola bilər. Çünki siz də yəqin bilirsiniz ki, İran ərazisində dəmir yolunun sonuncu seqmenti olan Astara-Rəşt tikilməyib. Orada işlər gedir. Lakin biz Ermənistanla sərhədimizə dəmir yolu bağlantısını növbəti iki ilə, maksimum iki il yarıma inşa etməyi planlaşdırırıq. Bu, dəqiq tikiləcək. Çünki biz artıq büdcə ayırmışıq və işlər başlayıb. Bu işlər və Zəngəzurun da 40 kilometri bitənə kimi. Lakin bu Rusiya dəmir yolu tərəfindən həyata keçirilməlidir. Buna da səbəb odur ki, Ermənistan dəmir yolları Rusiya dəmir yolları şirkətinə məxsusdur. Bizə artıq onların bunu etməyi planlaşdırdığı ilə bağlı məlumat verilib. Beləliklə, bu, Ermənistan, Naxçıvan, Zəngilan və sair ərazilərdən keçən Cənub-Şimal dəhlizidir. Bunlar açıq-aydın üstünlüklərdir və biz bu istiqamətlərdə çalışmalıyıq.

Gürcüstanın ehtiyat etməsi ilə bağlı eşitmişəm, mən bu haqda heç nə söyləyə bilmərəm. Mən Baş nazirlə danışmalıyam, onun mövqeyini dinləməliyəm. Lakin bizim üçün Gürcüstan təkcə strateji tərəfdaş deyil, həm də qardaş və çox yaxın ölkədir. Bu gün Gürcüstan və Azərbaycan Avropanın enerji təhlükəsizliyi üçün çox önəmli rol oynayır. Beləliklə, hesab edirəm ki, əməkdaşlığın müvafiq formatını tapa bilərik, bizim niyyətimiz belədir.

Qərb ölkələri və bəzi regional ölkələr arasında gərginliklərə gəldikdə, bu, yeni bir şey deyil. Münasibətlərin pisləşməsi, tənəzzül dövrləri həmişə olub, lakin bizim regionda bu, daimi xarakter daşıyır. Odur ki, biz buna alışmışıq. Düşünmürəm ki, bu növ anlaşılmazlıq və ya qarşıdurmalar, yaxud da nəsə bizim planlarımıza ciddi zərbə vursun. Biz hamımız bəzi Qərb tərəfdaşlarımızın Bakı-Tbilisi-Qarsın inşasına qarşı çıxış etdiyini və Ermənistanı bu layihəyə cəlb etmək üçün cəhd etdiklərini yaxşı xatırlayırıq. Burada məqsəd yolun Gürcüstandan yox, Ermənistan ərazisindən keçməsinə nail olmaq idi. Mən Azərbaycan Dövlət Neft Şirkətində işləyəndə Qərb tərəfdaşlarının boru kəmərinin Gürcüstan ərazisindən yox, Ermənistan ərazisindən keçməsini təşviq etdiyini xatırlayıram. Bütün bunlara şahid olmuşam və bu proseslərdə iştirak etmişəm. Bu kəmərin inşasının necə çətin ərsəyə gəlməsinin də şahidiyəm. Çünki buna görə Dünya Bankı bir il ərzində maliyyələşməni dayandırmışdı. Lakin bu, nəyisə dəyişdi? Xeyr. İndi də heç nəyi dəyişməyəcək. Buna görə hesab edirəm ki, bu layihəni dəstəkləməyənlər qoy, dəstəkləməsinlər. Bizim buna etirazımız yoxdur. Lakin hesab etmirəm ki, hər hansı bir müdaxilə, qarşımızı almaq cəhdləri uğur qazanacaq. Buna görə bütün tərəddüd edənləri bu prosesin iştirakçıları olmağa dəvət edirəm, çünki bu, Avropaya əlavə dəhliz ola bilər və əslində, Türkiyə ərazisindən Avropaya gedəcək. Hər kəs bundan faydalanacaq. Bakı-Tbilisi-Qarsa qarşı çıxış edənlər bu gün bizə ona görə minnətdardırlar. Hesab edirəm ki, bu da onun kimi olacaq. Lakin biz, əlbəttə ki, bu məsələ ilə bağlı Gürcüstanın ehtiyat etdiyi istənilən məsələləri nəzərə alacağıq.

ABŞ-ın Prinston Universitetinin dosenti **Maykl REYNOLDZ: Cənab Prezident, bizimlə görüşə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. Azərbaycanın və regionun gələcəyini müzakirə etmək üçün yaradılmış imkana görə öz adımdan və həmkarlarım adından Sizə təşəkkür edirəm. Əlavə edim ki, mən Sizin Azərbaycan gənclərinə inamınızı bölüşürəm. ADA Universiteti daxil olmaqla, ölkənizdəki gənclər məndə böyük təəssürat yaratdı. Ümid edirəm ki, biz Azərbaycanda təhsil ocaqları ilə əlaqələrimizi inkişaf etdirməkdə davam edəcəyik. Azərbaycanlı gənclərin keyfiyyətlərini, gənclər üçün yaradılmış imkanları və müharibədən sonrakı dövrü nəzərə alaraq mən səmimi olaraq ölkənizin gələcəyi ilə bağlı nikbinəm. Sualıma gəldikdə, mən ərazi məsələsinə qayıtmaq istərdim. Cavablarınızın birində Siz bu məsələyə toxundunuz. Əlbəttə, Siz bunu hamıdan yaxşı bilirsiniz, ancaq kənar müşahidəçi kimi qeyd edə bilərəm ki, Ermənistan və Azərbaycan arasında gərginliyin başlıca səbəbi Ermənistanın ərazi iddiaları olmuşdur. Bir daha xronologiyanı qeyd edim: ilk olaraq, Ermənistan Dağlıq Qarabağla bağlı ərazi iddiası irəli sürür, sonra ətraf rayonlara iddia edir, daha sonra Azərbaycanı yeni ərazilərin işğalı ilə hədələyir və nəhayət, ötən ilin avqustunda Türkiyənin şərq hissəsi ilə bağlı iddialar irəli sürür. Bu, bir xülyadır və məsuliyyətsiz, olduqca təxribatçı davranışdır. Mən buna ağılsızlıqdan başqa ad verə bilmərəm. Müharibə zamanı bəzi azərbaycanlılar İrəvanı və bugünkü Ermənistan Respublikasının digər bölgələrinin tarixi Azərbaycan torpaqları adlandırmışlar. Tarixçi olaraq bilirəm ki, bu fikir tarixi həqiqətə əsaslanır. Bunu da anlayıram ki, münaqişə kontekstində bir tərəf - Ermənistan böyük ərazilərlə bağlı ağlasığmaz iddialar irəli sürəndə qarşı tərəfdə olan azərbaycanlılar da belə bir xatırlatmalar edir ki, bizim də deyəcəyimiz sözümüz var. Məsələyə Ermənistanın perspektivindən yanaşmaq istərdim. Qeyd edim ki, ölkə özü kiçikdir, əhalisi azdır və öz ərazisini məskunlaşdırmaqda, hətta çətinliklə üzləşir. Bu fonda böyük ərazilərlə bağlı iddialar, əlbəttə ki, ciddi suallar doğurur. Onların tarixini və ölkədə hazırkı vəziyyəti nəzərə alaraq sual vermək istərdim. Azərbaycan hazırkı Ermənistan ərazisinin bir hissəsinin tarixən Azərbaycana məxsus olması və həmin ərazilərin bir gün Azərbaycan tərəfindən geri qaytarıla biləcəyi ilə bağlı iddialardan çəkinəcəkmi?**

**Prezident İlham ƏLİYEV:** Təhlilinizə görə təşəkkür edirəm. Sizin fikirlərinizi bölüşürəm, Türkiyə və qonşu dövlətlərə qarşı ərazi iddialarının irəli sürülməsi ilə bağlı, hesab edirəm ki, düzgün ifadə tapmısınız - ağılsızlıq. Yəni, XXI əsrdə olduqca məhdud imkanlara malik, əhalisinin normal yaşayış standartlarını güclə təmin edən bir ölkə özündən ərazi baxımından 10 dəfə böyük və özündən 100 dəfə qüdrətli ölkəyə qarşı ərazi iddiası irəli sürür. Ancaq bu, yenə də onların psixologiyası ilə bağlıdır. Onlar hesab edirlər ki, bütün dünya onlara hər şeyi borcludur. Həmin psixologiya isə onları hazırkı alçaldıcı vəziyyətə salmışdır. Lakin yenə də hesab edirlər ki, hər kəs onlara kömək etməlidir. Bəlkə də məlumatınız var, rəsmi Ermənistan hakimiyyəti bağlı qapılar arxasında müzakirələr zamanı Avropa İttifaqını onlara lazımi dəstəyi verməməkdə ittiham edib. KTMT-yə, NATO-ya qarşı yaradılmış təşkilata üzv olan Ermənistan NATO-nu onlara kömək etməməkdə ittiham edir. Onlar Rusiyanı da günahlandırırlar ki, onlara yardım etməyib. Onlar özlərindən başqa hər kəsi ittiham edirlər. Onlar problemin məhz onlarda olduğunu dərk edə bilmirlər. Ermənistana olan ən böyük təhlükə özlərinin psixologiyasıdır. Bu, dəyişməlidir və bəlkə o zaman bizim onlara verdiyimiz çox ağrılı dərs reallığı dərk etmək üçün dönüş nöqtəsi olacaq. Onlar anlamalıdırlar ki, əgər sən özünü müstəqil ölkə adlandırırsansa, o zaman xalqının qüruru sənin əlindədir və sən xalqını müdafiə etməlisən. Bu gün Rusiya və Belarus arasında ittifaq dövlətləri münasibətləri var. Bildiyim qədər bu gün Ermənistanda bəziləri bu haqda danışırlar. O zaman bayraqlarını endirsinlər, başqa ölkənin quberniyasına çevrilsinlər və həmin ölkə onları qorusun. Bu, sizin dediklərinizə əlavədir. Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Biz köhnə torpaqlar uğrunda yeni müharibənin necə olduğunu onlara göstərdik. Tonoyan isə işdən qovuldu. Bu, bizimlə bu tərzdə danışa biləcəyini hesab edən hər kəsə dərsdir. Biz müharibə zamanı lazım olanı etdik. Biz düzgün hesab etdiyimiz həddə qədər getdik və lazım olandan artığını etmədik. Anlayıram ki, bəzi azərbaycanlıların Ermənistan ərazisinin bir hissəsinin qədim Azərbaycan torpağı olması fikrini səsləndirdiklərini çox diplomatik şəkildə təqdim etdiniz. Yəqin ki, siz burada məni nəzərdə tutursunuz. Mən bunu başa düşürəm və olduqca nəzakətli davranışınıza görə təşəkkür edirəm. Bu sualı verdiyinizə görə də sizə təşəkkür edirəm. Çünki bu mövzu da Ermənistanda siyasi manipulyasiya məqsədlərində istifadə edilir. Yəni, mənim ərazi iddialarım var. Xeyr, bu, belə deyil və mən bunu ictimai şəkildə bəyan edirəm. Lakin, eyni zamanda, biz tarixi bilməliyik. Mən gənc nəsillə bağlı dediklərinizlə də razılaşıram ki, bəzən gənc nəsil tarixi bilmir. Hətta bizim nəslə belə saxta tarix öyrədilib. Mən məktəbdə təhsil alarkən bizə qəhrəman kimi təqdim edilənlər, əslində, cinayətkarlar idi. Məsələn, Azərbaycan xalqını qətlə yetirən 26 Bakı komissarı. Bizi öyrədirdilər ki, onlar qəhrəman idilər və vətənimizi xilas etmişdilər. Əslində isə Şaumyan və digərləri cinayətkar idilər. Onlar burada qırğınlar törədib, azərbaycanlıları qətlə yetiriblər. Belə nümunələr çoxdur. Beləliklə, biz bu nəslin reallıqlardan bixəbər olmasını istəmirik. Mən deyəndə ki, Zəngəzur qədim Azərbaycan torpağıdır, bu, həqiqətdir. Zəngəzur 1920-ci ildə Ermənistana verilmişdir - 101 il əvvəl. Ondan əvvəl o torpaq bizə məxsus idi. Onların bu gün Sevan adlandırdığı Göyçə gölünün ətrafında azərbaycanlılar yaşayıblar. Bu da bir həqiqətdir. XX əsrin əvvəlindəki xəritələrə baxsanız Sevan deyil, Göyçəni taparsınız. İrəvanla bağlı da məsələ eynidir. Onlar İrəvanın tarixi hissəsini məhv ediblər. Bunlar hamısı faktlardır. Azərbaycanlılar orada yaşamışlar, o cümlədən mənim ulu babalarım. Bunlar hamısı faktlardır, lakin bizim ərazi iddiasında olmağımız anlamına gəlməməlidir. Bilmirəm bunu eşitmisiniz, yoxsa yox, mən demişəm ki, biz oraya qayıdacağıq. Ancaq mən demədim ki, biz oraya tank üzərində qayıdacağıq. Biz Zəngəzur dəhlizinə qayıdıb orada yoldan istifadə edəcəyiksə, niyə biz İrəvana qayıtmayaq? Hesab edirəm ki, vaxtı gələndə biz bunu da edəcəyik. Bir daha bu suala görə təşəkkür edirəm. Bu sual məsələyə aydınlıq gətirməyə və öz mövqeyimi ortaya qoymağa imkan yaratdı. Biz tariximizi yadda saxlayacağıq, ancaq Ermənistan da daxil olmaqla, heç bir ölkəyə qarşı ərazi iddiamız yoxdur.

Rumıniyanın Münaqişələrin qarşısının alınması və erkən xəbərdarlıq mərkəzindən doktor **Yulian ÇİFU: Çox təşəkkür edirəm, cənab Prezident. Mən yenidən Bakıda olmağıma şadam. Mənim iki sualım var. Birinci sual, Avropa İttifaqı, xüsusilə də Rumıniya regionda və çoxmillətli və çoxkonfessiyalı Dağlıq Qarabağ bölgəsində yenidənqurma işlərində və institusional inteqrasiya və barışıq sahəsində Azərbaycana necə yardımçı ola bilər? İkinci sualım belədir: Təsəvvür edək ki, Azərbaycan Naxçıvana dəhliz əldə edib, Ermənistan Azərbaycan-Türkiyə nəqliyyat dəhlizinə inteqrasiya olunub, Rusiya sülhməramlıları Qarabağın şimal hissəsindən çıxarılıb və Azərbaycan Laçın dəhlizi ərazisində dövlət sərhədinə nəzarəti üzərinə götürüb. Belə olan halda Siz Dağlıq Qarabağı beş il bundan sonra necə görürsünüz?**

**Prezident İlham ƏLİYEV:** Avropa İttifaqı necə kömək edə bilər sualınıza gəldikdə səmimi deyim ki, bilmirəm. Bizə yenidənqurmaya dəstək verməklə bağlı Avropa İttifaqından istək ifadə edilməyib. Yəni, biz azad olunmuş ərazilərdə planlaşdırdığımız işləri öz vəsaitimiz hesabına həyata keçiririk. Biz heç bir beynəlxalq təşkilat və ya dövlətdən yardımla bağlı hər hansı mesaj almamışıq. Onlar yardım edərlərsə, biz buna görə minnətdar olarıq. Yox etməzlərsə, biz istənilən halda bu işləri görməliyik və həmin əraziləri bərpa edəcəyik. Əlbəttə, artıq qeyd etdiyim kimi, Avropa İttifaqı məkanından olan şirkətlər orada işləyirlər. Bu müqavilə üzrə şirkətlər səviyyəsində əməkdaşlıqdır, investisiyalardan söhbət getmir.

Beş ildən sonra nələrin baş verə biləcəyi sualınıza gəldikdə, proqnoz vermək çətindir. Biz özümüzün nə edəcəyimizi proqnozlaşdıra bilərik. Biz yol xəritəsini tam yekunlaşdırmamışıq, ancaq ümumiyyətlə bilirik ki, hansı işlər görüləcək. Qarşıdan gələn 3 il ərzində biz bütün əsas infrastruktur layihələrini - dəmir yolu, avtomobil yolları, elektrik enerjisi istehsalı və su təchizatı layihələrini başa çatdıracağıq və tikinti işlərinin fəal fazasında olacağıq. Biz işləri düzgün planlaşdırmalı və aparmalıyıq. Bütün şəhər və kəndlərin bərpası üçün zəruri master-planlar olmalıdır. Çünki oraya qayıdacaq insanlar lazımi yaşayış şəraiti ilə təmin edilməlidir. Onlar dövlətdən asılı olmamalıdır. Həmin ərazilərdə münbit torpaqlar və kifayət qədər su ehtiyatları mövcuddur. Biz orada yaşayacaq vətəndaşlarımızın maliyyə cəhətdən müstəqil olmasını istəyirik. Dediyim kimi, tikinti işlərinin fəal mərhələsində olacağıq və hesab edirəm ki, həmin vaxta qədər Zəngəzur dəhlizi mütləq istifadəyə veriləcək. Biz hədəf kimi iki, iki il yarım müddət müəyyən etmişik. Mehri bölgəsindən keçən 40 kilometrlik yolun inşası bundan çox vaxt apara bilməz. Əlbəttə, bunlar əlaqələndirmə şəraitində və Ermənistan tərəfindən süni maneələr yaradılmadığı təqdirdə baş tuta bilər.

Rusiya sülhməramlıları bölgəni tərk etdikdən sonra nə olacaq sualına gəldikdə, bu gün Tovuz, Qazax və Ağstafa rayonları ərazisində Azərbaycan və Ermənistan arasında dövlət sərhədi mövcuddur. Orada sülhməramlılar yoxdur və heç nə baş vermir. Sizə deyim ki, Azərbaycan Sərhəd Xidmətinin əsgərləri bu gün Ermənistan kəndlərinin 5 metrliyində, Qubadlının məşhur Şurnuxu kəndində dayanır. Ermənilər kəndin onlara məxsus olduğunu iddia edirdilər, lakin xəritəyə baxdıqda onun Azərbaycan ərazisində yerləşdiyi müəyyən olundu. Biz oraya Sərhəd Xidmətinin nümayəndələrini göndərdik və mən onlara göstəriş verdim ki, orada xətt boyu yerləşsinlər, xətti keçməsinlər və həmin kənddə yaşayan ermənilərlə işləri olmasın. Hətta həmin Şurnuxu kəndinin bir hissəsini tərk etməli olan ermənilərə biz vaxt verdik. Bu gün deyə bilərəm ki, Ermənistan ordusu məhv edilib. O, mövcud deyil. O cümlədən Ermənistanın sərhəd xidməti. Yəni, həmin bu kəndin tam nəzarətə götürülməsində bizə heç kəs mane ola bilməz. Biz bunu edirikmi? Xeyr. Belə bir planımız varmı? Xeyr. Bu, gələcəkdə nəyin baş verə biləcəyinə cavabdır. Bu məsələ bizim iradəmizi nümayiş etdirir. Eyni vəziyyət Ermənistanın Qafan şəhərini İrəvanla birləşdirən 21 kilometrlik yolda mövcuddur. Yol bizim ərazimizdən keçir. Bəli, biz oraya sərhəd xidmətimizi yerləşdirmişik. Biz hətta “Azərbaycana xoş gəlmisiniz” lövhəsini də quraşdırmışıq. Bilmirəm, nəyə görə həmin lövhə erməniləri bu dərəcədə qıcıqlandırdı. Biz, sadəcə, onları ərazimizdə salamlamaq istəyirdik. Ora bizim ərazidir. Ancaq onlar lövhəni atəşə tutdular və biz bu hərəkətə cavab verməli olduq. Yəni, onlar bu yoldan istifadə edirmi? Bəli. Onları sülhməramlılar qoruyurmu? Xeyr. Yalnız iki yerdə postlar qurulub. Biz bu yolu kəsə bilərikmi? Bəli. Bunu edirikmi? Xeyr. Əlbəttə, Ermənistan hazırda davrandığı kimi özünü aparsa, onlar bu gün tamamilə ruhdan düşmüş, təşkilatlanmamış vəziyyətdədirlər. Ordu yoxdur. Revanş haqqında düşünməyə əsas belə yoxdur. Mən bu haqda danışmışam - Ermənistanın ordusunun modernləşdirilməsi ilə bağlı Rusiya ilə danışıqlar aparması bizi narahat edir. Bu narahatlıq Rusiya rəsmilərinə çatdırılmışdır. Nə üçün müasirləşdirilir onların ordusu? Revanşla bağlı istənilən imkan lazımsız gərginliyə səbəb olacaq. Beləliklə, vəziyyət indiki kimi davam etsə, qonşuluqda yaşamaqla bağlı hər hansı bir problem olmayacaq. Mən dəfələrlə Gürcüstanı misal kimi qeyd etmişəm. Orada azərbaycanlılar və ermənilər bəzən eyni bölgədə deyil, hətta eyni kənddə yaşayırlar və heç nə baş vermir.

İsrailin Hayfa Universitetinin professoru **Brenda ŞAFFER** (onlayn): **Cənab Prezident, təşəkkür edirəm. Ədalətin bərpası münasibətilə Sizi təbrik edir və şəhid ailələrinə Ramazan ayını rahat keçirməyi diləyirəm. Azərbaycan müasir, geniş imkanlara malik ordu qurmağa müvəffəq olub. İkinci Ermənistan-Azərbaycan müharibəsi XXI əsrin müharibəsi kimi öyrənilir. Azərbaycan yüksək bacarıqlı xüsusi təyinatlı qüvvələrə malik olduğunu nümayiş etdirdi. Müasir texnologiyalara sahib olmaq hər şey demək deyil. Onlar uğurla döyüş tapşırıqlarına inteqrasiya edilməlidir. 1990-cı illərdə mən Azərbaycanda olmuşam və o zaman insanları cəbhəyə göndərmək müşkül məsələ idi. Bu müharibədə könüllülər növbələrdə dayanırdı və onlar geri qaytarılırdı. Mənim sualım belədir - müasir ordu quruculuğu sahəsində nələr öyrənildi? Azərbaycan cəmiyyətində nələr dəyişdi ki, orduya belə bir güclü dəstək yarandı? Belə bir təsəvvür var ki, müharibə 2020-ci ilin payızında başladı. Ancaq bundan öncə Ermənistanın yeni ərazilər uğrunda yeni müharibə doktrinası əsasında Tovuz döyüşləri baş verdi. Bunu müharibənin birinci fazası hesab edənlər var. Payızda baş verənlər isə hadisələrin davamı hesab olunur. Buna münasibətinizi öyrənmək istərdim.**

**Prezident İlham ƏLİYEV:** Təbriklərinizə görə sağ olun. Siz uzun illərdir ki, Azərbaycanı yaxşı tanıyırsınız. Sizin kifayət qədər məlumatınız, müqayisə etmək imkanınız var. Birinci və İkinci Qarabağ müharibələri arasında fərqi tamamilə doğru qeyd edirsiniz. İnsanlar növbələrdə dayanırdı. Biz qismən səfərbərlik elan etmişdik və buraya müəyyən yaş kateqoriyasına aid vətəndaşlar daxildir. Həmin meyara cavab verməyən vətəndaşlarımız isə gileylənir, məktublar yazırdı ki, məni niyə aparmırlar? Mən də gedib döyüşmək, Vətənimizi qorumaq istəyirəm. Hesab edirəm ki, bu, bizim Qələbəmizi şərtləndirən əsas amil idi. Əlbəttə, biz güclü ordu qurmuşduq, təlimlər keçirirdik, müasir silahlar əldə etmişdik ki, bu, müharibədə bizə Qələbə qazanmağa və əsgərlərimizin həyatını qorumağa kömək etdi. Bu silahlar olmasaydı, itkilərimizin sayı daha çox olardı. Ermənistan ordusu ilə müqayisədə bizim itkilərimiz 2.5-3 dəfə az olmuşdur. Nəzərə alın ki, biz əks-hücum əməliyyatı həyat keçirirdik və düzənlikdən yüksəkliklər istiqamətində hərəkət edirdik. Əsas amil o idi ki, həmin əraziləri hətta görməyən gənclər sanki özlərinin doğma yurdları uğrunda döyüşürdülər. Biz Azərbaycanda yaşayan bütün millətlərin birliyinin şahidi olduq. Bu da bizim ən böyük sərvətlərimizdən biridir. Bir çox hallarda multikulturalizm və mədəni müxtəliflik mövzusunda beynəlxalq tədbirlər zamanı mən həmişə qeyd edirdim ki, Azərbaycanın ən böyük sərvətlərindən biri multikultural və multikonfessiyalı cəmiyyətin olmasıdır. Bu müharibə zamanı bütün millətlərin, etnik qrupların nümayəndələri son damla qanlarına qədər döyüşürdülər. Onlar Vətənləri uğrunda döyüşürdülər. Azərbaycanda müxtəlif etnik qruplardan ibarət xalqımızın Vətən sevgisi, vahid dil və dövlətçilik naminə güclü konsolidasiyası baş verdi. Mən bundan fərəhləndim və bu gün də fəxr edirəm ki, biz belə vətəndaşlar tərbiyə etmişik.

Döyüşlərdə iştirak edən və şəhid olan bir çox insan mən 2003-cü ildə Prezident seçiləndə uşaq idi. Ancaq Qarabağ hər zaman bütün gündəliklərin bir nömrəli məsələsi idi. Bütün tədbirlərdə - sülh və müharibə, sosial-iqtisadi inkişaf mövzularındakı tədbirlərdə Qarabağ hər zaman mənim çıxışlarımda prioritet təşkil edirdi. Bu, artıq yeni Azərbaycandır. Ermənilər bizi yaxşı tanımırdılar. Onlar 1992-ci ilin Azərbaycanı ilə döyüşəcəyini zənn edirdilər. Azərbaycan isə fərqli idi, insanlarımız fərqli idi, cəmiyyət fərqli idi, ruh yüksəkliyi başqa idi. Mən bunu dəqiq bilirəm, onlar, onların əvvəlki rəhbərləri hesab edirdilər ki, biz bunları unudacağıq. Zaman keçəcək, hər kəs yorulacaq və heç kəs müharibə istəmir. Beynəlxalq mediada da belə spekulyasiyalar var idi ki, Azərbaycan müharibə etməyəcək, çünki ölkə inkişaf edir, Prezident Əliyev qeyri-müəyyən üstünlük naminə riskə getməyəcək. Ancaq onlar bizim daxilimizdə, qəlbimizdə nələrin olduğunu başa düşə bilmədilər. Başa düşmədilər ki, bizim üçün Qarabağ, sadəcə, torpaq demək deyil. O, bizim ləyaqətimiz, taleyimiz və qanımızdır. Beləliklə, biz qəhrəmanlıq və cəsarət nümayiş etdirdik, axıra qədər getdik və bizi heç kəs dayandıra bilməzdi. Bilirsiniz ki, müxtəlif istiqamətlərdən bizi dayandırmaq üçün çoxlu cəhdlər oldu. Ancaq biz sona qədər getdik.

İyul ayında baş verənlər Paşinyanın növbəti təxribatı idi. Çünki Paşinyan bu hərbi-cinayətkar qrupun üzvü hesab edilmirdi. Ermənistanın keçmiş rəhbərləri onu orduda xidmət etməmiş, zəif, cəsarəti olmayan insan kimi təqdim edirdilər. Bu səbəbdən o, hərbi qələbə əldə etmək arzusunda idi, xüsusilə də onun hakimiyyətə gəlməsindən bir ay sonra Naxçıvan istiqamətində məğlub olmasından sonra. Ancaq o məsələdə onu günahlandırmaq olmaz, çünki o, hakimiyyətə yeni gəlmişdi. Ona hərbi qələbə lazım idi. Biz dəqiq bilirik ki, onlar Lələtəpəni geri qaytarmağı planlaşdırırdılar. O ərazini ki, biz 2016-cı ildəki döyüşlər nəticəsində azad etmişdik. O, çalışırdı nümayiş etdirsin ki, bəli, əvvəlki Sarkisyan hakimiyyəti həmin əraziləri itirdi və ali baş komandan “cəsur” Paşinyan o torpaqları geri qaytardı. Yeri gəlmişkən, indi özləri müharibəni daha yaxşı dərk edəndən sonra məqalələr çap edir və bəyanatlar verirlər ki, Lələtəpəni qaytarmaq cəhdi ciddi canlı qüvvə itkisi ilə nəticələndi. Əslində isə Ermənistan ordusunun bir hissəsi məhz orada tamamilə məhv edilmişdi. İyul ayında onlar Tovuz istiqamətində əraziləri işğal etmək istəyirdilər. Bu, aydın idi və onlar bizi ittiham edirdilər ki, iki hərbçimiz “UAZ” avtomaşını ilə onların mövqelərinə hücum etmişdir. Bu, gülünc məsələ idi. Biz 44 günlük müharibədə ordumuzun kimlərdən və nədən ibarət olduğunu nümayiş etdirdik. Biz həmin əraziləri zəbt etmək istəsəydik, bunu edərdik. Bu, birincisi. İkincisi isə Ermənistanın ərazisi bizim nəyimizə lazımdır? Nə üçün biz Ermənistana fürsət verməliyik ki, o, KTMT-yə hərbi yardımla bağlı müraciət etsin? Biz ağlımızı itirmişik? Xeyr. Onlar istəyirdilər ki, torpaqları zəbt etsinlər, daha sonra isə Paşinyan gəlsin desin ki, mən məğlubedilməz ordunun böyük komandanıyam və gəlib Tovuzda dayanmışam. Bu idi onların istəyi. Biz onları oradan geri atdıq və deyə bilərəm ki, irəliyə də gedə bilərdik. Onlar bizim generalımızı, zabitlərimizi qətlə yetirdilər. Biz qisas almalı idik. Mən isə ordumuzu dayandırdım. Biz sərhədi keçmədik, sadəcə, onları geri oturtduq və burada dayandıq. Halbuki Tovuzun dağlıq hissəsində Ermənistan qoşunları yox idi. Biz rahatlıqla kilometrlər boyu irəliləyə bilərdik. Mən dedim xeyr, bunun vaxtı deyil. Daha sonra avqust ayında Goranboy istiqamətində növbəti təxribata əl atdılar, bizim mövqelərə sızmaq üçün qrup göndərdilər və həmin dəstənin başçısı tərəfimizdən yaxalandı. Nəhayət, sentyabr ayı gəldi. Bu, bir daha yanlış hesablamanın, özləri haqqında olduğundan daha böyük təsəvvürdə olmağın, Azərbaycanın imkanlarını isə lazımi qədər qiymətləndirməməyin nəticəsidir. Onlar ölümcül xətaya yol verdilər və indi onun acısını çəkirlər.

Belçikanın Avropa Siyasəti Mərkəzindən **Amanda POL** (onlayn): **Təşəkkür edirəm, Prezident Əliyev. Bu gün Sizinlə ünsiyyətdə olmaq böyük məmnuniyyətdir. Belçikadan Sizə Avropa İttifaqı barədə sual vermək istəyirəm. Müharibə dövründə Azərbaycanda bir çoxları Avropa İttifaqının yanaşmasını tənqid edirdi. Avropa İttifaqı postmüharibə dövründə etimadını və nüfuzunu necə bərpa edə bilər?**

**Prezident İlham ƏLİYEV:** Səmimi danışsaq, mən münaqişə dövründə Avropa İttifaqının ciddi tənqid olunduğunu görməmişəm. Nə mən özüm, nə də qurumlarımızdan heç biri Avropa İttifaqını Avropa İttifaqı olaraq tənqid etməmişik. Avropa İttifaqı Şurasının prezidenti müharibə vaxtı mənə telefonla zəng etdi. O, baş verənlərlə bağlı narahatlığını ifadə etdi, biz müzakirə apardıq, mən onu vəziyyətlə bağlı məlumatlandırdım.

*Ardı 5-ci səh.*

# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır

*Əvvəli 4-cü səh.*

Bəli, Avropa İttifaqının bəzi aparıcı üzv dövlətləri ilə bağlı tənqidlər var idi. Lakin onlar müharibə vaxtı Avropa İttifaqının üzv dövləti kimi deyil, dövlət olaraq davrandılar. Ona görə də Avropa İttifaqına gəlincə, indi Avropa İttifaqını kömək etmədiyinə görə tənqid edən Ermənistandır. Lakin Avropa İttifaqının necə kömək edə bilməsi böyük sual doğurur. Avropa İttifaqı oraya qoşunlarını göndərməli idi, ya necə? Mən bilmirəm.

Münaqişədən sonrakı inkişafda Avropa İttifaqının roluna gəlincə, mən artıq demişəm, biz Avropa İttifaqından yenidənqurma, qaçqınların yerləşdirilməsi ilə bağlı bizə necə kömək etmək istədiklərinə və ya planlaşdırdıqlarına dair, - əgər istəyirlərsə və ya planlaşdırırlarsa, - heç bir mesaj almamışıq. Bu, təkcə maliyyə resursları baxımından deyil, həm də metodologiya baxımından bizim üçün böyük iş olacaq. Biz heç vaxt belə vəziyyətə düşməmişik ki, yerləyeksan edilmiş əraziləri bərpa etməli olaq. Bunu necə planlaşdırmaq, hansı addımlar atmaq, addımları hansı ardıcıllıqla atmaqla bağlı məsləhət verən müəyyən beynəlxalq təcrübə ola bilər. Əlbəttə ki, beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı hər hansı təchizat və ya kömək nəzərdə tutsa, biz minnətdar olarıq. Bundan əlavə, sizə deyə bilərəm ki, pandemiya ilə əlaqədar bizim Avropa İttifaqı ilə yeni razılaşma ilə bağlı danışıqlarımız bir qədər dondurulmuşdu. Mən artıq açıq şəkildə bildirmişəm ki, COVID bu və ya digər dərəcədə bitən kimi, vəziyyət daha sabit olan kimi biz danışıqlara yenidən başlayacağıq. Bu razılaşmanın böyük hissəsi artıq razılaşdırılıb, cəmi 7-8 faizi razılaşdırılmalıdır. Ona görə də biz Avropa İttifaqı ilə sıx əməkdaşlığımızı davam etdirməyi planlaşdırırıq. Hətta müharibə zamanı və müharibədən sonra bizə hücum edən Avropa İttifaqının üzv dövlətlərinin bəziləri artıq münasibətlərində dəyişikliklər edib. Sizə deyə bilərəm ki, müharibədən sonra Avropa İttifaqına üzv cəmi bir ölkə var ki, onun xarici işlər naziri özünə Azərbaycan barədə çox uyğun olmayan fikirlər söyləməyi rəva görüb. Biz demək olar ki, səssiz qaldıq. Yalnız bizim Xarici İşlər Nazirliyimiz cavab verdi, çünki biz bu ölkədən çox "qorxurduq". Mən sizə də bizə amansızcasına hücum edən bu ölkədən çox "qorxmağı" məsləhət görürəm. Mən bütün rəsmi şəxslərimizə dedim ki, səssiz qalsınlar, əks halda onlar gəlib bizi "işğal edərlər". Bilirsiniz bu hansı ölkədir? Bu ölkə Lüksemburq adlanır. Sadəcə, müqayisə üçün sizə deyə bilərəm ki, bizim azad etdiyimiz ərazilər dörd Lüksemburq ərazisinə bərabərdir. Ona görə də Lüksemburqun xarici işlər naziri yaxşı olardı öz qayğısına qalsın və bu eyhamlara son qoysun. Lakin bundan başqa, müharibədən sonra mənfi heç nə baş verməyib. Biz ümid edirik ki, Avropa İttifaqı bizim böyük tərəfdaşımız olmağa davam edəcək. Xüsusilə əvvəl qeyd etdiyim kimi, Avropa İttifaqının 9 üzvü ilə bizim strateji tərəfdaşlıq üzrə əməkdaşlıq formatımız var.

**Hikmət HACIYEV: Təşəkkür edirik, cənab Prezident. Amanda Pol bizim siyahımızda sonuncu çıxışçı idi. Dəyərli və qiymətli vaxtınızı bizimlə birgə keçirdiyinizə görə bütün qrupumuz adından Sizə ən səmimi minnətdarlığımızı və hörmətimizi çatdırmaq istərdim. Siz bizimlə təlimatları, baxışları və fikirləri bölüşdünüz və buna əsaslanaraq səfir Hafiz Paşayevlə birlikdə biz müzakirələrimizə davam edəcəyik. Biz, həmçinin gözəl Bakı bulvarında Hərbi Qənimətlər Muzeyinə baş çəkməyi səbirsizliklə gözləyirik. Təşəkkür edirik, cənab Prezident.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Çox sağ olun. Mən soruşmaq istərdim, bəlkə başqa kiminsə sualı var. Çünki elə görünə bilər ki, sanki Hikmətdə çıxışçıların siyahısı var, bir qədər sovet üslubuna bənzəyir. Ola bilsin ki, kimsə əlavə etmək istəyir.

**Hikmət HACIYEV: Cənab Prezident, bu, açıq proses idi və biz onlardan siyahıya adlarını yazdırmağı xahiş etmişdik.**

**Türkiyədən olan iştirakçı: Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə təşəkkür edirəm. Səxavətiniz sayəsində, bir neçə kəlmə demək və Sizə qısa sual vermək imkanım oldu. Öncə erməni mifologiyasını dağıdan və Azərbaycanın ərazi bütövlüyü ilə yanaşı, həm də Azərbaycanın psixologiyasını bərpa edən Böyük Qələbəniz münasibətilə təbrik mesajlarına qoşulduğumu bildirmək istərdim. Bu Qələbə psixologiyanı yüksəltdi. Bu isə çox vacibdir. Əvvəlki müzakirələrimizdə təklif etdiyim kimi, ekspertlər və akademiklər üçün məsələnin bütöv psixoloji-sosioloji tərəflərinə baxmaq yaxşı ideya olardı. Yəni, Ermənistan kimi ölkədə siyasi quruculuğa təsir edən xəyali psixologiyanın feyk siyasi mədəniyyət yaradılmasında rolu necədir? Biz, əlbəttə, bunu 1922-ci ildə Yunanıstanın nümunəsində, Böyük Türk zəfərindən sonra görmüşük. Onlar çox böyük travmalardan keçdilər. Bu travmaların öhdəsindən gəlmək həmin ölkələr üçün asan deyil. Lakin bilirsiniz, sonda, bu və ya digər yolla hadisələrin gedişatı, faktlar bunu formalaşdıranda, qeyd etdiyim məsələ reallığa çevrilir. Düşünürəm ki, bu, çox yaxşı ideya olacaq. Ünvanlamaq istədiyim digər sual Azərbaycanın ərazi bütövlüyünün bərpası haqqındadır. Müharibə bunu təmin etdi. Lakin hələ problemli də olmasa, müəyyən məqamlar mövcuddur. O qədər də kiçik olmayan həmin ərazilərdə, Qarabağ bölgəsinin bəzi hissələrində Azərbaycanın suverenliyinin bərpa edilməsi ilə bağlı Sizdə cədvəl varmı? Rusiya sülhməramlıları və digərləri ilə razılaşdırdığınız cədvəl mövcuddurmu? Yoxsa, Azərbaycanın suverenliyini mərhələli yanaşma qaydasında, proseslərin gedişatı ərzində həll etməyi düşünürsünüz? Lakin yenə də Sizi Türkiyədə və region boyu bizə xoşbəxtlik bəxş edən Böyük Qələbəniz münasibətilə təbrik edirəm.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Təbriklərinizə, dəstəyinizə görə təşəkkür edirəm. Biz Türkiyənin, sözsüz ki, ölkənin liderinin, Prezidentin, yüksək rütbəli rəsmilərin, QHT-lərin, medianın, bütün türk cəmiyyətinin dəstəyini hiss etdik. Bu, yekdil, çox güclü dəstək idi və biz buna görə çox minnətdarıq. Düşünürəm ki, Ermənistanın yeni reallığa uyğunlaşması vaxt tələb edəcək. Onlar psixoloji cəhətdən buna hazır deyillər. Çünki artıq qeyd etdiyim kimi, onlarla manipulyasiya ediblər, onların beyinlərini yuyublar. Onlar özləri üçün heç vaxt sahib olmadıqları saxta tarix yaradıblar. Mən çox dərinə getmək istəmirəm, amma həmin tarixi qəhrəmanlar belə onların özlərini göstərdiyi millətə məxsus deyil. Onların XX əsr tarixi tamamilə saxta tarixdir. Onlar bir-birini inandırmağa çalışırdılar və bəlkə də onların ən böyük problemi odur ki, onlar heç vaxt olmayan bir şeyə və nəyi əldə edəcəklərinə dair planlara bir-birini inandırmağa nail olublar. Əks halda, müharibədən əvvəl onlar yüksək səviyyədə, prezident, baş nazir səviyyəsində Sevr razılaşması haqqında danışmazdılar. Onlar Türkiyəyə qarşı ərazi iddiaları barədə danışırdılar. Bu barədə danışmaq və bunu planlaşdırmaq üçün ağılsız olmaq lazımdır. Xatırlayıram ki, bir neçə il bundan əvvəl gənc ermənilərlə görüşdə ovaxtkı cinayətkar prezident Sarkisyandan soruşulanda ki, biz Türkiyədə qədim torpağımıza nə vaxt qayıdacağıq, o dedi ki, bizim nəsil bu qələbəni qazandı, bunu etmək sizin öhdənizə düşür. İndi Sarkisyan haradadır? O, Qarabağdan qaçdı. O, müharibə zamanı orada idi. O, oraya gəldi, lakin sonra müharibə qəhrəmanı hesab olunan Koçaryanla birlikdə qaçdı. Onlar qorxaqdırlar. Birinci Qarabağ müharibəsində ayağını itirmiş sabiq müdafiə naziri Ohanyan biz gəlməmişdən cəmi bir neçə gün əvvəl Şuşadan qaçmasaydı, Şuşada başını itirə bilərdi. Onların psixologiyası budur. Onları elə böyüdüblər ki, guya onlar dünyanın ən böyük millətidir, hərtərəfli dəstəyə layiqdirlər, hər kəs onlara borcludur, heç kim bilmir nəyə görə və onlar şəxsi və korporativ üstünlüklər əldə etmək üçün saxta tarixlərindən istifadə edirdilər. İndi hamı başa düşəndə ki, onların ordusu mövcud deyil, onların 10 min fərarisi var, 10 min. "Məğlubedilməz ordu". Onların bütün qavrayışı dəyişib. Siz tamamilə haqlısınız, bu, travmadır, psixoloji travma. Lakin kim cavabdehdir? Özləri. Təkcə hakimiyyətdə olanlar deyil, bütün cəmiyyət cavabdehdir. Onlar gözlərini açmalı, başa düşməlidirlər ki, bu mühitdə yaşamalı olacaqlar. Onlar Türkiyə ilə münasibətlərin qurulmasında Türkiyədən daha çox maraqlıdırlar və maraqlı olmalıdırlar. Türkiyə sərhədi həmişəlik bağlı saxlayaraq yaşaya bilər. Bu, Ermənistan üçün vacibdir. Biz həmişəlik yaşaya bilərik. Məsələn, biz Zəngəzur dəhlizindən danışırıqsa, bəli, onun Naxçıvanla əlaqəsi olacaq. Məgər indi bizim əlaqəmiz yoxdur? Bəli, var. Bu, onlar üçün olacaq və onlar bu dəyişikliyi etməlidirlər. Lakin məndən soruşsanız ki, Ermənistanda siyasi dairədə vəziyyətə real baxacaq kimsə varmı? Xeyr. Hətta, əgər belə bir şəxs varsa, o, bunu heç vaxt açıq şəkildə etməyəcək. Çünki dərhal hücuma məruz qalacaq. Dərhal tənqidə məruz qalacaq. Onu öz dillərində təhqir olaraq türk adlandıracaqlar. Onu xain adlandıracaqlar və s.

Suverenliyin cədvəlinə gəlincə, fikrimcə, mən artıq demişəm ki, Dağlıq Qarabağ münaqişəsi başa çatıb. Hazırda Rusiya sülhməramlı qüvvələrinin nəzarəti altında yaşayan erməniləri, əvvəl qeyd etdiyim kimi, biz Azərbaycan vətəndaşları hesab edirik. Bu regionun reinteqrasiyası zaman məsələsidir. Biz çox tələsməyəcəyik. Biz doğru olanı etmişik. Zənnimcə, bu insanlar özləri başa düşəcəklər ki, qonşuları ilə normal münasibətlərin olması onlar üçün daha yaxşıdır. Hətta indi həmin ərazilərə bütün logistik dəstəyin Bərdə və Ağdamdan getdiyi bir vaxtda, daha çox aydın olur ki, bu, Azərbaycana inteqrasiya olmuş regiondur. 100 il əvvəl Laçın dəhlizi mövcud deyildi. 1930-cu illərədək Laçın və Kəlbəcərdə yollar yox idi. İnsanlar yalnız atlarla gedə bilirdilər. Əlbəttə ki, bu regionun Ermənistanla əlaqəsi yox idi. O, Azərbaycanın qalan hissəsinə iqtisadi, sosial cəhətdən, hər cəhətdən tam inteqrasiya olmuşdu və bu, belə olacaq. Bu, reallıqdır. Biz hazırıq. Hazırda Azərbaycanda minlərlə erməni yaşayır. Mən müharibə vaxtı dediyim kimi, Ermənistanın sabiq müdafiə nazirinin bacısı Azərbaycanda yaşayır. O müdafiə naziri olanda və bizim əraziləri işğal altında saxlayanda o, Azərbaycanda yaşayıb və heç kim onu barmaqla göstərmirdi. Bu, bizim mədəniyyətimiz, bizim siyasətimizdir. Qarabağ regionunun tam inteqrasiyası labüddür. Bu, baş verəcək. Lakin biz bunu vaxtında və maksimum səbirlə etməliyik.

İranın Tehrandakı İran-Avrasiya Tədqiqatları İnstitutundan **Vəli XALİQİ: Təşəkkür edirəm, cənab Prezident. Azərbaycan Füzuli, Cəbrayıl və Zəngilan rayonlarını uğurla geri almasından sonra İranla həmin ərazidə olan 138 kilometrlik sərhəd xəttini bərpa etdi. De-fakto erməni dövləti de-yure Azərbaycan Respublikası ilə əvəz edildi. İndi biz sərhəd idarəçiliyi, Xudafərin su anbarı və su elektrik stansiyanın reallaşdırılması da daxil olmaqla müxtəlif məsələlərlə bağlı bir-birimizlə işləyə bilərik. Bu hadisələr müsbətdir. Lakin digər tərəfdən, Naxçıvandan Azərbaycan Respublikasına dəhlizin açılması ilə bağlı çoxsaylı suallar mövcuddur. Azərbaycan və Türkiyə rəsmiləri dəfələrlə bu dəhlizin xüsusilə Ermənistan-Azərbaycan sərhədini kəsməyəcəyi barədə danışıblar. Çox sayda iranlı və ekspertlər bu dəhliz barədə narahatdır. Sual bundan ibarətdir: bu dəhlizin real eni nə qədər olacaq? Bu dəhliz yalnız Naxçıvan ilə Azərbaycan vətəndaşları arasında bağlantı olacaq? Yəni daxili dəhlizmi olacaq? Yoxsa, bu, beynəlxalq dəhliz olacaq? Bu dəhliz insanların keçməsi və malların ötürülməsi ilə məhdudlaşacaq, yoxsa hərbi təchizatlar da ötürülə biləcək? Bu suallar o faktdan yaranır ki, həm İran və Azərbaycan arasında 750 kilometrlik sərhəd, həm də İran və Ermənistan arasında 38 kilometrlik sərhəd bizim üçün vacibdir. Cənab Prezident, bunu aydınlaşdıracağınıza ümid edirəm və dostyana yuxarıda qeyd edilən sualları cavablandırardınız ki, mən bu cavabları İrandakı dostlarıma çatdırardım. Xoş münasibətiniz və qonaqpərvərliyiniz üçün təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm, siz çox mühüm məsələni qeyd etdiniz və mən mövqeyimizə aydınlıq gətirmək istəyirəm. Sözsüz ki, mən yalnız Azərbaycan adından danışa bilərəm. Çünki söhbət dəhlizdən gedirsə, bir neçə ölkə var. Ona görə də bununla bağlı konsensus olmalıdır. Lakin İranla bərpa edilmiş bu sərhəd yeni imkanlar açır və siz Xudafərin su anbarı və bəndini xatırlatdınız. Bildiyiniz kimi, mənim İrana səfərlərimdən birində biz bununla bağlı İranla saziş imzaladıq. Əfsuslar olsun ki, Azərbaycanda bizi tənqid edənlərdən bəziləri buna görə Azərbaycanı günahlandırmağa çalışırdı, deyirdilər ki, niyə Azərbaycan bu sazişi imzalayıb, çünki Azərbaycan vəziyyətə nəzarət etmir. Lakin onlar başa düşə bilmirdilər ki, bu sazişin imzalanması ilə İran bir daha bu ərazini Azərbaycanın suveren ərazisi hesab etdiyini nümayiş etdirdi, baxmayaraq ki, İran çoxsaylı sənədlərdə bizim ərazi bütövlüyümüzə güclü dəstək verib. Bu, siyasi tərəfidir. Praktiki nöqteyi-nəzərdən, bu gün biz sərhədə nəzarət etdiyimiz bir vaxtda Xudafərin bəndi həm də bir növ bizim birgə sərvətimizdir. Mən artıq sizə deyə bilərəm ki, biz 200 meqavatlıq su elektrik stansiyasının qurulması ilə bağlı İran tərəfi ilə əməkdaşlığa başlamışıq. Bu, iki hissəyə ayrılacaq. Azərbaycan investisiyaların ödənilməsi metodologiyası ilə bağlı artıq İranla razılığa gəlib. Çünki hər şey İran tərəfindən edilib. Ona görə də biz geri ödəməli və öz payımızı masaya qoymalıyıq. Bu da razılaşdırılıb.

Sərhədlə bağlı narahatlıqlara gəlincə, düşünürəm ki, bu narahatlıqlar tamamilə əsassızdır. Postmüharibə dövrünün əvvəlində belə narahatlıqlar var idi. Lakin bilirsiniz ki, yüksək rütbəli nümayəndə heyətləri, xarici işlər naziri, xarici işlər nazirinin müavini Azərbaycana səfər etdilər və biz, şəxsən mən onların hər ikisi ilə - cənab Zərif, cənab Əraqçı ilə bununla bağlı fikirlərimizi geniş şəkildə müzakirə etdik və düşünürəm ki, bununla bağlı ortaq məxrəcə gəldik. Bilirəm ki, bundan sonra onlar Rusiyaya, Türkiyəyə də səfərlər edərək eyni məsələləri müzakirə etdilər və bizdə tam konsensus var. İran bu layihəyə güclü dəstək verir. Bundan əlavə, İran 3+3 əməkdaşlıq formatına güclü dəstək verir ki, hazırda faktiki olaraq əsas məsələ budur. Bu, heç bir halda İranı Ermənistandan ayırmayacaq. Bu, müəyyən mənada dəmir yolu əlaqəsi, magistral əlaqəsi olacaq. Bizim sərhədimizdə çoxlu dəmir yolu əlaqəsi, magistral əlaqəsi var. Bu, o demək deyil ki, bu, kiminsə maraqlarına ziyan vuracaq. Əksinə, bu, İrana Naxçıvan dəmir yolu vasitəsilə Yerasxa, oradan Ermənistana getməyə və dəmir yolu əlaqəsinə sahib olmağa imkan verəcək. Ona görə də düşünürəm ki, İran hökuməti bu layihəni tam şəkildə dəstəkləyir. Düşünürəm ki, həm də İran beyin mərkəzləri, vətəndaş cəmiyyəti və siyasətçilərinin həqiqəti bilməsi üçün yaxşı olacaq. Malların və sərnişinlərin daşınmasına gəlincə, bu, zaman məsələsidir. Artıq bir neçə dəfə Azərbaycan-Ermənistan-Rusiya birgə işçi qrupunda baş nazir müavinləri səviyyəsində keçirilən müzakirələrdən sonra bizim üçtərəfli bəyanatda bir müddəa var ki, Ermənistan ərazisində təhlükəsizlik Rusiya sərhəd təhlükəsizliyi qüvvələri tərəfindən təmin olunacaq. Bildiyiniz kimi, onlar Ermənistanın İran və Türkiyə ilə sərhədinə nəzarət edirlər. Ona görə də İran üçün bu, yenilik olmayacaq. Yəni yenə ruslar olacaq. İranlılar Ermənistanla sərhədi keçəndə ilk gördükləri Rusiya sərhəd təhlükəsizliyi qüvvələri olacaq. Dəhlizlə bağlı vəziyyət eyni olacaq. Bu, heç bir çətinlik yaratmayacaq. Hərbi və ya mülki yüklərə gəldikdə, bilirsiniz ki, bu gün biz İran ərazisi vasitəsilə mövcud xətlərlə Naxçıvana hərbi yüklər göndəririk. Niyə bu yolla olmasın? Bunun heç bir fərqi olmayacaq. Bundan əlavə, müharibə artıq bitib və bizim bu barədə düşünməyə ehtiyacımız yoxdur. Sülh barədə düşünməliyik.

İsrailin Təl-Əviv Universitetindən **Stivn KLAYN: Sabahınız xeyir, bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Mənim iki sualım var: Birincisi mesajla bağlıdır. Siz Azərbaycan cəmiyyətində həmrəylik haqqında danışdınız. Hesab edirəm ki, biz bu həmrəyliyi görürük. Biz ölkə ərazisində Azərbaycan dilində üzərində "Şuşa bizimdir!", "Qarabağ bizimdir!" yazılan şüarları görürük. Mən böyük həştəqlə "Ermənistana inanmayın" şüarını görmüşəm. Bu, vacibdir. Mən İsrail nöqteyi-nəzərindən bunu başa düşürəm. Biz də bunu yaşamışıq, insanlara ünvanlanan mesajları. Mesajlar Qarabağa böyük bir sadiqlik yaratdı. Eyni zamanda, Sizin təsəvvür edə biləcəyiniz kimi, mən ermənilərə qarşı düşmən münasibət bəsləyən azərbaycanlılarla da danışmışam və onların buna haqqı var. Lakin bu da ermənilərin təhlükəsizliyinə, xüsusilə Dağlıq Qarabağdakıların təhlükəsizliyinə təsir edir. Biz bilirik, Siz emosional addımlar ata bilərsiniz, Dağlıq Qarabağda Azərbaycan ərazilərində etdiyiniz jestlər müsbət jest kimi edilib, lakin bunun zamanı düzgün olmayanda bu emosional olaraq onlara təsir edə bilər. Çünki onlar hələ də Sizin dediyiniz travma ilə yaşayır. Sualım ondan ibarətdir ki, Qarabağ Azərbaycanın nəzarətinə keçəndən sonra bu mesajlar necə dəyişir? Bu lövhələrin yanında "Şuşa bizimdir!", "Qarabağ Azərbaycandır!" daha nələr yazılacaq? Azərbaycanlıların ermənilərə qarşı düşmən münasibəti bəsləməmələri üçün, Dağlıq Qarabağ ermənilərinin isə Azərbaycan daxilində özlərini daha da təhlükəsiz hiss etmələri üçün növbəti mesajlar nədən ibarət olacaq? İkinci sualım qadınların vəziyyəti ilə bağlıdır. İqtisadi araşdırmalara görə, qadınların vəziyyəti iqtisadi inkişafa və sülhə çox bağlıdır, lakin bu boşluğun aradan qaldırılması çətin olur. Böyük müxtəlifliyi təmin etmək üçün qadınların vəziyyətinin daha da yaxşılaşdırılmasında hökumətin rolunu nədə görürsünüz? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. İkinci sualdan başlayacağam. Çünki qadınlar həmişə prioritet məsələdir. Hesab edirəm ki, həyatımızın müxtəlif seqmentlərində Azərbaycanda qadınların rolu kifayət qədər yüksəkdir. Qadınlara hörmət Azərbaycan xalqının tarixi ənənəsidir. Bildiyiniz kimi, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından biri qadınlara səsvermə hüququ vermək idi. Bu, 1918-ci ildə baş vermişdir. Qadınların həmin zaman emansipasiyası prioritetlərdən biri olmuşdur. Hesab edirəm ki, bu gün nailiyyətlər açıq-aydındır. Mənim üçün Azərbaycanın bəzən qadınların kifayət qədər hüquqları olmayan və ya qadınların hüquqlarının pisləşdiyi, yaxud burada bir növ diskriminasiyaya uğrayan bir ölkə kimi qavranılması qəribədir. Bu, heç də belə deyil. Burada çoxlu qadının olmaması faktı bizim burada qonaqlarımızın toplaşması ilə əlaqəlidir. Bura indi sizin masanızdır. Lakin Azərbaycandakı qadınların çox yüksək vəzifələri var və bunu siz özünüz də bilirsiniz. Milli Məclisin sədri və hətta bundan da yüksək vəzifələr qadınlar tərəfindən tutulur. Yenidənqurmaya gəldikdə, əlbəttə ki, biz onlara arxalanırıq. Çünki Azərbaycanda qadınlar adətən təhsil və səhiyyə sektorlarında işləyirlər. Bu da işğaldan azad edilmiş ərazilərdə prioritet olacaq. Birinci növbədə biz xəstəxanaları, məktəbləri inşa etməyi planlaşdırırıq. Buna görə də qadınlar üçün normal, yaxşı iş yerləri təmin olunacaq.

Şüarlar və lövhələrə gəldikdə, bilirsiniz ki, "Qarabağ Azərbaycandır!" ifadəsini mən Soçidə "Valday" konfransında demişəm. Çünki Qarabağda aksiyada iştirak edərkən Ermənistanın baş naziri Paşinyan "Qarabağ Ermənistandır və nöqtə" demişdi. Bu, danışıqların sonu idi. Bu, əvvəla, səhv idi, həqiqət deyildi. İkincisi, bu, onun verdiyi əvvəlki bəyanatlarla ziddiyyət təşkil edirdi. O, Qarabağın müstəqil ölkə olduğunu deyirdi. Necə ola bilər ki, o, həm Ermənistanındır, eyni zamanda, müstəqil ölkədir? Bu, cənab Paşinyana ünvanlanmış bir sualdır. Yəqin ki, indi ona bu sualı verməyə artıq ehtiyac yoxdur. Mənim canlı yayımlanan konfransda danışmaq imkanım olanda mən bunu dedim. Mən bunu Bakıda deyə bilərdim və ola bilsin bir çox insan bunu eşitməzdi. Lakin mən bunu Rusiya televiziyası ilə canlı yayımlanan konfransda dedim: "Qarabağ Azərbaycandır və nida işarəsi". Bu, dərhal həştəqə və ya şüara çevrildi. Bu, bütün bəyanatlarımda bizim qələbəmizin əsas şüarı idi və məhz buna görə bu şüarı biz hər yerdə görürük. Yəqin ki, bu, belə davam edəcək. Çünki bu, həqiqətdir: "Qarabağ Azərbaycandır!". Yeni lövhələrlə bağlı mən artıq biri haqqında dedim. Biz Ermənistanın öz yolu hesab etdiyi yolun üzərində bir lövhədə "Azərbaycana xoş gəlmisiniz" yazmışıq. Bu da onları qıcıqlandırır. Bilmirəm nə yazaq. Biz "Qarabağ Azərbaycandır!" yazanda bu, onların xoşuna gəlmir, biz "Azərbaycana xoş gəlmisiniz" yazanda da bu, onların xoşuna gəlmir. Yəqin ki, siyasətçilərin yanında və beynəlxalq birlikdə dediyim kimi özlərinə bələdçi tapmaq və özlərini yeni reallıqlara uyğunlaşdırmaq məqsədilə yaxşı müalicə almaq üçün onlara bu posttravma dövrü lazımdır. Lakin müharibə zamanı və müharibədən sonra biz düşmənçilik xarakterli ritorikaya tamamilə yol verməmişdik. Mənim Azərbaycan xalqına ünvanladığım şərhlərimdə, bəyanatlarımda və mesajlarda həmişə Ermənistanın bizə vaxt cədvəli verməli olduğunu və bu halda müharibəni dayandıracağımızı deyirdim. Bu da baş verdi. Biz yanlış olanı etmədik, yalnız müvafiq olanı etdik və bunu vaxtında etdik.

Türkiyənin İstanbul Altınbaş Universitetinin rektoru, Türkiyə Təhlükəsizlik və Xarici Siyasət Məsələləri üzrə Prezident Şurasının üzvü **Çağrı ARHAN: Mən də Sizi Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi və bu Qələbəni qazanmış Azərbaycan xalqının hər bir nümayəndəsini şəxsən təbrik etmək istəyirəm. Siz dediniz ki, azərbaycanlılar Azərbaycan şəhərlərində Azərbaycan bayraqları ilə yanaşı, türk bayraqlarını dalğalandırırdılar. Əminəm ki, bu 44 günlük müharibə zamanı Türkiyənin hər bir şəhərində Azərbaycan bayraqları olduğunu da bilirsiniz. Biz Qələbəni Türkiyədə olan Azərbaycan vətəndaşları kimi qeyd edirdik. Türkiyə və Azərbaycan arasında bu yüksək əməkdaşlıq dövrü onu göstərdi ki, "Bir millət, iki dövlət" ifadəsi, sadəcə, bir ritorika deyil, həm də reallıqdır. Biz bu məqamlarda ümummilli lider mərhum Heydər Əliyevin xatirəsini anırıq. Çox qısa bir sual vermək istəyirəm. Cari hadisələrin inkişafından, cari vəziyyətdən və regionda dinamikaya ehtiyac duyulduqdan sonra Siz hələ də Minsk qrupuna ehtiyacın olduğunu və belə bir qrup olarsa, bu qrupun funksiyasının nədən ibarət olacağını düşünürsünüzmü? Yeni funksiyalar olacaqmı, onlar mövcud olan funksiyalarını yeniləmədilərmi? Bu 25-30 il fəaliyyət göstərən qrupun indi məqsədi nədir? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Xoş sözlərinizə, təbriklərə görə təşəkkür edirəm. Biz qələbəmizin Türkiyədə hamımızın qələbəsi kimi qəbul olunduğunu bilirik və belə güclü qardaş dəstəyinə görə çox minnətdarıq. Dediyim kimi, Türkiyə cəmiyyətinin bütün seqmentlərindən, adi insanlardan, bizə əlavə güc verən hər kəsdən bu həmrəyliyi və dəstəyi hiss edirdik.

Minsk qrupuna gəldikdə, müharibədən sonra mən Minsk qrupunun həmsədrləri ilə görüşmüşdüm. Onların gələcəyini necə gördüyümlə bağlı mənə sual verdiklərində onlardan mənə bəzi təkliflər təqdim etmələrini xahiş etdim. Çünki Minsk qrupu həmişə təklif verən qrup idi. Əlbəttə, Azərbaycanın və Ermənistanın mövqeyi əsasında. Lakin masa üzərində olan prinsiplər və mövzular onlar tərəfindən işlənib hazırlanmışdı. Əlbəttə ki, Minsk qrupunun tərkibi və daxili münasibətlər həmişə onların prioriteti olub. Əvvəla, biz, həmsədrlərin - Rusiya, Amerika Birləşmiş Ştatları və Fransanın mövqeyinin nədən ibarət olduğunu bilməliyik. Onlar Minsk qrupunun gələcək fəaliyyətini necə görürlər? Çünki bu quruma həmsədrlik edən onlardır. Bu da bizim mövqeyimizdir. Münaqişə öz həllini tapdıqdan sonra münaqişənin həllinə kömək etməli olan qrupun fəaliyyətinə yer varmı? Bilmirəm. Eyni zamanda, mən bizə artıq Minsk qrupu lazım deyil, çıxın gedin də deyə bilmirəm. Xeyr. Nəyə görə bunu deyim ki? Buna görə mən onlara diplomatik şəkildə düşünməyi və kreativlik göstərməyi xahiş etdim. Onlar bu 29 il ərzində çox kreativ olublar. Bir az da kreativlik göstərsinlər. Lakin hesab edirəm ki, ciddi danışıq, onların postmünaqişə vəziyyətində öz rolunu oynaya biləcəyi bəzi sahələr ola bilər. Münaqişəni həll etməli olan bir qrup olaraq yox. Burada mən Minsk qrupunun bəzi nümayəndələri ilə tamamilə razı deyiləm. Onlar münaqişənin həll edilməli olduğunu deyirlər. Münaqişə artıq həll olunub. Əgər mən münaqişənin həll edildiyini deyirəmsə, bu, onun həll olunduğu deməkdir. Əgər Ermənistan münaqişənin həll olunmadığını deyirsə, onda mən Ermənistan tərəfindən münaqişənin həllini necə gördüklərini, bizim nələr etməli olduğumuzu soruşa bilərəm. Beləliklə, onların özlərinin nəsə düşünmələrini, kreativ olmalarını, dəstək verməli olduqlarını hesab edirəm. Bu kövrək sülhə zərbə vura biləcək bir şey etməməlidirlər. Ermənistana qeyri-real vədlər verməməlidirlər, neytral, qərəzsiz və bu vəziyyəti bağlamağa çalışmalıdırlar. Ermənistanla gələcək sülh razılaşması haqqında danışanda, yəni, əgər Ermənistan belə bir variantı nəzərdən keçirərsə, bu halda beynəlxalq tərəflər üçün çoxlu imkanlar ola bilər. Demarkasiya, delimitasiya, qarşılıqlı əlaqə məsələləri var. Biz beynəlxalq birliyin bir hissəsiyik, biz ATƏT-in üzvüyük və ATƏT-in regionda çox xüsusi rolu var. Buna görə mən onların faydalı ola biləcəyini düşünürəm. Lakin onlar bizə çoxdandır səfər etmir. Ümid edirəm ki, onlar tezliklə müəyyən təkliflərlə gələcəklər və biz də, əlbəttə ki, bu təklifləri lazımi diqqət verərək nəzərdən keçirəcəyik.

Kiyev-Mohyla Akademiyasının Milli Universitetinin professoru **Taras KUZİO: Ukraynadan da Sizin ərazilərin azad olunması münasibətilə təbrik olub. Azərbaycanı birmənalı dəstəkləyən tək Türkiyə deyil, eləcə də Ukrayna bütün siyasi mənbələrdə və media orqanlarında bunu bəyan edib və bu, olduqca mühümdür. Sualı verməzdən öncə bir zarafatı bölüşmək istəyirəm. Bu, çox maraqlı fikir mübadiləsini dinləyərkən ağlıma belə bir sual gəldi: görəsən, erməni kəşfiyyatı son 10 və ya 20 il ərzində tətilə çıxmışdı? Yaxud onlar google-dan istifadə etməyi bacarmırdılar? Bəlkə də, Yandex Google qədər yaxşı deyil, nə bilim? Lakin mənim ciddi olaraq sualım, ola bilsin ki, bu sual hələ də səslənməyib və əvvəlki Minsk qrupuna dair sualla uzlaşır. Minsk qrupu ilə bağlı problem odur ki, ABŞ regionda yox idi. Hər iki prezidentin dövründə. Yəni, bu, siyasi partiya məsələsi deyil. İki fərqli partiya. Fransızlar da qərəzli idi. Noyabrda Fransa parlamentinin hər iki palatası Dağlıq Qarabağın müstəqilliyinin lehinə səs vermişdi. Odur ki, Fransa Azərbaycan məsələsində separatizmi dəstəkləyir, lakin, eyni zamanda, Minsk qrupunda Ukraynanın şərq bölgəsi olan Donbas məsələsində Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini iddia edirdi. Çox qəribə ziddiyyətli və çoxvektorlu xarici siyasət yürüdürdü. Yeni ABŞ administrasiyasından bu regionda nə görmək istərdiniz? Minsk qrupundan daha geniş miqyasda soruşuram. Azərbaycan Prezidenti ABŞ-ı daha fəal, daha iştirakçı görmək istəyirmi? ABŞ-ın geri qayıtmağının vaxtıdırmı? Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Çox təşəkkür edirəm. Əvvəlcə, təbrikinizə görə sağ olun. Azərbaycanı dəstəkləyən Ukraynadakı dostlarımıza bizim minnətdarlığımızı çatdırın. Müharibə zamanı biz həssaslıqla dünya ölkələrinin baş verənlərə necə reaksiya göstərdiklərini izləyirdik. Odur ki, Ukrayna cəmiyyətinin güclü mövqeyi tərəfimizdən yüksək qiymətləndirilir. O ki qaldı suala, sizinlə tamamilə razıyam. Bəli, Fransa separatçıların tərəfində idi və bu, həqiqətdir. Müharibə zamanı bir neçə dəfə bu barədə açıq fikirlərimi bildirmişdim və bu, əlbəttə ki, qeyri-münasib idi. Çünki bir çoxlarınız yəqin bilmirsiniz, amma mən Fransanın Minsk qrupunun necə həmsədrinə çevrildiyinə dair tarixçəni sizin diqqətinizə çatdırım. Fransa heç də əvvəldən Minsk qrupunun həmsədri deyildi. Fransa Prezidenti Şirakın xahişi ilə Minsk qrupunun həmsədri oldu. O, çox təkid etdi və mərhum atamdan dəfələrlə bunu xahiş etmişdi. Mənim mərhum Prezident Şirakla bir çox görüşlərimdə o da mənə eyni tarixçəni, atamı Fransanın Minsk qrupunun həmsədri olması üçün necə inandırdığına dair danışırdı. Deyirdi ki, Sizin atanız buna etiraz edirdi və açıq şəkildə "xeyr" deyirdi və bildirirdi ki, bizim şəxsinizə qarşı heç bir iddiamız yoxdur, lakin sizin çox güclü erməni diasporunuz var və bu diaspor sizin qərar qəbuletmə prosesinizə təsir edəcək, siz nəticədə Ermənistanın tərəfində olacaqsınız. Prezident Şirak onu inandırdı və vəd etdi ki, belə olmayacaq, Fransa bitərəf olacaq və ondan sonra atam razılığını verdi. Razılığını verməsəydi, Fransa orada olmayacaqdı. Bu əhvalatdan bixəbər olan bəzi fransız siyasətçilər üçün bir xatırlatmadır. Sizə deyim ki, Fransa ilə yaxın əməkdaşlığımızın bütün müddəti ərzində bu bitərəflik və qərəzsizlik təmin olunurdu. Müxtəlif bitərəflik səviyyələrində, hətta onu da deyə bilərəm ki, Prezident Oland aprelin 24-ü Ermənistanda mərasimdə iştirak edərkən, eyni gün o, təyyarə ilə Bakıya gəlmişdi. Mən həmin zaman Prezident Ərdoğanla Çanakkalada Çanakkala zəfərinin ildönümündə idim və elə alındı ki, mən Bakıya Prezident Olanddan daha sonra gəlib çatdım. O, məndən əvvəl Bakıya gəldi və biz növbəti gün səhər görüşdük. Mən o hadisəni çox yüksək qiymətləndirirəm, bu günə kimi. Mən o hadisəni, Minsk qrupunun həmsədri olan bir siyasətçinin, dövlət xadiminin, məsuliyyətli bir şəxsin davranış əlaməti kimi görürəm. O, aydın başa düşürdü ki, Ermənistana bu münasibətlə səfər edirsə, o, Azərbaycana gəlib bizə öz ehtiramını göstərməsə, tarazlı və bitərəf davranmasa, bu, Azərbaycanda olduqca qeyri-populyar hərəkət kimi qarşılanacaq. Əfsuslar olsun ki, bu diplomatik təcrübə müharibə zamanı və hətta ondan əvvəl itirilmişdi. Hətta müharibədən əvvəl. Fransa tərəfindən Ermənistan və Azərbaycan barədə tarazlaşdırılmamış yanaşma təkcə müharibə zamanı deyildi. Müharibədən əvvəl də belə idi. Bunun üçün bir çox göstəricilər var, sizin vaxtınızı çox almaq istəmirəm. Müharibə zamanı baş verənlər tamamilə qəribə idi və təəssüf ki, olanlar oldu. Bu, bizim planlarımızı dayandırdımı? Xeyr. Onlar bizim iradəmizə təsir edə bildilərmi? Xeyr. Bu, yanlış hesablama idi. Mən açıq danışmaq istəyirəm. Böyük ölkələr bəzən bəzi başqa ölkələr haqqında dediklərinin dərhal icra olunmasına alışıblar. Onlar buna adət ediblər. Bu, pis vərdişdir. Onlar bu pis vərdişi atmalıdırlar. Bu, siqaret çəkmək kimidir, siz buna aludə olursunuz. Kimsə sizin istədiyinizi və ya sizin dediyinizi deməyəndə onların qəzəbi onları narahat edir. Müharibə zamanı mənə deyilənlərin heç biri, yəni durdurmaq, artıq azad edilmiş əraziləri geri qaytarmaqla bağlı sözlərin heç biri yerinə yetirilməmişdir. Lakin müharibədən sonra vəziyyət dəyişdi. Fransadan nümayəndə heyətləri, mesajlar gəlmişdir, münasibətlərin normallaşdırılması ilə bağlı təkliflər var idi. Mən münasibətlərimizdə heç bir səhv etmədiyimizi deyirdim. Biz həmişə əməkdaşlığa sadiq idik. Lakin olanlar oldu.

*Ardı 6-cı səh.*

# İlham Əliyev göstərdi ki, regionda söz sahibi Azərbaycandır



*Əvvəli 5-ci səh.*

Siz Fransanın Ukraynanın ərazi bütövlüyünü güclü dəstəklədiyini, lakin, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmədiyini deməyiniz düzdür. Mən bunun necə adlandırıldığını bilirəm, lakin kobudluq etmək istəmirəm.

ABŞ-ın nə edə biləcəyi ilə bağlı. Siz özünüz qeydinizin əvvəlində ABŞ-ın olmadığını dediniz. ABŞ yox idi, biz də problemi həll etdik. Mən ABŞ-ın burada olmalı olduğunu demirəm, lakin yeni administrasiyadan bizə heç bir mesaj daxil olmadı. Administrasiya yanvardan formalaşıb, bu gün apreldir. Cənab Blinken Paşinyana zəng edib, onların nə haqqında danışdıqlarını bilmirəm. Yenə də tarazlıq qorunmamışdır. Mən cənab Blinkendən zəng gözlədiyimizi demirəm. Lakin bu, həmsədr ölkədir, onlar tarazlı şəkildə davranmalıdırlar. Biz regionumuzla bağlı məsələdə ABŞ hökumətinin mövqeyinin nədən ibarət olduğunu bilmirik. Prezident Bayden Novruz bayramı münasibətilə mənə məktub ünvanlamışdır. Bunun üçün ona minnətdaram. Lakin bu, sadəcə, təbrik mesajı idi. Mən bu tip mesajların başqa ölkələrə də ünvanlandığını bilirəm. Bu qədər.

Türkiyənin Yaxın Şərq Araşdırmaları Mərkəzindən professor **Əhməd UYSAL: Təşəkkür edirəm, cənab Prezident. Sizi bir daha təbrik etmək istəyirəm, biz Sizinlə qürur duyuruq. Biz dünən Ağdamda olan dağıntıları müşahidə etdik. Sanki savaşsız müharibə zonasında idik. Onların etdikləri yeganə şey çala qazmaq idi. Heç bir tikinti-quruculuq işləri aparılmamışdır. Çox kədərli idi. Evləri, məscidləri dağıtmışdılar. Əlbəttə ki, Sizin icazənizlə, Beynəlxalq Qarabağ Forumunun keçirilməsini təklif etmək istərdim. Bu da bir çox türk turistlərini, akademiklərini və biznesmenləri cəlb edərdi. Təşəkkür edirəm.**

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Yaxşı fikirdir. Hesab edirəm, ADA Universiteti bunun üzərində işləyə bilər. Mən bu ideyanı tamamilə dəstəkləyirəm. Tədbirlər burada, işğaldan azad edilmiş ərazilərdə keçirilə bilər. Ağdamda gördükləriniz, demək olar ki, hər yerdədir. Füzulidə vəziyyət bundan da pisdir. Çünki Füzulidə binalar yoxdur. Ağdamda yarı uçulmuş məscidi iki səbəbdən saxlamışdılar. Birincisi, bu məsafəni ölçmək üçün bir oriyentir idi. İkincisi də bu müşahidə nöqtəsi idi. Onlar bizim bu istiqamətdən hücuma keçməyimizi gözləyirdilər. Bizim əraziləri işğaldan azad etdiyimiz yola baxsanız, görəcəksiniz biz birbaşa Ağdama getməmişik. Onlar bizi orada gözləyirdilər, onların çox möhkəm müdafiə sədləri var idi. Çoxlu itkilər ola bilərdi. Bizim Ağdama yolumuz açıq olmuşdur və Ağdam Şuşadan sonra gəlirdi. Biz ora digər istiqamətdən getməyi planlaşdırırdıq. Ermənistanın baş naziri noyabrın 10-da kapitulyasiya aktına imza atmadığı təqdirdə onların iyirmi min itkisinin ola biləcəyini demişdi. Rəqəmlərdən əmin deyiləm. Ağdamda iyirmi min əsgər var idisə, onda niyə döyüşmürdülər? İşğal etdikləri əraziləri əldən verdikləri bir vaxt nəyə görə Ağdamda iyirmi min əsgər saxlayırdılar? Füzulidə, ümumiyyətlə, heç bir bina yoxdur. Qubadlıda hərbi anbar kimi istifadə etdikləri iki-üç bina saxlamışdılar. Zəngilanda bir qəsəbə salmışdılar. İnsanları məskunlaşdırmaq istəyirdilər, lakin onların insan resursları yox idi. Şuşaya nə etdiklərini də sizə deyə bilərəm. Onlar həmişə Şuşanın erməni şəhəri olduğunu deyiblər. Bu, nisbətən yeni şəhərdir, 1752-ci ildə Ağdam rayonundan gələn Pənahəli xan tərəfindən salınmışdır. O, özünü müdafiə etmək üçün bu ərazini bir qala kimi seçmişdir. Çünki ona müxtəlif yerlərdən hücumlar olurdu. 1805-ci ildə İbrahim xan Rusiya ilə Kürəkçay müqaviləsini imzalayana qədər Pənahəli xan, onun övladları və nəvələri Şuşaya hökmdarlıq etmişlər. O, elə bilir ki, həyatını xilas edir, lakin bir ildən sonra İbrahimxəlil və onun ailəsi öldürülmüşdür. Biz bu tarixi bilməliyik. Kürəkçay müqaviləsinə və onu imzaladıqdan sonra Qarabağın hökmdarına qarşı nə baş verdiyinə baxmağı sizdən xahiş edirəm.

Deyirlər ki, Şuşa erməni şəhəridir, lakin onun vəziyyəti çox pis idi. Oraya birinci dəfə gələndə tamamilə təəccüblənmişdim. Hər şey dağıdılmışdır. Heç bir bina tikməmişdilər. Yalnız Ermənistan və qondarma Qarabağ rejiminin rəhbərləri üçün sovet vaxtında sanatoriya olan ərazidə iki villa tikilmişdir. Sizə bundan artığını da deyə bilərəm. Hadruta və erməni qəsəbələri olan ərazilərə girəndə ola bilsin son iyirmi il ərzində belə yoxsulluğu heç yerdə görməmişdim. Diaspordan topladığı pullarla bunlar nə etmişdilər? Hər il Kaliforniyada, Fransada, Rusiyada on milyonlarla dollar toplanılan marafonlar təşkil olunurdu. Lakin onları görmək olmurdu. Beləliklə, biz Şuşanı bərpa etməliyik və bərpa edəcəyik də. Qarabağ forumu yaxşı fikirdir. Bu təşəbbüsünüz üçün çox sağ olun.

Roma Sapienza Universitetindən **Daniel Pommier VİNÇELLİ: Təşəkkür edirəm, cənab Prezident. Ərazi bütövlüyünüzü bərpa etməyiniz münasibətilə Sizi təbrik edirəm. Düşünürəm ki, bu siyasi lider üçün ömründə bir dəfə baş verən nailiyyətdir. Şəxsən Sizi təbrik edirəm. Mən soruşmaq istəyirəm, Sizcə məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıtmağına icazə veriləcəkmi? Bilirəm ki, bu, vaxt tələb edən uzun prosesdir. Lakin zənnimcə, qayıdış prosesi ilə bağlı ümumi məlumatları verə bilərsiniz. Təşəkkür edirəm, cənab Prezident.**

**Prezident İlham ƏLİYEV:** Biz onları mümkün qədər tez qaytarmaq istəyirik. Onlar bu qədər gözləyiblər. Lakin ən böyük problem minalardır. Ermənistan bizə minaların xəritəsini verməyib, baxmayaraq ki, biz bunun onlarda olduğunu bilirik. Müharibə bitəndən sonra bizim hərbçilərdən başqa, təkcə mülki şəxslər arasında 100-dən çox itkimiz var. 100-dən çox insanın 20-dən çoxu minalardan həlak olub. Bu, daha bir müharibə cinayətidir. Çünki müharibə bitib. Niyə siz bizə minaların xəritəsini vermirsiniz ki, biz həmin əraziləri təmizləyə bilək. Ona görə də minaların təmizlənməsi ilə bağlı çox işlər görülməlidir. Minaların təmizlənməsi çox uzun bir prosesdir, bu, vaxt tələb edir. Çünki bizdə kifayət qədər ixtisaslı kadr yoxdur. Hazırda biz treninq təşkil edirik və həmçinin avadanlıq alırıq. İkinci mühüm məsələ, - ona artıq start verilib, - dəymiş ziyanın hesablanmasıdır. Çünki biz Ermənistanı törətdikləri dağıntılara görə beynəlxalq hüquqi təsisatlarda məhkəməyə verməyi planlaşdırırıq. Bu səbəbdən biz bütün dağıntıları sənədləşdiririk. Hər bir tikili üçün xüsusi pasportlar yaradırıq ki, bu, hüquqi prosedur üçün sənəd olacaq. Əlbəttə ki, infrastruktur layihələri. Çünki biz insanları heç nəyin ortasına göndərə bilmərik. Orada layiqli yaşayış standartları olmalıdır. Biz artıq layihələrə başlamışıq. Mən onlardan bəzilərinin adını çəkə bilərəm. Məsələn, Füzulidən Şuşaya, Şuşadan Cəbrayıla, Horadizdən Zəngilana, Bərdədən Ağdama avtomagistralların tikintisinə artıq başlanılıb. Bunların hamısı ilə bağlı proses artıq gedir. Büdcə təsdiqlənib. Elektrik enerjisi istehsalı, xətlər, Şuşaya xətt artıq çəkilib. Şuşada elektrik stansiyası tezliklə açılacaq. Qeyd etdiyim kimi, maksimum 2 ilə bütün Qarabağ elektrik enerjisi ilə təchiz olunacaq. Sonra, su təchizatı, su kəmərləri yoxdur. İnsanlar oraya getsələr, nə yeyəcəklər, nə içəcəklər, kənd təsərrüfatı ilə necə məşğul olacaqlar? Biz düzgün planlaşdırmalıyıq. Əlbəttə ki, şəhərsalma, çünki hər şey yerləyeksan edilib. Ona görə də yeni şəhərsalma layihələri olacaq. Hazırda bununla da bağlı proses gedir. Biz dərhal başlamışıq və sizə deyə bilərəm ki, bizim təsdiqləyəcəyimiz ilk şəhərsalma layihəsi Ağdam və həmçinin digər şəhərlərdir. Biz Zəngilanda kəndlərdən birində pilot layihəyə başlamışıq - “ağıllı kənd”. Düşünürəm ki, bərpa işlərinə ola bilsin gələn ay, ola bilsin iyunda başlanacaq. Ümidvaram ki, ilin sonunadək bu pilot layihə artıq həyata keçiriləcək. Eyni zamanda, mən müxtəlif ölkələrdən olan tərəfdaşlarımızla təmaslarım zamanı bizə şəhərsalma, kəndlərin tikintisi ilə bağlı ideyalar verə biləcək şirkətləri cəlb etmək üçün bu məsələni qaldırmışam. Biz bu şirkətləri bizimlə işləməyə dəvət etmək istəyirik, çünki bizim tikinti imkanlarımız bu əraziləri bərpa etmək üçün yetərli deyil. Dediyim kimi, biz 4 Lüksemburq bərpa etməliyik. Bu, ciddi işdir. Bu səbəbdən, onların hamısının nə vaxt qayıdacağını demək çətindir. Amma onlar mərhələli şəkildə qayıdacaqlar. Böyük ehtimal ki, qayıdış infrastruktura yaxın olan kəndlərdən başlayacaq. Məsələn Ağdam, Füzuli, Cəbrayılda elektrik və su xətlərini çəkmək daha asandır. Yavaş-yavaş biz davam edəcəyik. Eyni zamanda, biz hazırda, Laçında hava limanının inşasını planlaşdırırıq. Çünki Laçına getmək asan deyil. Oranı inşa etmək üçün yük təyyarələrinə ehtiyac var. Həmçinin Kəlbəcərə də yol çəkilir. Mövcud yol indi Rusiya sülhməramlılarının nəzarəti altındadır. Bu yoldan istifadə edirik, ancaq bəzən nə vaxt və necə olacağı bilinmir. İndi biz çoxlu tunellər inşa etməliyik, çünki dağların hündürlüyü 3500 metrə çatır və burada əvvəllər yol olmayıb. Beləliklə, dəqiq nə vaxt olacağını demək mənim üçün çətindir. Ancaq ümidvaram ki, gələn ildən etibarən, mərhələli şəkildə köçkünlərin ilk qrupu yerləşdirilməlidir.

Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru **Xalid Teymur ƏKRƏM: Mən protokoldan kənara çıxıb bir söz demək istəyirəm. Biz Sizin Facebook səhifəniz vasitəsilə bu konfransı Pakistanda da canlı yayımlayırıq. Çox sayda gənc bu konfransı izləyir. Onlar mənə yazırlar ki, Sizin liderliyiniz təkcə azərbaycanlı gənclər üçün yox, eləcə də pakistanlı gənclər üçün motivasiya mənbəyidir. Onlar məndən xahiş edirlər ki, bütün iştirakçılardan cənab Prezidentin şərəfinə xüsusi alqış istəyim.**

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Çox sağ olun. Gördüyümüz işlərlə bağlı, şəhərlərin əvvəlki görünüşü və dağıntılarla bağlı ilk nüsxə artıq sizə təqdim olunub. Bununla bağlı çoxlu kitablar olacaq. Bu, ilk nüsxədir. Bu, artıq paylanıb. Bu kitabı ilk əldə edənlər sizsiniz. Bir daha bizimlə olduğunuz və suallarınız üçün təşəkkür edirəm.

Sonda xatirə şəkli çəkdirildi.

# Xarici mətbuat Azərbaycan Prezidentinin ADA Universitetində keçirilən beynəlxalq konfransdakı çıxışından materiallar yayıb

Gürcüstanın aparıcı informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransdakı çıxışından silsilə materiallar yayıb.

AZƏRTAC xəbər verir ki, report.ge, interpress.ge, 24news.ge, kvira.ge, aktual.ge, ghn.ge, accentnews.ge informasiya portallarında Azərbaycan, rus, ingilis və gürcü dillərində yerləşdirilən materiallarda dövlətimizin başçısının çıxışından bəzi məqamları diqqətə çatdırılıb.

Əsasən Prezident İlham Əliyevin çıxışından sitatlar əsasında hazırlanan materiallarda 44 günlük Vətən müharibəsindən sonra Cənubi Qafqaz regionunda inkişafın təmin edilməsi üçün sabitliyə ehtiyac olduğu, qonşularımızın regional inkişafla bağlı Azərbaycanın baxışlarını paylaşdığı, həmçinin Azərbaycanın ATƏT-in Minsk qrupunun Cənubi Qafqazda dinc həyatın nizamlanması üzrə təkliflərini təqdim etməsini gözlədiyi, Ermənistanın “İsgəndər-M” raketindən istifadə etməsinin hərbi cinayət olduğu barədə fikirlər əksini tapıb.







* * *

Qırğızıstanın “turktoday.info” portalı AZƏRTAC-ın materiallarına istinadla Azərbaycan Prezidenti İlham Əliyevin ADA Universitetində keçirilən “Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransdakı çıxışından sitatlar dərc edib.

AZƏRTAC xəbər verir ki, portalda dərc olunan yazıda Prezident İlham Əliyevin Qarabağ müharibəsindən sonrakı inkişafla bağlı hələ çoxlu sualın qaldığını bildirdiyi qeyd edilib. Məqalədə Prezidentin sözlərindən sitat gətirilib: “Otuz ildir Ermənistanın işğalından əziyyət çəkən Azərbaycan xalqının regionda marağını, eləcə də həmrəyliyini görürük. Biz münaqişədən sonrakı mərhələ barədə danışmazdan əvvəl başa düşməliyik ki, bu ərazilər otuz ildir işğal altındadır”.

Dövlət başçısı bildirib ki, Ermənistandakı rejim xarici nümayəndələrin onların törətdikləri viranəlikləri və azərbaycanlılara qarşı nifrətlərini görməsini istəmirdi. Çünki bu dağıntılar və xarabalıqlar Birinci Qarabağ müharibəsindən sonra törədilib. Çünki müharibə zamanı yaşayış məntəqələrini dağıtmaq olmazdı. Onlar bunu Azərbaycan mədəniyyətinin irsini, həmçinin bu əraziləri bizim yaddaşlarımızdan silmək, bu ərazilərin mənşəyini dəyişmək üçün bilərəkdən törədiblər.

Prezident vurğulayıb ki, ermənilər nəhəng istehkamlar, müdafiə xətləri tikməklə bu əraziləri həmişəlik işğalda saxlamaq istəyib. Azərbaycan XXI əsrin müharibəsini aparmaqla yanaşı mənəviyyat müharibəsi də aparıb.

Dövlət başçısı Rusiya Prezidenti Vladimir Putinlə “İsgəndər-M” raketi ilə bağlı məsələni müzakirə etməsi, ATƏT-in Minsk qrupundan regionda dinc həyatın nizamlanması üzrə təkliflər gözləməsi, Ermənistanın “İsgəndər-M” raketindən istifadə etməsinin hərbi cinayət olması barədə ətraflı məlumat verib. Həmçinin Pakistanın qarşıdurmanın ilk günündən son gününədək Azərbaycanı açıq şəkildə dəstəkləməsi, Qarabağın Azərbaycan iqtisadiyyatında, eləcə də nəqliyyat sektorunda mühüm yerlərdən birini tutması, Ermənistanın Birinci Qarabağ müharibəsində törətdiyi bir çox cinayəti gizlətməsi, Azərbaycan-İtaliya əməkdaşlığının münaqişə zamanı və münaqişədən sonrakı vəziyyəti haqqında da bəhs edib.

Portalda dərc olunan yazıda Prezident İlham Əliyevdən daha bir sitat gətirilib: “Biz istəyirik ki, gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olduğunu bilsin. Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. XX əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar”.

Dövlət başçısı çıxışında bildirib ki, hər hansı revanş niyyətinin qarşısı sərt şəkildə alınacaq.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336; Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 208-VIQD nömrəli və 18 dekabr tarixli 224-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 9.2-ci maddənin ikinci cümləsində "Davam edən" sözləri "Uzanan" sözü ilə əvəz edilsin.

2. 18.4-cü maddədə "53.0.8-ci" sözləri "53.1.8-ci" sözləri ilə əvəz edilsin.

3. 30.1-ci maddədə "yalnız müstəsna hallarda," sözləri "yalnız müstəsna hallarda bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

4. 38.1-ci maddənin ikinci cümləsinə "hərəkəti qaydaları" sözlərindən sonra ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri və "qaydalarının" sözündən sonra ", əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin işə cəlb edilməsi qaydasının" sözləri əlavə edilsin.

5. 38.2-ci maddədə "davam edən" sözləri "uzanan" sözü ilə əvəz edilsin.

6. Aşağıdakı məzmunda 43.3-1-ci maddə əlavə edilsin:

"43.3-1. Bu Məcəllənin 18.6-cı maddəsində nəzərdə tutulan hallarda inzibati xətalar haqqında işlərə məhkəmələr baxır.".

7. 53.0-cı, 53.0.1 - 53.0.11-ci maddələr müvafiq olaraq 53.1-ci, 53.1.1 - 53.1.11-ci maddələr hesab edilsin və aşağıdakı məzmunda 53.2-ci maddə əlavə edilsin:

"53.2. Hər hansı şəxs barəsində başlanılmış inzibati xətalar haqqında işlər üzrə icraata, həmçinin onun inzibati xəta törədilməsinə aidiyyəti olmadıqda və ya təqsirliliyi sübuta yetirilmədikdə, o cümlədən təqsirliliyin sübuta yetirilməsində qanuna zidd olaraq əldə edilmiş sübutlardan istifadə edildikdə xitam verilir.".

8. 57.5.2.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 57.5.3-cü maddə ləğv edilsin.

9. Aşağıdakı məzmunda 57.6-cı maddə əlavə edilsin:

"57.6. Bu Məcəllənin 122.1-ci, 124.5-ci və ya 124.6-cı maddələrində nəzərdə tutulan, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin köməyi ilə aşkar edilən inzibati xəta haqqında iş üzrə qərar aşağıdakı hallarda da rəsmi qaydada verilmiş hesab olunur:

57.6.1. nəqliyyat vasitəsinin istifadəçisinin elektron kabinetində olan mobil telefon nömrəsinə inzibati xəta haqqında bu Məcəllənin 125.2.2-ci maddəsində nəzərdə tutulan qaydada SMS məlumat çatdırıldığı vaxtdan;

57.6.2. nəqliyyat vasitəsinin istifadəçisi bu Məcəllənin 125.2.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında iş üzrə qərarla və onun əlavələri ilə tanış olduğu vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda);

57.6.3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada nəqliyyat vasitəsinin dövlət qeydiyyatının aparılması və daimi uçota alınması, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsinin və dövlət qeydiyyat nişanının verilməsi, yaxud nəqliyyat vasitəsinə texniki baxışın keçirilməsi və ya sürücülük vəsiqəsinin dəyişdirilməsi zamanı barəsində inzibati xəta haqqında iş üzrə elektron qərar qəbul edilmiş şəxsə həmin qərarın verildiyi vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda);

57.6.4. bu Məcəllənin 97.4-cü maddəsində nəzərdə tutulmuş halda barəsində inzibati xəta haqqında iş üzrə elektron qərar qəbul edilmiş şəxsə həmin qərar verildiyi vaxtdan (elektron kabinetdə mobil telefon nömrəsi olmadığı halda).".

10. 60.4-cü, 125.2.3-cü, 125.4-cü və 130.1-ci maddələrdə "57-ci maddəsində" sözləri "57.1 - 57.5-ci maddələrində" sözləri ilə əvəz edilsin.

11. 61.1.9-cu, 62.2.9-cu və 65.4.7-ci maddələrdə "əleyhinə törədilən inzibati xəta, yaxud bu Məcəllənin 353.2-ci maddəsində nəzərdə tutulan" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan" sözləri ilə əvəz edilsin.

12. 81.1-ci maddəyə "ölçü cihazları" sözlərindən sonra "və bu Məcəllənin 81.2-ci maddəsində nəzərdə tutulan vasitələr" sözləri əlavə edilsin.

13. 81.2-ci maddədə "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

14. 96.1.1-ci maddədə "sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi, yaxud həmin nəqliyyat vasitəsini idarə etmək hüququ verən digər əsas" sözləri "nəqliyyat vasitəsini idarə etmək hüququ və ya nəqliyyat vasitəsinə sahiblik hüququ" sözləri ilə əvəz edilsin.

15. 97.1-ci maddəyə "mühafizə olunan" sözlərindən və 124.5-ci maddənin birinci cümləsinə "mühafizə edilən" sözlərindən əvvəl "ən yaxın" sözləri əlavə edilsin.

16. 97.4-cü maddə üzrə:

16.1. birinci cümlədə "10 gün müddətində bu Məcəllənin 57-ci maddəsində" sözləri "20 gün müddətində bu Məcəllənin 57.1 - 57.5-ci maddələrində" sözləri ilə əvəz edilsin;

16.2. ikinci cümlədə "saxlanılmış nəqliyyat vasitəsinin istifadəçisinə" sözləri "nəqliyyat vasitəsi dayandırılaraq barəsində inzibati xəta haqqında iş üzrə elektron qərar qəbul edilmiş şəxsə" sözləri ilə əvəz edilsin.

17. Aşağıdakı məzmunda 97.4-1-ci maddə əlavə edilsin:

"97.4-1. Bu Məcəllənin 123.1-ci maddəsində nəzərdə tutulan sorğunu hüquqi şəxsin öz hüquqi ünvanı üzrə fəaliyyət göstərməməsi səbəbindən 20 gün müddətində bu Məcəllənin 57.1 - 57.5-ci maddələrində nəzərdə tutulmuş qaydada çatdırmaq mümkün olmadıqda, həmin sorğunun verilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanı tərəfindən inzibati xətanın törədildiyi nəqliyyat vasitəsinin dayandırılaraq müvafiq sənədin təqdim edilməsi barədə qərar qəbul edilir. Bu halda dayandırılmış nəqliyyat vasitəsinin istifadəçisinə həmin sorğu təqdim edildikdən və müvafiq qeydlər aparıldıqdan dərhal sonra nəqliyyat vasitəsi buraxılır. Bu qaydada təqdim edilən sorğu rəsmi qaydada verilmiş hesab olunur.".

18. 102.1-ci, 124.2-ci, 125.7-ci maddələrə, 127-ci maddənin adına və 150.4-cü maddəyə "hərəkəti qaydaları" sözlərindən sonra ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri əlavə edilsin.

19. 104.6-cı maddədə "596.2-ci" sözləri "596.3-cü" sözləri ilə əvəz edilsin.

20. 16-cı fəslin adında "və yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi" sözləri ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə" sözləri ilə əvəz edilsin.

21. 120-ci maddə üzrə:

21.1. adına "hərəkəti qaydaları" sözlərindən sonra ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri əlavə edilsin;

21.2. mətnində "348-ci" sözləri "356-cı" sözləri ilə əvəz edilsin və mətnə "hərəkəti qaydaları" sözlərindən sonra ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri əlavə edilsin.

22. 124.1-ci maddə üzrə:

22.1. birinci cümləyə "hərəkəti qaydaları" sözlərindən sonra ", yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları" sözləri əlavə edilsin;

22.2. üçüncü cümlədə "gün" sözü "vaxtdan 3 gün müddətində" sözləri ilə əvəz edilsin.

23. 125.3-cü maddə üzrə:

23.1. ikinci cümlədə "çatdırıldığı vaxt barədə məlumatı" sözləri "çatdırıldığı vaxt barədə və nəqliyyat vasitəsinin istifadəçisinin bu Məcəllənin 125.2.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında iş üzrə qərarla və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatları" sözləri ilə əvəz edilsin;

23.2. üçüncü cümlədə "çatdırıldığı vaxt barədə məlumat" sözləri "çatdırıldığı vaxt barədə və nəqliyyat vasitəsinin istifadəçisinin bu Məcəllənin 125.2.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında iş üzrə qərarla və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatlar" sözləri ilə əvəz edilsin.

24. 125.5-ci maddənin ikinci cümləsinə "yenilənməsi" sözündən sonra ", habelə nəqliyyat vasitəsinə bir neçə şəxsin sahiblik hüququ olduqda həmin şəxslərdən birinin elektron müraciəti əsasında onun bu Məcəllənin 122.2-ci maddəsində nəzərdə tutulmuş nəqliyyat vasitəsinin istifadəçisi qismində qəbul edilməsi və inzibati xəta haqqında elektron qərarların onun barəsində tərtib edilməsi" sözləri əlavə edilsin.

25. 125.6-cı maddədə "125.4 və 125.5-ci maddələrində" sözləri "125.5-ci maddəsində" sözləri ilə əvəz edilsin.

26. 126.1-ci maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

"Barəsində inzibati xəta haqqında iş üzrə qərar qəbul edilmiş şəxs yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə inzibati tənbeh tətbiq etmə haqqında qərar ona bu Məcəllənin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan 20 (iyirmi) gün müddətində yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə şikayət edə bilər.".

27. 134.1.3-cü maddədə "53-cü" sözləri "135.1.5-1-ci" sözləri ilə əvəz edilsin.

28. Aşağıdakı məzmunda 135.1.5-1-ci maddə əlavə edilsin:

"135.1.5-1. bu Məcəllənin 53-cü maddəsində nəzərdə tutulmuş halların müəyyən olunması;".

29. 146.1-ci maddədə "22.1.2-ci maddəsində nəzərdə tutulmuş inzibati tənbeh" sözləri "146.1-1-ci maddəsində nəzərdə tutulmuş hallar" sözləri ilə əvəz edilsin.

30. Aşağıdakı məzmunda 146.1-1-ci maddə əlavə edilsin:

"146.1-1. İnzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 5 (beş) il müddətində icra edilməmişdirsə, daha icra edilmir.".

31. 327-ci maddənin "Qeyd" hissəsinə aşağıdakı məzmunda 7-1-ci bənd əlavə edilsin:

"7-1. Yol-nəqliyyat hadisəsinin baş verməsində təqsirli olan şəxsin müəyyən edilməsi üzrə tərəflər arasında mübahisə olmadığı və həmin yol-nəqliyyat hadisəsi nəticəsində sağlamlığa zərər dəymədiyi halda sürücünün hadisə yerini tərk etməsinə bu Məcəllənin 327.6-cı maddəsinin qüvvəsi şamil edilmir.".

32. 332-ci maddənin "Qeyd" hissəsinə "Bu Məcəllənin" sözlərindən sonra "96.1.1-ci," sözləri əlavə edilsin.

33. 342.8-ci maddədən "342.1.2," rəqəmləri çıxarılsın.

34. 346-cı maddəyə aşağıdakı məzmunda "Qeyd" hissəsi əlavə edilsin:

"Qeyd: Şəxs bu Məcəllənin 346.1-ci və ya 346.2-ci maddələrində nəzərdə tutulmuş inzibati xətanı törətməyə fasiləsiz davam edirsə, həmin inzibati xətanın törədilməsinə görə gün ərzində təkrar inzibati məsuliyyətə cəlb oluna bilməz.".

35. 350.2-ci maddənin dispozisiyası aşağıdakı redaksiyada verilsin:

"350.2. Avtomobil yollarında svetoforlar, yol nişanları, nişanlama xətləri və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı olmadan tətbiq olunmasına görə -".

36. 511-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"511.1. Avtoxuliqanlıq, yəni mexaniki nəqliyyat vasitəsinin sürücüsü tərəfindən ictimai qaydanı və əhalinin dincliyini nümayişkaranə şəkildə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, yol hərəkəti qaydalarının davamlı olaraq pozulması ilə müşayiət olunan aşağıdakı qərəzli hərəkətlərə:

511.1.1. aşkar surətdə iki və ya daha artıq mexaniki nəqliyyat vasitəsinin iştirakı ilə sürət yarışının həyata keçirilməsinə;

511.1.2. mexaniki nəqliyyat vasitəsinin bir və ya daha çox təkərinin yolun səthindən qaldırmaqla idarə edilməsinə;

511.1.3. mexaniki nəqliyyat vasitəsini qəflətən sürətləndirməklə davamlı olaraq təkərlərin yolun səthi ilə sürtünməsi səslərinin çıxarılmasına və ya yolun səthində çoxsaylı təkər izlərinin buraxılmasına görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ bir il müddətinə məhdudlaşdırılmaqla beş yüz manatdan yeddi yüz əlli manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ bir il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, on beş gündən bir ayadək müddətə inzibati həbs tətbiq olunur.

511.2. Bu Məcəllənin 511.1-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla, yeddi yüz əlli manatdan min manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

511.3. Bu Məcəllənin 511.1-ci maddəsində nəzərdə tutulmuş hərəkətlərin yolda müəyyən edilmiş hərəkət sürəti həddini 60 km/saatdan artıq aşmaqla törədilməsinə görə -

nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla, iki min manatdan dörd min manatadək məbləğdə cərimə edilir və ya nəqliyyat vasitəsini idarə etmək hüququ iki il müddətinə məhdudlaşdırılmaqla işin hallarına görə, pozuntunu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir aydan iki ayadək müddətə inzibati həbs tətbiq olunur.

Qeyd: Yol-nəqliyyat hadisəsinin qarşısını almaq məqsədilə mexaniki nəqliyyat vasitəsini sərt tormozlamaq nəticəsində sürtünmə səslərinin çıxarılması və ya təkər izlərinin buraxılması hallarına bu Məcəllənin 511.1.3-cü maddəsinin qüvvəsi şamil edilmir.".

37. 596-cı maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 596. İnzibati xəta haqqında iş üzrə icraatın aparılması qaydasının pozulması

596.1. Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs inzibati xəta hadisəsinin mövcudluğu ilə razılaşmadıqda, bu Məcəllənin 124.3-cü maddəsinin tələblərini pozaraq həmin xətanı bilavasitə aşkar edən vəzifəli şəxs tərəfindən inzibati tənbeh tətbiq etmə haqqında qərarın çıxarılmasına görə -

vəzifəli şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə cərimə edilir.

596.2. İnzibati xəta haqqında iş üzrə icraat zamanı səlahiyyətli vəzifəli şəxs tərəfindən bu Məcəllənin 52.2-ci, 57.4-cü, 83.2-ci, 83.3-cü, 91.0.4-cü, 97-ci, 101-ci, 102.5-ci, 103-cü, 104.4-cü, 104.7-ci, 111.1-ci, 117-ci, 131-ci, 136.2-ci və 150.4-cü maddələrində müəyyən edilmiş müddətlərin pozulmasına görə -

vəzifəli şəxslər iki yüz manatdan dörd yüz manatadək məbləğdə cərimə edilir.

596.3. Səlahiyyətli vəzifəli şəxsin bu Məcəllənin 104.1-ci maddəsinin müddəalarını pozmaqla, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərar qəbul etməsinə görə -

vəzifəli şəxslər dörd yüz manatdan altı yüz manatadək məbləğdə cərimə edilir.

596.4. Bu Məcəllənin 42.2-ci maddəsində nəzərdə tutulan siyahıya əsasən inzibati xətalar haqqında işlərə baxılması səlahiyyətinə aid edilməmiş vəzifəli şəxs tərəfindən inzibati xəta haqqında iş üzrə qərarın və ya həmin qərardan verilən şikayətə baxılma haqqında qərarın çıxarılmasına görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

Qeyd: Bu maddədə nəzərdə tutulmuş inzibati xəta müvafiq icra hakimiyyəti orqanının əməkdaşı tərəfindən törədildikdə inzibati xəta haqqında iş üzrə materiallar bu şəxsin intizam məsuliyyətinə cəlb edilməsi üçün həmin orqana göndərilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

# 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun (üç qrup və bir 1/4 oyunu) Bakı şəhərində keçirilməsi ilə əlaqədar bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. 2021-ci ildə futbol üzrə Avropa çempionatının 4 oyununun - üç qrup və bir 1/4 oyununun (bundan sonra - oyunlar) Bakı şəhərində keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasına gələn və bu Sərəncamın 2-ci hissəsində göstərilən sənədlərdən hər hansı birini təqdim edən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2021-ci il mayın 1-dən iyulun 5-dək Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində viza ala bilərlər;

1.2. oyunların təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının ərazisində əmək fəaliyyətinə cəlb edilən və müvafiq qaydada akkreditasiyadan keçmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün iş icazəsinin alınması tələb olunmur.

2. Aşağıdakı sənədlərdən biri viza verilməsi üçün əsas hesab edilsin:

2.1. oyunların Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin və ya Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi dəvət məktubu;

2.2. Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) müvafiq qaydalarına uyğun olaraq akkreditasiyadan keçməni təsdiq edən akkreditasiya kartı və ya digər sənəd;

2.3. Bakı şəhərində keçiriləcək oyunlarda iştirak edən futbol komandalarının təmsil etdikləri ölkələrin vətəndaşları və həmin ölkələrdə daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün oyuna bilet və ya biletin əldə olunmasını təsdiq edən sənəd.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

3.1. oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və "ASAN Viza" sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 iyun tarixli 923 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən təsdiq edilmiş ölkələrin siyahısı üzrə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə Avropa Futbol Assosiasiyaları Birliyinə (UEFA) və xarici ölkələrin müvafiq orqanlarına məlumat versin;

3.2. oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin "ASAN Viza" sistemi vasitəsilə elektron viza almaq imkanı barədə məlumatın nazirliyin, habelə Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasına uçuş həyata keçirən aviasiya şirkətlərinə oyunlarla əlaqədar Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi barədə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 aprel 2021-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanununun tətbiqi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli və "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2015-ci il 11 fevral tarixli 463 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 4.1-ci bəndə "275.2," rəqəmlərindən sonra "350.2," rəqəmləri əlavə edilsin;

1.2. 4.9-cu bəndə "97.4," rəqəmlərindən sonra "97.4-1," rəqəmləri əlavə edilsin;

1.3. aşağıdakı məzmunda 4.53-1-ci bənd əlavə edilsin:

"4.53-1. həmin Məcəllənin 350.2-ci maddəsində "orqan (qurum)" dedikdə, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Bakı Nəqliyyat Agentliyi (svetoforlar və yol nişanlarına münasibətdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla) nəzərdə tutulur;".

2. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 125; 2017, № 2, maddə 175, № 7, maddə 1349, № 11, maddə 2016; 2018, № 8, maddə 1689; 2019, № 4, maddə 660) ilə təsdiq edilmiş "ASAN ödəniş" sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7.1.5-1-ci yarımbənddə "57-ci maddəsində" sözləri "57.1-57.5-ci maddələrində" sözləri ilə əvəz edilsin;

2.2. 7.5-ci bəndin ikinci cümləsində "çatdırıldığı vaxt barədə məlumat" sözləri "çatdırıldığı vaxt barədə və nəqliyyat vasitəsinin istifadəçisinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 125.2.1-ci maddəsində nəzərdə tutulan qaydada onun elektron kabinetinə yerləşdirilmiş inzibati xəta haqqında iş üzrə qərarla və onun əlavələri ilə tanış olduğu vaxt barədə məlumatlar" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45 - 47, 122.1 və 125-ci maddələrinə və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamənin layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 aprel 2021-ci il*

# Baş nazir Əli Əsədov BP-nin regional prezidenti ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 13-də BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə BP arasında əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

# Dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri Hərbi Qənimətlər Parkı ilə tanış olublar





Aprelin 13-də ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda iştirak edən dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri tədbirdən sonra Hərbi Qənimətlər Parkı ilə tanış olublar.



AZƏRTAC xəbər verir ki, 15 ölkədən 27 qonaq 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun ələ keçirdiyi hərbi qənimətlərlə tanış olub. Nümayəndə heyətini Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov, ADA Universitetinin rektoru Hafiz Paşayev müşayiət ediblər.

Hikmət Hacıyev konfrans iştirakçılarına düşmən tərəfindən Azərbaycan ərazisinə atılmış "İskəndər-M" raketinin tapılmış qalıqları barədə ətraflı məlumat verib.

Həmçinin xarici ekspertlər Ermənistan tərəfindən Gəncə, Bərdə və Tərtər rayonlarına edilən raket hücumları və mülki əhalinin hədəfə alınması barədə məlumatlandırılıb.

Qonaqlar Hərbi Qənimətlər Parkında nümayiş etdirilən və Ermənistanın müharibə cinayətlərini sübuta yetirən eksponatlara baxıblar.

# Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko Azərbaycana işgüzar səfərə gəlib

Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko aprelin 13-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.




AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Belarus Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Belarus Respublikasının Prezidentini hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Xələf Xələfov və digər rəsmi şəxslər qarşıladılar.

# Ermənistan XİN-in isteriyası bu ölkənin Azərbaycana qarşı qarayaxma cəhdlərinin heç bir hüdudunun olmadığını göstərir

Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan Xarici İşlər Nazirliyinin Bakıda Hərbi Qənimətlər Parkının açılışı ilə bağlı bəyanatını şərh edib. AZƏRTAC xəbər verir ki, şərhdə deyilir:

"Paytaxt Bakı şəhərində Hərbi Qənimətlər Parkının açılışı və burada 44 günlük Vətən müharibəsi zamanı Ermənistandan qənimət götürülmüş və məhv edilmiş texnikanın nümayiş etdirilməsi ilə bağlı Ermənistan XİN-in isteriyası bu ölkənin Azərbaycana qarşı qarayaxma cəhdlərinin heç bir hüdudunun olmadığını göstərir.

Azərbaycan 30 ilə yaxın qanunsuz işğal altında saxlanılan ərazilərini beynəlxalq hüququn ona verdiyi haqla azad edib, Vətən müharibəsi nəticəsində, Azərbaycan oğullarının qanı və canı bahasına ərazi bütövlüyünü təmin edib. Əlbəttə, dünya təcrübəsində də geniş şəkildə qəbul olunduğu kimi, bu şanlı Zəfərin paradlar, parklar, muzeylər və digər vasitələrlə əbədi yaşadılması bizim mənəvi haqqımızdır. Parkda müharibə iştirakçısı olan erməni hərbçilərinin manikenlərinin sərgilənməsinə gəldikdə isə, dünyanın bir çox ölkələrində hərbi muzeylərdə manikenlərin sərgilənməsi təcrübəsi mövcuddur. Bu Parkın və burada sərgilənən kompozisiyaların verdiyi ismarış birmənalıdır: dövlətə qarşı həyata keçirilən təcavüz siyasəti və qanunsuz işğal üzərində çalınan böyük Qələbə beynəlxalq hüququn təntənəsidir.

Ermənistan XİN-in talançılıq və insana nifrət iddialarına gəldikdə isə, azad edilmiş ərazilərimizdə Ermənistan tərəfindən dövlət səviyyəsində törədilən məqsədyönlü dağıntı və talan siyasətinin nəticələri bu gün bütün dünyanın gözləri qarşısındadır. Tarixi, mədəni, dini irsimizi yerlə yeksan edən, təbii ehtiyatlarımızı talan edən, bir milyon insanın fundamental hüququnu pozaraq 30 il ərzində mülkiyyətini mənimsəyən bir ölkənin talançılıqdan danışması heç bir çərçivəyə sığmır. Faşist cəlladı Qaregin Njdeyə Yerevanda heykəl ucaldan, Birinci Qarabağ müharibəsi zamanı əli azərbaycanlıların qanına bulaşan beynəlxalq terrorçu Monte Melkonyanı qəhrəmanlaşdıran, terrorçu Soqomon Teyliryana ayaqları altında kəsilmiş insan başı ilə abidə ucaldan bir ölkənin insana nifrətdən danışmağa heç bir haqqı yoxdur.

Ermənistan tərəfinin hər fürsətdə dilə gətirdiyi "hərbi əsirlər" mövzusu ilə bağlı, bir daha Ermənistan XİN-ə yalan və iftira dolu ritorikadan çəkinməyi məsləhət görürük. Ermənistan hökumətinin də imza atdığı üçtərəfli bəyanatdan bir ay sonra Azərbaycan ərazilərinə terrorçuluq məqsədilə göndərilən diversant qrupun üzvləri "hərbi əsir" hesab oluna bilməz, bunu dəfələrlə bəyan etmişik. Azərbaycan hər zaman öz öhdəliklərinə sadiqdir, 10 noyabr 2020-ci il tarixli birgə bəyanatın icrası ilə bağlı bütün tədbirləri həyata keçirir, o cümlədən erməni hərbi əsirləri qısa müddət ərzində Ermənistan tərəfinə qaytarıb.

Ermənistanın isə üçtərəfli razılığa zidd olaraq, pozucu fəaliyyəti ilə bağlı üzrxahlıq bildirmək əvəzinə, əsassız iddialarla çıxış etməsi, Azərbaycana qarşı yalan və iftira dolu kampaniya aparması bu ölkənin hələ də düşmənçilik mövqeyindən çıxış etdiyini, beynəlxalq hüquq əsasında münasibətlərin normallaşdırılmasına hazır olmadığını və beləliklə də yaxın keçmişdə baş verənlərdən nəticə çıxarmadığını nümayiş etdirir".

## Milli Məclisin iclasında

# Hesablama Palatası hesabat verdi

Milli Məclisin aprelin 13-də keçirilən plenar iclasında Hesablama Palatasının illik hesabatı təqdim edilib və bir sıra qanunlara təklif olunan dəyişikliklər müzakirəyə çıxarılıb. İclasın gündəliyi təsdiq edildikdən sonra Milli Məclisin sədri Sahibə Qafarovanın cari məsələlərin müzakirəsi üçün ayırdığı vaxtda deputatlar fikir və təkliflərini səsləndiriblər.






Parlamentin komitə sədrləri Musa Quliyev, Zahid Oruc, deputatlardan Fazil Mustafa, Şahin İsmayılov, Azay Quliyev, Musa Qasımlı, Qüdrət Həsənquliyev, Ramin Məmmədov, Sahib Alıyev, İlham Məmmədov çıxış edərək Prezident İlham Əliyevin iştirakı ilə aprelin 12-də Bakıda açılışı olan Hərbi Qənimətlər Parkı barədə fikirlərini səsləndiriblər. Bildirilib ki, bu, Qarabağ uğrunda 44 günlük Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsinin əbədiləşdirilməsi baxımından önəmli hadisədir. Parkın açılışı eyni zamanda, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsinin, həm də tarixi ədalətin bərpasının təqdimatı idi. Deputatlar çıxışlarında günün digər aktual məsələlərinə də toxunublar.

Cari məsələlərin müzakirəsindən sonra sədr Sahibə Qafarova 9 məsələnin müzakirə ediləcəyini və ilk olaraq Hesablama Palatasının illik hesabatının dinləcəyini diqqətə çatdırıb. Qeyd edilib ki, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bu məsələnin geniş müzakirəsi keçirilib. İclasda parlamentin digər komitələrinin sədrlərinin və sədr müavinlərinin, ictimai təşkilatların nümayəndələrinin iştirak etməsi müzakirələrin səmərəsini daha da artırmağa imkan verib.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov "Azərbaycan Respublikası Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında hesabat"ı təqdim edərək bildirib ki, 2020-ci il yurd həsrətimizə son qoyan zəfər, qələbə ili olmaqla Azərbaycan tarixinin şanlı səhifələrindən ən parlağı kimi yaddaşlara həkk olunub. 44 gün davam edən və qələbə ilə nəticələnən Vətən müharibəsi dünya hərb elminə Ali Baş Komandan tərəfindən hazırlanmış qələbə strategiyası kimi daxil olub. Vətən müharibəsinin ilk günündən Hesablama Palatası bu savaşın ədalətin və hüququn bərpası olduğunu öz xarici həmkarlarının, beynəlxalq təşkilatların diqqətinə çatdırıb.

Vüqar Gülməmmədov hesabatında deputatların diqqətini ötən il dünyanı bürüyən COVID-19 pandemiyası ilə əlaqədar statistik göstəricilərə də yönəldib. Bildirib ki, əsasən distant fəaliyyətə üstünlük verilən 2020-ci ildə plana daxil edilmiş nəzarət tədbirlərinin sayı 25 faiz azaldılıb. Bununla belə, həmin dövr ərzində qurumun qanunvericiliklə müəyyən edilmiş fəaliyyəti vaxtında və operativ qaydada həyata keçirilib, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihəsi, müvafiq büdcələrə dəyişikliklər, dövlət büdcəsinin icrası üzrə Hesablama Palatasının rəyləri qısa müddətdə hazırlanaraq deputatların diqqətinə çatdırılıb. Qeyd edilib ki, hesabata rəylərdə əks olunmuş əsas tövsiyələr daxil edilib.

Diqqətə çatdırılıb ki, bu il 83 faizi audit olmaqla 41 kənar dövlət maliyyə nəzarəti tədbiri həyata keçirilib. Maliyyə hesabatlarının tərtib edilməsi zamanı iki istiqamətdə nöqsana yol verilir. Maliyyə hesabatlarında məlumatların düzgün əks etdirilməməsi birinci qrupa aid edilməklə təsir dərəcəsinə görə daha əhəmiyyətli pozuntu hesab edilir. Hesabatlarda düzgün əks etdirilməyən məbləğ 412,4 milyon manat müəyyən olunub. İkinci qrupa mühasibatlıq prinsiplərinə əməl edilməməsi və mühasibat yazılışlarının doğru verilməməsi halları aid edilir. Bu, ümumilikdə 335,4 milyon manat həcmindədir.

2020-ci ildə başa çatdırılmış 34 audit üzrə nəticələr ümumiləşdirilərək 452 halda nöqsana yol verildiyi müəyyən edilib. Bu nöqsanlar arasında büdcə qanunvericiliyinin pozulması, dövlət satınalmaları ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət edilməməsi, əsaslı qoyuluşlarla bağlı xərclərin icrasında yol verilmiş halları göstərmək olar.

Hesablama Palatası öz fəaliyyətində şəffaflıq və hesabatlılığın təmin edilməsini əsas götürüb, hazırlanmış rəylərin, hesabatların məlumatlılığının artırılmasını və müəyyən edilmiş qaydada ictimaiyyət üçün əlçatanlığını təmin edib. Hesabat ilində palatanın 2021-2025-ci illər üzrə yeni Strateji Planı təsdiq edilib. Hesabatın yekununda 2021-ci ildə qarşıda dayanan vəzifələr barədə deputatlara məlumat verilib.

Təqdimatdan sonra parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili hesabatla bağlı komitənin rəyini təqdim edib. Bildirilib ki, Milli Məclis sədrinin tövsiyəsi əsasında Hesablama Palatasının hesabatının komitədə müzakirələri zamanı ilk dəfə olaraq parlament sədrinin birinci müavini və hesabatın əhatə etdiyi sahələrə aidiyyəti olan Milli Məclisin 6 komitəsinin sədrləri və onların müxalifətdən olan müavinləri, vətəndaş cəmiyyətinin nümayəndələri iştirak ediblər.

Diqqətə çatdırılıb ki, Hesablama Palatasının iş planında nəzərdə tutulmuş hesabata audit, analitik və monitorinq fəaliyyəti ilə bağlı məlumatlar daxil edilib. Hesabat geniş və əhatəlidir. Aşkar edilmiş pozuntuların miqyası və ünvanlılığı barədə geniş təhlil aparılıb.

Hesabat ətrafında aparılan müzakirələr zamanı çıxış edən parlamentin komitə sədrləri Musa Quliyev, Zahid Oruc, Sadiq Qurbanov, deputatlardan Əli Məsimli, Razi Nurullayev, Rəşad Mahmudov, Azay Quliyev, Etibar Əliyev və Elman Nəsirov palatanın 2020-ci ildəki fəaliyyətini müsbət dəyərləndiriblər. Deputatlar hesabatla bağlı bir sıra irad və təkliflərini də səsləndiriblər.

Müzakirələrin sonunda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov deputatların qaldırdığı məsələlərə münasibətini bildirib və Milli Məclis tərəfindən hesabat nəzərə alınıb.

İclasda üçüncü oxunuşda müzakirəyə çıxarılan "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsini Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim edib. Bildirilib ki, sənəd "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1704-VQD nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Qanuna təklif edilən dəyişiklik uyğunlaşdırma məqsədi daşıyır. Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Gündəlikdəki "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" qanun layihəsi barədə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Deputat Razi Nurullayev layihə ilə bağlı fikirlərini səsləndirdikdən sonra qanun layihəsi ikinci oxunuşda təsdiq olunub.

Sədr Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti iki məsələ - "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" və "Veteranlar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri parlamentə bir məktubla daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

Həmin qanun layihələrini parlamentin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı təqdim edib. Müzakirələrdə çıxış edən Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, deputatlardan Aqil Abbas, Sabir Rüstəmxanlı, Sahib Alıyev, Musa Qasımlı, Novruzəli Aslanov, Hikmət Məmmədov, Rauf Əliyev, Fatma Yıldırım qanunlara təklif olunan dəyişikliklər barədə fikirlərini açıqlayıblar.

Qeyd edək ki, bu sənədlərə edilən dəyişikliklərə əsasən həm şəhid ailələri, həm də müharibə əlil və veteranları ilə bağlı vahid informasiya bazası yaradılır. Bu da sənədləşdirmə prosesinin asanlaşdırılması məqsədi daşıyır. Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Gündəliyin digər iki məsələsi - "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanunda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Bu layihələr barədə də parlamentin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı məlumat verərək bildirib ki, qanun layihələrinin komitədə ikinci oxunuşu keçirilib və yekdilliklə dəstəklənib. Qeyd edilib ki, hər iki qanun layihəsinə təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Daha sonra iclasda Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Prokurorluq haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsini birinci oxunuşda təqdim edib. Bildirilib ki, "Prokurorluq haqqında" qanunda prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluq orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsini nəzərdə tutan normaların daha çevik və dəqiq tətbiqini təmin etmək məqsədi ilə bir sıra dəyişikliklər təklif edilir. Belə ki, prokurorluq orqanları tərəfindən istintaq olunan cinayət işləri və cinayət təqibi ilə bağlı digər materiallar üzrə cinayət nəticəsində dövlətə vurulmuş ziyanın ödənilməsi üçün ibtidai araşdırma dövründə dövlət büdcəsinə köçürülmüş vəsaitin 5 faizinin, prokurorluq orqanları tərəfindən istintaq olunan cinayət işləri üzrə Cinayət Məcəlləsi ilə müəyyən edilmiş qaydada şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün dövlət büdcəsinə edilmiş ödənişdən daxil olan vəsaitin 5 faizinin və nəhayət, İnzibati Xətalar Məcəlləsi ilə müəyyən edilmiş qaydada prokuror tərəfindən baxılması üçün məhkəməyə göndərilmiş inzibati xətalara dair işlər üzrə tətbiq edilən cərimələrdən daxil olan vəsaitin 23 faizinin Azərbaycan Respublikası Prokurorluğunun xəzinə hesabına köçürülməsi nəzərdə tutulur.

Qanun layihəsi ilə bağlı deputatlar Razi Nurullayev və Erkin Qədirli öz fikirlərini səsləndiriblər. Əminə Ağazadə deputatların qaldırdığı məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

"Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında da məlumat verən deputat Əminə Ağazadə bildirib ki, təklif olunan dəyişikliklər prokurorluqda stajorluq və sınaq keçməyə dair yeni müddəaların əlavə edilməsi, prokurorluq işçisinə vaxtından əvvəl rütbə verilməsi ilə əlaqədardır və bu da prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi daşıyır.

Müzakirələrdə deputatlardan Qüdrət Həsənquliyev, Arzu Nağıyev öz rəy və təkliflərini bildiriblər, suallarını səsləndiriblər. Əminə Ağazadə verilən sualları ətraflı cavablandırıb. Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# İlham Əliyevin ədalət çağırışı

## Vaksinasiyaya nəzarət və inhisarçılıq savaşının real mənzərəsi: Böyük Britaniya öz əhalisinin 295, Avstraliya 269 faizi qədər, Kanada isə adambaşına 9 doz peyvənd əldə edib

*Əvvəli 1-ci səh.*

Vaksinlərin istehsalına başlanılması ilə gündəmə başqa bir problem çıxdı: onların inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətli şəkildə paylanılması.

"Nature" dərgisində yayımlanan araşdırma məqaləsində qeyd edilir ki, 4 şirkət 2021-ci ilin sonuna qədər dünya əhalisinin 30 faizini 2 doz vaksinlə təmin etmək imkanına malikdir. ABŞ-ın Duke Universitetinin Qlobal Sağlıq İnnovasiya Mərkəzinin araşdırmasına görə isə azgəlirli ölkələrdə yaşayanlar 2023-2024-cü ilə qədər 1 doz vaksin almaqda çətinlik çəkəcək və uzun müddət gözləməli olacaqlar.

### Vaksin istehsalçıları əsasən dünya əhalisinin 13 faizi üçün çalışacaq

"AstraZeneca", "Pfizer" və "Moderna"nın 2021-ci ilin sonuna qədər 2,6-3,1 milyard nəfərə yetəcək qədər vaksin istehsal edə biləcəyi, Rusiyanın "Gamaleya" şirkətinin 500 milyon insanı vaksinlə təmin etmək gücündə olduğu qeyd edilir.

Ancaq Avropa Birliyinin 27 və digər 5 zəngin ölkə istehsal potensialının böyük bir hissəsini nəzarətə almaqla bağlı şikrətlərlə müqavilələr imzalayıb. Bu ölkələr dünya əhalisinin 13 faizini təşkil edir.

Kanadanın əhalisinin sayı 40 milyon nəfər təşkil etsə də, bu ölkə 154 milyon insan üçün vaksin alıb. Bu isə o deməkdir ki, adambaşına 9 doz düşür. Böyük Britaniya öz əhalisinin 295, Avstraliya isə 269 faizi qədər vaksin əldə edib.

Yoxsul ölkələr isə ümidlərini Dünya Səhiyyə Təşkilatının rəhbərliyi ilə formalaşan COVAX proqramı çərçivəsində alınmalı vaksinlərə bağlayıb. COVAX proqramı çərçivəsində dünya əhalisinin 20 faizini vaksinlə təmin etmək planlaşdırılır. Bu proqram üçün tələb edilən vəsait 38 milyard dollar təşkil edir. Ancaq bu günə qədər zəngin ölkələr proqrama aktiv şəkildə qoşulmayıblar və tələb edilən vəsait tam şəkildə toplana bilməyib.

### İlham Əliyevin çağırışı çox önəmlidir

İnkişaf etmiş ölkələrin 2021-ci ilin birinci yarısında vaksinasiya prosesini başa çatdırması, yoxsul və inkişaf etməkdə olan ölkələrdə bu prosesin ilin sonuna və ya növbəti ilin ilk yarısına qədər davam edəcəyi təqdirdə dünya iqtisadiyyatına 3.8 trilyon dollar ziyan dəyəcək ki, bunun da 1.9 trilyon dolları inkişaf etmiş ölkələrin payına düşəcək.

Bunun da əsas səbəbi inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında istehsal zənciri boyunca və idxal, ixrac əməliyyatlarında ciddi bağların olmasıdır. Məsələn, bu gün Avropa İttifaqı ilə Türkiyə arasında ciddi iqtisadi əlaqələr mövcuddur. Türkiyənin ixracında Avropa İttifaqı bazarı əsas yeri tutmaqdadır, eyni zamanda ittifaq üçün də Türkiyə əsas bazarlardandır. Deməli, Avropa İttifaqının vaksinasiyanı başa çatdırması və normala dönməsi, Türkiyənin isə uzun müddət pandemik şəraitdə qalması Avropanın həm idxalına, həm də ixracına mənfi təsir göstərəcək.

Ona görə də prosesdən sinxron şəkildə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrin bir yerdə çıxması olduqca vacibdir. Digər bir məqam: prosesin uzun müddət uzanması inkişaf etmiş ölkələrin əsasən ağır sənaye, "İT" industriya və yüksək texnologiyalar sahəsinə mənfi təsir göstərəcəksə, inkişaf etməkdə olan ölkələrdə ən çox ziyanı xidmət sektoru çəkəcək.

Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin vaksinasiya prosesində ədalətli yanaşma çağırışı sadəcə insan haqları deyil, eyni zamanda qlobal iqtisadi münasibətlərin normallaşması baxımından da önəmlidir.

***Aqil MƏMMƏDOV, politoloq***

## Hərbi Qənimətlər Parkının açılışı Ermənistanda zəlzələ effekti verdi:

# "İlham Əliyev Paşinyan və Sarkisyanın şərəfini, erməni generallarının paqonlarını tapdaladı"

*Əvvəli 1-ci səh.*

### Ermənistan hakimiyyətinə vurulmuş tərs sillə

Baş verənlər sosial şəbəkələrin ermənidilli seqmentində də geniş müzakirə edilir. "Facebook" istifadəçisi Ruben Ovanisyan qeyd edir ki, İkinci Qarabağ müharibəsi Ermənistan və onun ordusunun acı məğlubiyyəti ilə nəticələndi, Azərbaycan uzun illər çəkən bu siyasi-hərbi mübarizədən qalib çıxdı: "Bakı uğurlu əməliyyatları ilə status-kvonu dəyişdirdi, təmas xəttini darmadağın etdi. İndi də bunu Hərbi Qənimətlər Parkını yaratmaqla bütün dünyaya göstərir. Bəs erməni tərəfinin, ölkə hakimiyyətinin buna hansısa cavabı varmı? Təəssüf ki, yox".

Profilinə nəzər yetirdikdə araşdırmaçı jurnalist olduğu qeyd edilən Alina Osipyan adlı "Instagram" istifadəçisi isə belə qeyd edir: "Ermənistan üçün kədərli, üzüntülü gündür. Ölkənin keçmiş müdafiə naziri Davit Tonoyan Nyu Yorkdakı erməni icması ilə görüşündə bildirirdi ki, Qarabağ məsələsində "sülh üçün ərazilər" yanaşması tətbiq olunmayacaq. O, yeni ərazilər üçün yeni müharibədən bəhs edirdi. Bəs nə oldu? 44 gündə Ermənistan ordusu azərbaycanlılar tərəfindən dağıdıldı. Bunun nümayişi üçün azərbaycanlılar Bakıda Hərbi Qənimətlər Parkı açıblar. İlham Əliyevin o parkın açılışında dedikləri bir daha Ermənistan hakimiyyətinə vurulmuş tərs sillədir".

### "Bakının mərkəzindəki park Ermənistanın əzilməsi deməkdir"

Melik Qasparyan adlı "Facebook" istifadəçisi İlham Əliyevin Hərbi Qənimətlər Parkının açılışında hərbçilərlə görüşü zamanı səsləndirdiyi fikirlərin yer aldığı xəbərə münasibət bildirib. Profilinə baxdıqda mühəndis olduğu nəzərə çarpan istifadəçi rəyində yazır: "Həmin kadrları izləməkdənsə ölüb yerə girsəm daha yaxşı idi. Məhv edilmiş hərbi texnikalarımız, ölmüş hərbçilərin boş qalan dəbilqələri... Paşinyan isə hələ də Azərbaycana tutarlı cavab verə bilmir və yəqin ki, verə də bilməyəcək. Paşinyan İlham Əliyevə bu dəfə daha böyük hesabla uduzdu".

Karine Melikomyan adlı "Odnoklassniki" istifadəçisi də səhifəsində maraqlı paylaşım edib.



İlham Əliyevin "Qarabağ Azərbaycandır!" lövhəsinin qarşısındakı şəklini paylaşaraq yazır ki, məğlubiyyət həqiqətən insana acı verir: "Ermənistanı İlham Əliyev qarşısında niyə məğlub duruma salırsınız? Bakının mərkəzində salınan park faktiki olaraq Ermənistanın əzilməsi deməkdir. Amma biz buna cavab verə bilmirik. Paşinyan hökuməti bunlara qarşı hansısa əks həmlə edə bilmir".

### "Əliyev Paşinyanı, Sarkisyanı və Koçaryanı yenə rüsvay etdi"

"Instagram" sosial şəbəkəsində Hərbi Qənimətlər Parkının açılışı ilə bağlı xəbərə münasibət bildirən, profilinə baxdıqda idmançı olduğu nəzərə çarpan Mamvel Minosyan yazır ki, kaş o xəbəri görməz olaydı: "Dostlar, bir-birimizi aldatmayaq. Yalan danışmayaq. Əlim gəlmir yazmağa, amma həqiqət bir idi. Əliyev Paşinyanı, Sarkisyanı və Koçaryanı yenə dünya qarşısında rüsvay etdi. Erməni generallarının maketləri, həlak olan hərbçilərimizin dəbilqələrinin nümayişi millət olaraq bizi sındırdı. İdmançı kimi bundan sonra yarışlarda hansı üzlə iştirak edəcəyəm?"

Arut Xaçatryan adlı istifadəçi "Twitter"də belə bir paylaşım edib: "Biz hələ də anlaya bilmirik ki, İlham Əliyevin fəaliyyətindən niyə Paşinyan nəticələr çıxara bilmir? Azərbaycan torpaqları geri qaytarır, ələ keçirdiyi qənimətlərdən park yaradır, generallarımızın maketini düzəldib bizi alçaldır, bizdə isə geri dönən yalnız əsgərlərimizin cənazəsidir".

Civan Qriqoryan adlı sosial şəbəkə istifadəçisi isə "Facebook"da Hərbi Qənimətlər Parkının açılışına maraqlı bir statusla şərh verib: "Dostlar, gəlin gördüklərimizi açıq şəkildə etiraf etməkdən çəkinməyək. Parkda nümayiş etdirilən Ermənistan hərbçilərinin maketləri bir çoxumuzu daha çox məyus etdi. Ora gələn hər bir türk (red. - azərbaycanlı) maketlərin üzünə tüpürüb, burunlarını qopartmaq istəyəcək. İlham Əliyev Paşinyan və Sarkisyanın şərəfini, erməni generallarının paqonlarını tapdaladı. Məğlub olmağımızın hesabını Paşinyan verməlidir. Sosial şəbəkə hesabımı bir müddət dondururam".

### "Utandığımdan az qaldı yerə girəm"

Artur Vardasyan adlı müharibə iştirakçısı da "Twitter"də çox maraqlı bir statusu ilə diqqət çəkib: "Diplomatik sferada, müharibədə İlham Əliyevə uduzursan, heç nə demirik. Lakin Azərbaycanın yaratdığı parkda nümayiş etdirilən texnikalarımız, hərbçilərimizin dəbilqələri bir müharibə veteranı olaraq bizləri ciddi narahat edir, Nikol. Uşaqlarımıza nə cavab verəcəyik?"

Arutyun Dallakyan adlı istifadəçi də İlham Əliyevin Hərbi Qənimətlər Parkındakı çıxışını "Instagram" sosial şəbəkəsində çox məyusluqla qiymətləndirib: "Ermənistan adına tarixin ən bərbad günlərindən birini yaşadıq. Aprelin 12-də İlham Əliyevin hərbi qənimət kimi ələ keçirilən texnikalarımıza baxış keçirərkən maketdən düzəldilən erməni generallarını görüb utandığımdan az qaldı yerə girəm".

Nikol Paşinyanın "Facebook"da paylaşımına Arman Baqdasaryanın rəyi çoxlu bəyənmə toplayıb: "Baş nazir, işiniz-gücünüz sosial şəbəkələrdə paylaşımlar etməkdir. İlham Əliyev səni alçaldaraq ələ keçirdiyi qənimətlərdən park yaradır, sən isə boş vədlərlə xalqı aldadırsan. Vaxtında sizə çox dedik bizə müharibə lazım deyil, uşaqlarımızı çöldən tapmamışıq. Nəticə isə budur: ölmüş uşaqlarımızın dəbilqələri Bakıda nümayiş etdirilir".

Ermənistanda aparılan bu müzakirələr bir daha təsdiq edir ki, Hərbi Qənimətlər Parkı Azərbaycanın Qələbəsinin, düşmənin isə məğlubiyyətinin nümayişidir. Ermənilərin, onların havadarlarının uzun illər ərzində qurduqları işğalçılıq strategiyasının iflasının ən real təsdiqi hesab edilən bu park Azərbaycan xalqının qalibiyyətinin rəmzlərindən biri olaraq tarixdə öz yerini tutacaq. Bu park Azərbaycanın gücünün, qüdrətinin göstəricisi və Ermənistanın məğlubiyyətinin bütün dünyaya nümayiş etdirildiyi əsas məkanlardan biri kimi məşhurlaşacaq.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

*Əvvəli 1-ci səh.*

# Qələbənin və qəhrəmanlığın rəmzi

## İlham Əliyevin təşəbbüsü ilə salınan Hərbi Qənimətlər Parkı Azərbaycanın parlaq Zəfərini və Ordumuzun rəşadətini nümayiş etdirir

### Qalibiyyətimizin əbədiləşdirilməsinə xidmət edən ilk layihə

Vətən müharibəsindəki Qələbə tariximizin şanlı səhifəsidir. Bu Zəfər Azərbaycan oğullarının qanla yazdıqları qəhrəmanlıq salnaməsidir. Torpaqlarımızın işğaldan azad olunması Ümummilli Lider Heydər Əliyevlə başlanan, Prezident İlham Əliyevlə davam edən inkişaf və yüksəliş siyasətinin parlaq məntiqi nəticəsidir. Bu Qələbə Azərbaycanı dünyaya tanıtdı, vətənimizi başıuca etdi. Bütün dünya xalqımızın iradəsinə, mətinliyinə şahidlik etdi, ölkəmizi daha yaxından tanıdı. Ən əsası isə bu Qələbə hər bir azərbaycanlının milli şüuruna hopdu və bu gün hər birimiz haqlı olaraq qalib gəlmiş xalqın nümayəndəsi olmağımızla qürur duyuruq.

Bu qalibiyyət həm də gələcəyimizə işıq salan mayakdır. Ona görə bu gün qarşıda duran əsas vəzifələrdən biri Vətən müharibəsindəki qələbənin əbədiləşdirilməsidir. Əlbəttə, bu Qələbə yazıçılar, şairlər üçün ilham mənbəyi olacaq, ona həsr olunan filmlər çəkiləcək, müxtəlif yaradıcılıq nümunələri təqdim olunacaq. Bütün bunlar İkinci Qarabağ müharibəsində Zəfəri, Azərbaycan xalqının qəhrəmanlığını dünyaya təbliğ edəcək.

Qarabağ savaşındakı tarixi Qələbənin əbədiləşdirilməsinə xidmət edən ilk böyük layihə isə Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşdı. Bu, Bakıda salınan Hərbi Qənimətlər Parkıdır. Aprelin 12-də dövlət başçısının açılışını etdiyi parkın kompozisiyasına daxil olan hər bir nümunə Azərbaycan Ordusunun, əsgərlərinin qəhrəmanlığını və rəşadətini tərənnüm edir. *"Orada düşmənin nümayiş etdirilən dağıdılmış və qənimət kimi götürülmüş texnikası bir daha bizim gücümüzü göstərir, bir daha düşmənin məğlubiyyətini göstərir. Burada nümayiş etdirilən texnika məhv edilmiş və qənimət götürülmüş düşmən texnikasının kiçik bir hissəsini təşkil edir. 125 artilleriya topu, 366 tank, 7 "S-300" zenit-raket kompleksi, 50-dən çox digər zenit-raket kompleksləri, 522 yük avtomaşını və digər texnikalar məhv edilmişdir və qənimət kimi götürülmüşdür"*, - deyə Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının açılışında deyib.







### Düşmənin gücləndirilmiş müdafiə mövqeləri bir həmlədə ələ keçirildi

Ermənistanın hərbi təxribatlarından sonra əks-hücuma keçən Azərbaycan Silahlı Qüvvələrinin bölmələri ilk olaraq düşmənin illərdir yaratdığı bir neçə mərhələdən ibarət istehkamları, müdafiə mövqelərini keçməli olmuşdular. Minalanmış sahələr, toxunarkən səs salan tikanlı məftillər, zirehli texnikanın hərəkətinin qarşısını alan dəmir konstruksiyalar və materiallar, dərin xəndəklər, betonlaşdırılmış istehkamlar, bombalardan qorunmaq üçün bunkerlər və onların arasındakı tunellər... Bütün bunlar işğalçıların Azərbaycan Ordusu ilə təmas xəttində yaratdıqları müdafiə mövqeyinin ayrı-ayrı elementləridir. Bu cür gücləndirilmiş müdafiə xəttinin yaradılması ilk növbədə onu göstərirdi ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını heç vaxt sülh yolu ilə azad etmək fikrində olmayıb. Bununla yanaşı, günlərin birində ordumuzun hücum edəcəyini də təxmin edirmişlər.

İşğalçı qoşunların mövqe tutduqları strateji yüksəkliklər də təbii istehkam rolunu oynayırdı. Bu mənada sentyabrın 27-də əks-hücuma başlayan Azərbaycan Ordusunun bölmələri çətin bir şəraitdə döyüşə atılmalı olmuşdular. Buna baxmayaraq ordumuz elə ilk həmlədə cəbhə xəttini yarmış, düşməni məhv etmiş və qovmuşdu. Döyüşlərdə iştirak etməyənlər həmin cəbhə xəttini görməsələr də, Hərbi Qənimətlər Parkı bu barədə dolğun təəssürat formalaşdırır. Belə ki, burada düşmən tərəfindən möhkəmləndirilmiş müdafiə mövqeyini özündə ehtiva edən mühəndis-maneələr sistemi yaradılıb. Tank əleyhinə xəndək, mina sahəsi, ağır texnikanın hərəkətinin qarşısını almaq üçün beton dirəklər və metal kirpilər, alçaq dirəklər üzərində tikanlı məftildən tor, hündür dirəklərdə məftilli tor, piyada əleyhinə mina sahəsi, az nəzərə çarpan və üççərgəli lent tipli məftil maneələri, həmçinin səngər üzərində lent tipli məftil maneələr nümayiş olunur. Bu maneələr sistemini cəbhənin Füzuli, Cəbrayıl, Ağdam, Tərtər və Goranboy istiqamətlərində Azərbaycan Ordusu bölmələri qəhrəmancasına dəf etmişdilər.

Hərbi Qənimətlər Parkında yaradılan düşmənin şəxsi heyətinin artilleriya və hava hücumundan qorunması üçün zavod üsulu ilə hazırlanmış sığınacaqları, döyüş mövqeyində atıcı, pulemyotçu, qumbaraatan səngərləri, uzunmüddətli atəş nöqtələri işğalçı ordunun məhv edilmiş mövqelərinin görüntüləridir. Nə qədər möhkəmləndirsələr də, nə qədər güclü təchiz etsələr də, düşmənin döyüş postları ordumuzun qarşısında duruş gətirə bilmədi. Bu park Azərbaycan Ordusunun döyüş əzminin, qəhrəmanlığının təcəssümüdür. Prezident İlham Əliyevin dediyi kimi: *"Hərbi Qənimətlər Parkına gələn hər bir insan Ordumuzun, Silahlı Qüvvələrimizin gücünü görəcək, iradəmizi görəcək. Görəcək ki, bu Qələbəni əldə etmək nə qədər çətin idi. Çünki düşmən 30 il ərzində işğal edilmiş torpaqlarda möhkəmlənirdi, istehkamlar qururdu, səngərlər, sığınacaqlar qazırdı. Bütün bunlara baxmayaraq, Azərbaycan hərbçiləri qəhrəmanlıq, peşəkarlıq, Vətən sevgisi göstərərək, bütün bu maneələri dəf edərək düşməni məğlub etdilər"*.

### Erməni tankları Bakıya qənimət kimi gəldilər

Xatırladaq ki, hələ müharibədən əvvəl Ermənistanın hərbi siyasi dairələri Azərbaycana qarşı təhdidlərlə çıxış edirdilər. Paşinyanın "Qarabağ Ermənistandır" bəyanatı, Azərbaycanın qarşısında qoyulan 7 şərt, "Yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi düşmənin işğal siyasətindən xəbər verən addımlar idi. Bunun ardınca isə düşmən özündən razı halda bildirirdi ki, müharibə başlasa erməni tankları Bakıya kimi gələcəklər. Bəli, erməni tankları Bakıya gəldilər. Lakin məğlub olaraq, Azərbaycan Ordusunun qəniməti kimi. Ötən ilin dekabrında Zəfər paradında ictimaiyyətə təqdim olunan həmin tanklar indi Hərbi Qənimətlər Parkından Ermənistanın hərbi məğlubiyyətini bütün dünyaya nümayiş etdirir.

*"İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Xalqımız bu müharibə ilə bağlı əbədi qürur hissi keçirəcək. Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq"*. Hərbi Qənimətlər Parkı Prezident İlham Əliyevin bu sözlərinin ifadəsidir. Bu park müharibənin bütün mənzərəsini kompleks şəkildə tamamlayır.

*Buranı ziyarət edən hər kəs Azərbaycanın qələbəsinə, bu qələbəyə gedən yolda ordumuzun rəşadətinə şahidlik edəcək. Eyni zamanda bu park erməni işğalçılarının insanlıq əleyhinə törətdikləri cinayətləri faktlarla dünyaya çatdırır. Azərbaycana gələn bütün xarici qonaqlar bu parkı ziyarət edəcəklər və bu, onların Ermənistanın işğal siyasəti ilə bağlı bilgilərini artıracaq, ölkəmizin qələbəsi barədə daha ətraflı məlumatlar əldə etmələrinə imkan yaradacaq.*

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Rumıniyanın Azərbaycandakı səfirinin diplomatik fəaliyyəti başa çatır

Aprelin 13-də xarici işlər naziri Ceyhun Bayramov Rumıniyanın Azərbaycandakı səfiri Dan Yancu ilə diplomatik fəaliyyətinin başa çatması münasibətilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Rumıniya arasında strateji tərəfdaşlığa əsaslanan ikitərəfli siyasi əlaqələrin yüksək inkişaf səviyyəsindən razılıq ifadə olunub.

Tərəflər iqtisadiyyatın müxtəlif sahələri üzrə, o cümlədən enerji və nəqliyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib. Pandemiya ilə bağlı məhdudiyyətlər aradan qalxdıqdan sonra hərtərəfli əməkdaşlığın uğurla davam etdiriləcəyindən əminlik bildirilib.

Nazir C.Bayramov Azərbaycan ilə strateji tərəfdaşlıq sazişi imzalayan ilk Avropa ölkəsi kimi Rumıniya ilə əlaqələrin inkişafının ölkəmiz üçün prioritet təşkil edən məsələlərdən biri olduğunu vurğulayıb.

Səfir Dan Yancu diplomatik fəaliyyətinin uğurla həyata keçirilməsi üçün ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib. Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə ölkəmizdə baş verən bir sıra tarixi hadisələri xatırlayan səfir hazırda Azərbaycan üçün yeni tarixi dönəmin başlandığını və bu xüsusda bütün bölgə üçün yeni imkanların açıldığını qeyd edib.

Nazir həyata keçirdiyi uğurlu fəaliyyətə görə səfirə minnətdarlığını ifadə edib və ona gələcək diplomatik fəaliyyətində uğurlar arzulayıb.

# *Metyu BRAYZA:* "Azərbaycanın Qarabağda apardığı müharibə ümumilikdə hərbi əməliyyatların mahiyyətini dəyişdirib"

*"Bu muzey mənə Azərbaycanın apardığı hərbi əməliyyatların necə diqqətçəkən olduğunu xatırladır. Buradan görünür ki, Azərbaycan hərbi əməliyyatları necə qətiyyətlə, sürətlə və minimum itkilərlə həyata keçirib".*

AZƏRTAC xəbər verir ki, bu sözləri ABŞ-ın Azərbaycandakı sabiq səfiri, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri, beynəlxalq ekspert Metyu Brayza aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı jurnalistlərə açıqlamasında deyib.

M.Brayza qeyd edib ki, Azərbaycanın apardığı müharibə ümumilikdə hərbi əməliyyatların bütün mahiyyətini dəyişdirib.



ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda Prezident İlham Əliyevlə görüş barədə fikirlərini bölüşən xarici ekspert bildirib: "Azərbaycan Prezidenti İlham Əliyevlə bugünkü görüşümüz çox səmərəli oldu. Tədbirdə bir çox mövzu, həmçinin bölgədə bundan sonrakı vəziyyət barədə fikirlər səsləndirildi. Düşünürəm ki, belə görüşlərin çox böyük önəmi var".

ATƏT-in Minsk qrupu barədə danışan M.Brayza deyib: "ATƏT-in Minsk qrupunun missiyası olmalıdır. Bu gün Prezident Əliyev də təklif etdi ki, Minsk qrupu nə edə biləcəyi ilə bağlı təkliflər verməlidir. Onlar müharibədən sonrakı mərhələyə necə kömək edə bilərlər? Azərbaycanın perspektivindən baxdıqda ATƏT-in Minsk qrupu münaqişənin həlli yolunu tapmaq üçün formalaşmışdı, artıq münaqişə həll olunub. Belə olan halda Minsk qrupu nəsə başqa bir iş görməlidir. Minsk qrupunun görə biləcəyi çox iş var. Məsələn, Ermənistanla Azərbaycan arasında sərhədlərin demarkasiyası, noyabrın 9-da imzalanan üçtərəfli Bəyanatın bəndlərinin həyata keçirilməsi və Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, bəlkə də gələcəkdə sülhlə bağlı danışıqlara yardım etmək məsələləri. Ümumilikdə Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasından söhbət gedir. Minsk qrupu bu istiqamətlərdə işləyə bilər".

# *Xalid Taimur AKRAM:* "Pakistan xalqı, xüsusilə gənclər Azərbaycan Prezidentinə böyük rəğbət bəsləyirlər"

*"Biz bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdən çox razı qaldıq. İnanırıq ki, tezliklə Azərbaycan Qarabağın da inkişafına nail olacaq. Biz qaçqınların tezliklə öz yurdlarına, Şuşaya qayıdacağı günü səbirsizliklə gözləyirik. Prezident İlham Əliyevin bu istiqamətdə atdığı addımlar təqdirəlayiqdir".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin (CGSS) icraçı direktoru Xalid Taimur Akram deyib.



"Pakistan xalqı, xüsusilə gənclər Azərbaycan Prezidenti İlham Əliyevi çox sevir və ona böyük rəğbət bəsləyirlər. Pakistan xalqı qardaş kimi sevdiyi Azərbaycan xalqını daim dəstəkləyib. Qarabağ münaqişəsi başlanan andan Azərbaycanın Qələbəsini gözləyən pakistanlılar hazırda ölkənizin bu xoş günlərinə çox sevinir. Bu parkda gördüklərim mənə qürur hissi yaşatdı. Bu muzey növbəti nəsillər üçün Azərbaycan əsgərinin mübarizliyinin bariz nümunəsidir", - deyə pakistanlı ekspert bildirib.

# *Frappi KARLO:* "Azərbaycan doğru addımlar atır və çox düzgün mesajlar verir"



*Azərbaycan doğru addımlar atır və çox düzgün mesajlar verir. Azərbaycanın bundan sonra da müsbət mesajlar ünvanlaması çox vacibdir. Hər iki ölkə eyni regionda yaşayır və burada davamlı sülhün bərqərar olması təkcə sizlər üçün deyil, bizim üçün də - avropalılar üçün də çox vacibdir. Düşünürəm ki, Azərbaycanın son həftələrdə atdığı addımlar və göndərdiyi müsbət mesaj budur - "Biz bir yerdə yaşaya bilərik və biz bir yerdə yaşamalıyıq".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı İtaliyanın Ca 'Foscari Universitetinin professoru Frappi Karlo deyib.

O qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevlə bugünkü görüş bir tədqiqatçı olaraq onun üçün çox önəmlidir. Bu, birtərəfli deyil, çox interaktiv, sual-cavab və müzakirə formatında keçirilən bir görüş oldu. Prezident İlham Əliyev beynəlxalq konfrans zamanı Ermənistan ilə Azərbaycan arasındakı münaqişə, hazırkı vəziyyət, ümumiyyətlə, Cənubi Qafqazda sülhün bərqərar olunması ilə bağlı fikirlərini bölüşdü. Prezident İlham Əliyev 15 ölkəni təmsil edən müxtəlif beyin mərkəzləri və politoloqların suallarını cavablandırdı. Sözsüz ki, bu, çox əhəmiyyətlidir. Fikir mübadiləsi zamanı Azərbaycan Prezidentinin verdiyi məlumatlar iştirakçılar tərəfindən nəzərə alındı və onların hər biri işlədiyi beyin mərkəzləri çərçivəsində bu məlumatları öz ölkələrinin ictimaiyyətinə çatdıracaqlar.

"Hazırda biz tarixi baxımdan çox önəmli bir zamandayıq. Müharibə artıq geridə qalıb, təkcə Azərbaycanın deyil, həmçinin regionun gələcəyi qarşıdadır. Bu baxımdan biz birgə səylər və ümumi fikirlər sayəsində gələcəyə birgə addımlamalıyıq. Bu, hər iki ölkə və region üçün çox vacibdir", - deyə Frappi Karlo bildirib.

# *Çağrı ERHAN:* "Hazırda Ermənistan Türkiyə və Azərbaycan fobiyası ilə yaşayır"



*"Bu gün Azərbaycan Prezidenti İlham Əliyev təxminən 3 saat ərzində müxtəlif ölkələrdən olan elm adamları, jurnalistlərlə fikir mübadiləsi apardı, onların Qarabağa dair suallarını cavablandırdı. Görüş zamanı gələcəkdə Qarabağda hansı infrastruktur işlərinin görüləcəyi barədə də məlumat verdi. Burada qaçqınların geri qayıtmaları ilə bağlı məsələlər barədə də müzakirələr aparıldı".*

AZƏRTAC xəbər verir ki, bu fikirləri aprelin 13-də Bakıda Hərbi Qənimətlər Parkı ilə tanışlıq zamanı Türkiyə Altınbaş Universitetinin rektoru Çağrı Erhan deyib.

Rektor qeyd edib ki, hazırda Qarabağın demək olar hər tərəfi minalanıb. Ermənilər gedərkən həm hər tərəfi yandırıb, dağıdıb, həm də ərazini minalayıblar. Bütün bu minalar təmizlənəcək. Həmçinin Prezident İlham Əliyev bir müjdəli xəbər də verdi ki, əgər qarşıdakı dövrdə Ermənistan Qarabağın Azərbaycana aid olduğunu qəbul edərsə, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədlərini qəbul edərsə, Türkiyə də, Azərbaycan da rəsmi İrəvanla regional əməkdaşlığa başlaya bilər. Ancaq hazırda Ermənistan Türkiyə və Azərbaycan fobiyası ilə yaşayır, qorxusunun əsiri olub.

"Azərbaycanın çox qısa zamanda - 44 gün ərzində qazandığı Zəfərdə əldə etdiyi qənimətləri bu parkda görürük. Ermənilərin uzun illər boyu həyata keçirdikləri təxribatların nəticələri Ağdamda, Füzulidə və işğaldan azad olunmuş digər torpaqlarda sərgilənir. Burada isə müharibədə Azərbaycan Ordusunun ələ keçirdiyi döyüş qənimətləri var. Bu qənimətlər 100 illər boyunca burada qalacaq və Azərbaycana gələn hər kəs bir vaxtlar ermənilərin Azərbaycan torpaqlarını necə barbarcasına dağıtdıqlarını, Azərbaycan Ordusunun, xalqının qanı, canı bahasına o əraziləri necə azad etdiyini görəcək", - deyə Çağrı Erhan bildirib.

◆ Jurnalist araşdırması

# İcbari tibbi sığorta kağız üzərində qalacaq, yoxsa?..

## Milyonlarla insanın illərdir gözlədiyi proses hələ ki, tam işlək deyil

Təqaüdçü Mehparə Əlixanlı aprelin 1-dən tətbiq edilən icbari tibbi sığorta sistemindən faydalanmaq arzusundadır, lakin ondan necə istifadə edəcəyini bilmir, milyonlarla digər həmvətəni kimi…



### 2550 sayda tibbi xidmətdən ödənişsiz yararlanma fürsəti

Xroniki xəstəliyi üzündən həkimə teztez müraciət etmək məcburiyyətində qalan Sumqayıt şəhər sakini M.Əlixanlının dediyinə görə, icbari tibbi sığorta xidmətlərindən istifadənin pulsuz olduğunu eşidib. Lakin aldığı məlumatlar səthi olduğundan bundan yararlanmaq üçün haraya və necə üz tutacağını bilmir.

Əslində Mehparə xanım kimi icbari tibbi sığortadan istifadə qaydalarını dəqiq bilməyən çox sayda insan var. Şübhəsiz ki, sistemin ölkə üzrə tətbiqinə yeni başlanıldığından ilkin mərhələdə əhali arasında belə məlumatsızlıqların olacağı gözlənilən idi.

"İcbari tibbi sığorta sistemindən kimlər, nə zaman və necə istifadə edə bilər?" kimi suallar bu gün sistemin iştirakçısı olmaq istəyən milyonlarla insanı maraqlandırır.

Qeyd edək ki, aprelin 1-dən ölkə əhalisinin çoxunun cəmləşdiyi Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunda rəsmi qeydiyyatda olan əhali üçün icbari tibbi sığorta sisteminin tətbiqinə başlanılıb. Bu ərazilərdə sistemin tətbiqi ilə bütün ölkə əhalisinin icbari tibbi sığortadan istifadəsi təmin edilib.

Vətəndaşlar sığorta hesabına yalnız Nazirlər Kabinetinin təsdiqlədiyi "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə daxil olan və ən çox ehtiyac duyulan 2550 sayda tibbi xidmətdən ödənişsiz yararlana bilərlər.

### Ailə həkimini bəyənmirsən? Dəyişdir!

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) departament rəhbəri Aynurə Əhmədova deyir ki, vətəndaşlar "Xidmətlər Zərfi"ndən yararlanmaq üçün ilk növbədə poliklinikaya, Ailə Sağlamlıq Mərkəzinə və ya həkim kənd məntəqəsinə (təcili və təxirəsalınmaz tibbi yardıma müraciət istisnalıq təşkil edir), başqa sözlə, ailə həkiminə müraciət etməlidirlər.

Şəxs dövlət tibb müəssisəsində təhkim olunduğu ailə həkimini "Sığortaolunanların ilkin səhiyyə xidməti üzrə dövlət tibb müəssisəsinə təhkimolunma Qaydası"na uyğun olaraq seçməlidir: "Hər bir şəxs ərazi üzrə xidmət göstərən ailə həkimini poliklinikaya şəxsiyyət vəsiqəsi və ərizə forması ilə müraciət edərək özü seçməlidir. Kimsə ərizə forması ilə müraciət etmədikdə onun ailə həkimi elektron sistem tərəfindən avtomatik təyin edilir. Amma xəstəxanaya gəldikdə sistemin seçdiyi ailə həkimini bəyənməzsə, ərizə yazaraq onu digəri ilə əvəzləyə bilər. Ailə həkiminin dəyişdirilməsi prosesi çox qısa zaman ərzində həyata keçirilir. Bu seçimdən sonra vətəndaşa yalnız onun yeni seçdiyi ailə həkimi tibbi xidmət göstərir".

### Birbaşa ixtisaslı həkimlərə müraciət hələlik pulsuzdur

A.Əhmədova qeyd edir ki, vətəndaşı müayinə və ya müalicə edən ailə həkimi pasiyentin ixtisaslı tibbi yardıma ehtiyacının olduğunu müəyyən edərsə, ixtisaslı həkimə, məsələn, kardioloqa, endokrinoloqa və s. müraciət üçün göndəriş verir.

Lakin hazırkı pandemiya şəraiti ilə əlaqədar olaraq, vətəndaş ailə həkiminə müraciət etmədən özü ixtisas həkiminə birbaşa müraciət edə bilər. Bu halda vətəndaş ailə həkiminə müraciət etmədiyi üçün müştərək maliyyələşmə məbləği *(vətəndaşın ailə həkiminin göndərişi olmadan digər müəssisələrə müraciət etdiyi zaman ödədiyi vəsait),* yəni əlavə pul ödəməyəcək. Yalnız pandemiya dövrü üçün nəzərdə tutulan bu güzəşt ambulator xidmətə aid edilsə də, stasionar xidmətə şamil olunmur. Agentlik müştərək maliyyələşmə məbləğinin toplanılmasının 2022-ci il 1 yanvar tarixədək təxirə salınması ilə bağlı müvafiq dövlət qurumuna müraciət etdiyindən həmin tarixədək vətəndaşlardan birbaşa ixtisaslı həkimə müraciət etmələrinə görə əlavə pulun ödənilməsi tələb olunmayacaq.

A.Əhmədova bildirir ki, əgər vətəndaşa lazım olan tibbi xidmətin adı xidmətlər zərfində qeyd edilibsə, o, bu halda getdiyi müəssisədə göstərilən tibbi xidmətə görə ödəniş etməyəcək. İstifadə edilən xidmətin adı "Xidmətlər Zərfi"ndə olmadığı zaman isə vətəndaş ödəniş etməlidir.

Departament rəhbəri hesab edir ki, vətəndaşın istifadə etdiyi xidmətə görə pul ödəməsinə çox nadir hallarda ehtiyac yaranır. Çünki zəruri xidmətlərin əksəriyyəti - ilkin səhiyyə, təcili və təxirəsalınmaz tibbi yardım, ixtisaslaşdırılmış ambulator yardım xidmətləri, laboratoriya, fizioterapiya, invaziv radiologiya və stasionar tibbi xidmətlər sözügedən zərfə daxildir.

### "Chek up" müayinələri pullu, yoxsa pulsuz olacaq?

Yeri gəlmişkən bildirək ki, şəxs tibbi xidməti icbari tibbi sığorta hesabına almaq istəyirsə, ilkin mərhələdə yalnız Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan tibb müəssisələrinə müraciət etməlidir. "Xidmətlər Zərfi"ndə olan, lakin TƏBİB-in tabeliyindəki tibb müəssisələrində xidmətin göstərilməsi mümkün olmadıqda müqaviləli tibb müəssisələrində tibbi xidmət almaq üçün göndəriş almaq hüququna malikdir.

Vətəndaşın tibb müəssisəsinə müraciət edə bilməsi üçün xüsusi karta ehtiyac yoxdur. Yalnız şəxsiyyət vəsiqəsini təqdim etməklə şəxs göndəriş əsasında müraciət etdiyi tibb müəssisəsinin xidmətlərindən ödənişsiz yararlana bilər.

İcbari tibbi sığorta zərfində "chek up" müayinələr nəzərdə tutulmayıb. Şəxs yalnız səhhətində müəyyən problemlər hiss etdikdə ailə həkiminə müraciət edə bilər.

### "Göndəriş almadan birbaşa gələn xəstələrin sayı hələ də kifayət qədərdir"

Milli Məclisin Səhiyyə komitəsinin üzvü, icbari tibbi sığorta sisteminə cəlb edilən Sumqayıt Uşaq Xəstəxanasının baş həkimi Müşfiq Məmmədli düşünür ki, sığorta sisteminin tətbiqi xəstəxanalara müraciətlərin sayının artmasına səbəb olub.

Onun sözlərinə görə, xəstəxanaya ailə həkimi tərəfindən göndəriş almadan, birbaşa gələn xəstələrin sayı hələ də çoxdur: "Hər bir valideynin övladlarını davamlı şəkildə müayinə etdirdiyi həkimləri var, valideyn məhz həmin həkimlərlə müəyyən əlaqələr qurur. Bu baxımdan ambulator müraciətlərin hələ birbaşa şəkildə olması təbiidir. Bundan başqa, Sumqayıt Şəhər Uşaq Xəstəxanası təcili tibbi yardım xidməti də göstərdiyinə görə təcili yardım xidməti ilə əlaqədar travmatoloji və cərrahi xəstələr tərəfindən birbaşa müraciətlər olunur. Təcili yardım sistemində fəaliyyət göstərən, xidmətləri digər xəstəxanalarda göstərilməyən tibb müəssisələrində belə hallar hələ bir xeyli müşahidə ediləcək. Bu, dünya təcrübəsində də belədir".

### Göndərişlərin gələcəyi - elektron sistem

M.Məmmədli deyir ki, icbari tibbi sığorta sistemində tibbi xidmətin optimallaşdırılması məqsədilə hər bir xəstəxanada ambulator poliklinik bölmə yaradılır. Xəstələrin poliklinik bölmələrə müraciətindən sonra ixtisas həkimlərinin baxışı həyata keçirilir. Bundan sonra xəstənin ya ambulator, ya da ehtiyac olarsa, stasionar müalicəsi aparılır.

Baş həkimin sözlərinə görə, xəstə müraciət etdiyi zaman müvafiq məlumatlar onlayn sistemə daxil edilir. Hazırda elektron sistemə məlumatlar kağız göndərişlər əsasında əlavə olunur. Lakin gələcəkdə ailə sağlamlıq mərkəzləri və digər müəssisələrdən daxil olan göndərişlər mərkəzi sistemin informasiya texnologiyaları bölməsində elektron formada görünəcək.

### Tibbi xidmətlərin keyfiyyətindən narazılıq və ya tibb personalı tərəfindən yol verilən hüquq pozuntuları olarsa, nə etməli?

A.Əhmədova icbari tibbi sığortann tətbiqi yeni olduğundan müəyyən texniki problemlərin yarandığını, lakin hazırda onların aradan qaldırılması istiqamətində tədbirlərin görüldüyünü söyləyir:

"Bəzi hallarda insanlar hansı tibb müəssisələrində "Xidmətlər Zərfi" çərçivəsində ödənişsiz tibbi xidmət ala biləcəkləri barədə məlumatsız olurlar. TƏBİB-in tabeliyində olmayan, təsərrüfat hesablı və ya özəl tibb müəssisələriınə müraciət edirlər. Bunun müqabilində onlardan ödəniş istəyəndə isə agentliyə müraciət edirlər".

A.Əhmədova nəzərə çatdırır ki, TƏBİB-in tabeliyindəki tibb müəssisələrinin siyahısı və "Xidmətlər Zərfi" agentliyin saytında yerləşdirilib. Əgər vətəndaş TƏBİB-in tabeliyindəki müəssisədə ona göstərilmiş tibbi xidmətlərin keyfiyyətindən narazıdırsa və ya tibb personalı tərəfindən ona qarşı hüquq pozuntusuna yol verilibsə, bununla əlaqədar ilk növbədə tibb müəssisəsinin məsul şəxslərinə, yaxud birbaşa rəhbərliyə müraciət etməlidir.

Vətəndaş ona verilmiş cavabdan və yaxud görülmüş tədbirdən razı qalmazsa, TƏBİB-in 012 310 17 70 nömrəsinə zəng edə, info@tabib.gov.az elektron poçt ünvanına və ya rəsmi ünvanına (Bakı AZ1154, İsmayıl Hidayətzadə küç. 11) müraciət edə bilər. Vətəndaşın icbari tibbi sığorta sistemi ilə bağlı sualları yaranarsa, agentliyin "1542" nömrəli Çağrı mərkəzinə, qurumun internet səhifəsində "Elektron müraciət" bölməsinə və ya rəsmi ünvanına (Bakı AZ1095, Lev Tolstoy küç.170) müraciət edə bilər.

Həkimlər tərəfindən dövlət və qeyridövlət xəstəxanalarına göndərişlərin verilməsi ilə bağlı müraciətlərə tibb müəssisələrinin rəhbərlikləri tərəfindən baxılır. Tibb müəssisəsinin rəhbərliyi tərəfindən müraciətlə bağlı verilən cavab qənaətbəxş olmazsa, vətəndaş agentliyə müraciət edə bilər.

### Sığorta haqqı ödəməyənlərin məsuliyyətə cəlbi gündəmdədir

Ölkənin bütün vətəndaşları üçün əlçatan olan "Xidmətlər Zərfi"ndən istifadəyə görə hər bir kəsin sığorta haqqı ödəmə məcburiyyətinin olub-olmamasına gəlincə, bunu demək olar ki, bu vəsait cari il yanvarın 1-dən işəgötürən və işçilər, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən toplanılır. Pensiyaçılar və işsiz vətəndaşlar 2024-cü ilə kimi "Xidmətlər Zərfi"ndən sığorta haqqı ödəmədən pulsuz istifadə edəcəklər, 2024-cü ildən isə sığorta haqları ödəməyə başlayacaqlar. Bu kateqoriyadan olanların zərfdən istifadəsi qanunvericiliklə nəzərdə tutulmuş qaydada tənzimlənəcək. Bununla bağlı icra mexanizmləri də hazırlanacaq.

*Qeyd edək ki, ölkədə icbari tibbi sığorta haqqını ödəməyənlərin məsuliyyətə cəlbi də gündəmə gətirilib. Cinayət Məcəlləsinə təklif edilən dəyişiklikdə sığorta haqlarını ödəməkdən yayınmaya görə cərimənin, islah işlərinin, hətta azadlıqdan məhrum etmə ilə cəzalandırılmanın tətbiqi öz əksini tapıb.*

***İlhamə İSABALAYEVA, "Azərbaycan"***



# “Ya peyvənd, ya da xəstəlik...”

## Vətəndaşlar artıq kütləvi şəkildə düzgün qərar verir

*Əvvəli 1-ci səh.*

Müşahidə edirik ki, peyvənd olunmaq üçün gələnlər arasında yaşlı qadın və kişilər çoxluq təşkil etsə də, daha gənc yaşlılar da həvəslə vaksinasiyaya üz tutublar. Birinci doza vaksin vurdurmaq üçün gələn 41 yaşlı Sevda xanım söyləyir ki, koronavirusun əsasən qocalar üçün qorxulu olduğunu zənn edirmiş, amma bu virusun yeni ştamlarının gəncləri, hətta uşaqları da hədələdiyini eşitdikdən sonra mütləq vaksin olunmaq qərarına gəlib: “Bir ildir ki, pandemiya qaydalarına ciddi riayət etməklə bu bəladan uzaq durmağı bacarmışam. Amma virus mutasiya edir və sürətlə yayılır. Mütəxəssislər də həyəcan təbili çalırlar ki, bu infeksiya artıq bütün yaş kateqoriyasından olan insanları hədəf alıb. Buna görə də yoluxmaqdan və xəstələnməkdən heç kəs özünü sığortalaya bilməz. Məncə qarşımızda iki seçim var: ya peyvənd, ya da xəstəlik. Çıxış yolu sadəcə vaksindir və mən də bu gün gəlmişəm ki, COVID-ə qarşı immunitet qazanmaq üçün peyvənd olunum”.

24 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında koronavirusa qarşı ilk peyvənd olunan baş həkimin müavini Xanlar Əlmuradov bildirir ki, bu müəssisədə 18 yanvardan fevralın 1-nə kimi tibb işçiləri vaksinasiyadan keçiblər. Fevralın 1-dən isə ilk olaraq yaşı 65-dən yuxarı olan əhali qrupu, daha sonrakı mərhələlərdə isə 50 və 40 yaşdan yuxarı şəxslərin vaksinasiyasına başlanılıb. İndiyə qədər təxminən 3000 nəfərdən artıq adam poliklinikada vaksinasiyadan keçib. Bu rəqəm həm birinci, həm də ikinci dozadan keçənləri əhatə edir.

### Heç bir narahatlıq müşahidə olunmayıb

X.Əlmuradov məlumat verir ki, Suraxanı rayonunda 84 nömrəli məktəbdə də müəllimlər üçün ayrıca tibb məntəqəsi yaradılıb və xəstəxanaları tərəfindən ayrılan həkimlərdən, tibb bacılarından, kompüter işçilərindən ibarət briqada gedib orada müəllimləri vaksinasiya edirlər.

Gələn həftədən isə peyvənd üçün müraciəti qeydə alınan evdən çıxa bilməyən xəstələrə, əlillərə, yataqda olanlara briqadalar peyvənd vuracaqlar: “İndiyə qədər bizim tərəfimizdən peyvənd vurulan heç bir şəxsdə hansısa problem yaranmayıb. Hətta eləələri olub ki, ürəyində problem olub, açıq ürək əməliyyatından keçib, ona da peyvənd vurulub, amma heç bir narahatlıq müşahidə olunmayıb. Düzdür, bəzi insanlar var ki, qızdırma, bir az baş ağrısı hiss ediblər, amma bu da normal haldır və olmalıdır. Onu da qeyd edim ki, bu hal təkcə koronavirusa aid vaksinlərə xas deyil, bütün peyvəndlər üçün keçərlidir. Vaksinin vurulduğu yer qızara, əzələ ağrısı müşahidə oluna bilər. Bu isə müvəqqəti olur və tez də ötüb keçir”.

Həkim onu da əlavə edir ki, ilk dövrlərdə əhali arasında bu peyvəndlə bağlı müəyyən tərəddüdlər var idi:











“Vaksinlə əlaqədar bizə xeyli suallar verirdilər. Onu vurdurub-vurdurmayacaqları barədə tərəddüddə olduqlarını söyləyirdilər. Hazırda isə demək olar ki, bu kimi hallar ortadan qalxıb. Hər kəs ürək rahatlığı ilə gəlib vaksinasiyadan keçir”.

Həkim müayinəsindən sonra vaksinasiyaya yollanan 70 yaşlı Səfayə Qarayeva ilə həmsöhbət oluruq. O deyir ki, ötən ayın 12-də vaksin olunub və indi ikinci doza üçün gəlib: “Birinci doza peyvənd vurulandan sonra heç bir narahatlıq hiss etmədim. Əslində peyvənddən sonra özümü daha rahat hiss etdim. Peyvənd olunduğum üçün artıq narahat deyiləm”.

Səfayə nənə vurğulayır ki, bu gün bura yoldaşını, oğlunu, qızını, kürəkənini də gətirib ki, mütləq COVID-ə qarşı peyvənd vurdursunlar: “Mən tək özüm vaksin olunaraq bu bəladan qoruna bilmərəm. Axı övladlarım, yaxınlarım da koronavirusa yoluxa bilər. Onu da bilirəm ki, bu zalım xəstəlik onları məndən ayıra da bilər... Bax ona görə də istəyirəm hamımız peyvənd olunaq, gözəgörünməz düşməndən birlikdə qurtulaq”.

Xəstəxanada stasionar şöbənin müdiri, terapevt Afaq Abbasova koronavirusun çox qorxulu bəla olduğunu vurğulayaraq məlumat verir ki, COVID-19-a yoluxan xəstənin temperaturu qalxır, onda ümumi halsızlıq, zəiflik müşahidə olunur. Yoluxmanın ilk mərhələsində təzyiqli xəstədirsə, təzyiqi, şəkərli xəstədirsə, şəkəri yüksəlir. Əgər virus ağciyərlərə daxil olursa, xəstədə təngnəfəslik, boğulma olur. Yüngül xəstələr sahə həkimlərinin nəzarəti altında evdə müalicə olunurlar. Əgər xəstənin vəziyyəti ağırlaşırsa, o, xəstəxanaya göndərilir”.

### “Əhalinin 60-70 faizi vaksin olunsa, biz bu bəladan qurtararıq”

Stasionar şöbənin müdiri qeyd edir ki, peyvənd üçün müraciət edən şəxs əvvəlcə operator otağında qeydiyyata alınaraq həkimə yönləndirilir. Burada onun anamnez məlumatları toplanılır: “Məsələn, hansısa xəstəliyi varmı, hazırkı vəziyyəti necədir, temperaturu, təzyiqi, şəkəri varmı? Düzdür, təzyiq və şəkər olduqda da peyvəndə göstərişdir, amma onun da həddi var. Yüksək təzyiq, şəkər zamanı peyvənd vurulsa müəyyən narahatlıq yaranar. Təzyiq yüksək olanda onu endiririk, şəkər yüksəkdirsə, o zaman endokrinoloqa yönləndiririk. Ondan sonra əgər şəxsin vəziyyəti bizi qane edirsə, vaksin üçün göstəriş veririk”.

Terapevt qeyd edir ki, vaksinasiya olunmuş şəxs yarım saat müşahidə otağında gözləyir və vəziyyətində heç bir dəyişiklik yoxdursa, vaksin vurulduğuna dair kart verilərək evə göndərilir. Birinci dozadan 28 gün keçəndən sonra isə yenidən gəlib ikinci dozanı vurdururlar: “Artıq ikinci dozadan iki həftə sonra vaksin vurulan şəxsdə virusa qarşı immunitet yaranır. Onu da deyim ki, vaksinasiya olunan şəxslər koronavirusa yoluxa bilərlər, amma onlar xəstəliyi yüngül keçirirlər. Bəzən heç vaksindən sonra şəxs özü hiss etməz ki, yoluxub. Amma o ətrafdakılar üçün daşıyıcı kimi qorxulu ola bilər. Ona görə də vaksin vurduran şəxslər də mütləq maskadan istifadə etməlidirlər”.

Mütəxəssis vurğuladı ki, hamı vaksinasiya olunmalıdır ki, kollektiv immunitet yaransın. Azərbaycanda 10 milyonluq əhalidən heç olmasa 60-70 faizi vaksin olunsa biz bu bəladan tezliklə qurtararıq.

### Peyvənddən sonra bunları etmək olmaz

Vaksinasiya otağında vaksin edən Aynurə Hacıyeva ilə söhbət edirik. O bildirir ki, hazırda Çinin “CoronaVac” peyvəndindən istifadə edirlər. Həmin peyvəndlər 2-8 dərəcə temperatur arasında soyuducularda saxlanılır və kifayət qədər vaksin ehtiyatları mövcuddur: “Hər gün saat 9-dan, 17-yə qədər iki növbədə vaksinasiya prosesini həyata keçiririk. Gün ərzində xeyli sayda insanı peyvənd edirik. Əsasən peyvəndi sol qolun delta əzələsinə vururuq. Olur ki, peyvənd vurduğumuz insanlarda qol ağrıyır, qan təzyiqi qalxır, bu isə gözlənilən təbii reaksiyalardır”.

A.Hacıyeva söyləyir ki, vaksin vurulan şəxslərə mütləq bu xəbərdarlıqları edirlər: “Onlara deyirik ki, üç gün ərzində çimməməlidirlər. Eyni zamanda spirtli içkilər qəbul etmək olmaz. Peyvənddən sonra baş ağrısı olanda isə “parasetamol” qəbul edə bilərlər”.

Birinci doza peyvənd olunduqdan sonra kompüter otağında qeydiyyatdan keçmək üçün növbəsini gözləyən 76 yaşlı Heydər Qarayevlə danışırıq. O deyir ki, hazırda heç bir narahatlığı yoxdur, hətta qoluna vurulan iynənin yerini də hiss etmir: “Yaşım kifayət qədər çoxdur. Onsuz da bu yaşda insanın canı zəif, yuxa olur. İsti havada belə nə qədər paltar geyinsək bədənimiz qızmır. Adi bir soyuqdəymədən bərk xəstələnirik. Gərək özümüzü qoruyaq. Koronavirus da bizim üçün lap qorxuludur. Ona görə də hamımız mütləq peyvənd olunmalıyıq”.

Onu da qeyd edək ki, şəxslərin peyvənd olunduqları barədə kompüter otağında qeydiyyat aparılır ki, bütün portallarda həmin şəxsin peyvənddən keçdiyi barədə məlumat görünsün.

Elm adamlarının yekdilliklə gəldiyi nəticə budur ki, 21-ci əsr insanının ən qorxulu bəlasına çevrilən koronavirusdan qurtulmağın yeganə yolu ona qarşı hazırlanmış vaksindir. Dövlət siyasətinin əsasını vətəndaşlarının təhlükəsizliyi, sağlamlığı və etibarlı müdafiəsi təşkil edən Azərbaycan da qorxulu virusu birdəfəlik məhv etmək üçün peyvəndləməyə ilk başlayan ölkələr sırasındadır. Hazırda bütün bölgələrimizdə bu proses sürətlə və uğurla davam etdirilir.

Bütün bunlar və ən əsası vətəndaşların həvəslə peyvəndləmədə iştirak etməsi ölkəmizdə tezliklə koronavirusun nəfəsinin kəsiləcəyinə olan ümidləri daha da artırır...

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# “YAŞAT” Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir




Daha 2 şəhidimizin yeni doğulan övladlarının, şəhidimiz Sübhan Məmmədlinin Bakı şəhərində doğulan övladı Sübhanənin, şəhidimiz Amin Rüstəmovun Gəncə şəhərində doğulan övladı Şöhrətin zəruri xərcləri fond tərəfindən qarşılanıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidlərimizə rəhmət etsin!

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 “Çağrı Mərkəzi” fəaliyyət göstərir.

# Azərbaycan Ordusunun sülhməramlı bölmələrində təlim məşqləri keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2021-ci ilin döyüş hazırlığı planına əsasən, sülhməramlı bölmələrdə təlim məşqləri keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəxsi heyətin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə keçirilən məşqlərdə hərbi qulluqçuların döyüş, mənəvi-psixoloji, fiziki, tibbi və xüsusi hazırlığı yoxlanılıb.

Qeyd edək ki, hazırda Azərbaycan Ordusunun sülhməramlıları Əfqanıstan və Cənubi Sudanda həyata keçirilən missiyalarda iştirak edirlər.




## Azərbaycan Respublikası Təhsil Nazirliyi 2021-2022-ci tədris ili üçün ümumi orta təhsil səviyyəsi (5-9-cu siniflər) üzrə kiçik ölçülü kağız dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair ***açıq tender elan edir***

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilər. Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Tenderdə iddiaçı kimi iştirak etmək istəyən malgöndərən (podratçı) 20 may 2021-ci il saat 17:00-dək Bakı şəhəri, Xətai prospekti, 49 ünvanına aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün ərizə (tenderin adı göstərilməklə) və tender üzrə 500 (beş yüz) manat məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
- *malgöndərənin (podratçının) tam adı və rekvizitləri, qeydiyyatdan keçdiyi ölkə və hüquqi statusunu təsdiq edən sənədlər;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) ixtisas uyğunluğu göstəriciləri ilə bağlı satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olmasını təsdiq edən sənəd kimi son 3 (üç) təqvim ilinin hər hansı birində azı 2900000 (iki milyon doqquz yüz min) kitab nüsxəsinin, o cümlədən Azərbaycan Respublikasında azı 290000 (iki yüz doxsan min) kitab nüsxəsinin sifariş əsasında istehsalı üzrə bağlanmış müqavilələrinin və həmin müqavilələr üzrə istehsal edilmiş kitab nüsxələrinin eyni təqvim ilində təhvilinə dair təsdiqedici sənədlərin (təhvil-təslim aktları, qaimələr) əsllərinin surətləri;*
- *tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında əmr və ya digər sənəd;*
- *tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
- *tender iştirakçısının öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə məlumat;*
- *tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
- *tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat.*

İddiaçı tender təklifini və təklifin dəyərinin 1 (bir) faizi həcmində olan bank təminatını “Dövlət satınalmaları haqqında” qanunun və Əsas şərtlər toplusunun tələblərinə uyğun hazırlayaraq 01 iyun 2021-ci il saat 17:00-dək Tender komissiyasına təqdim etməlidir. Tender təklifi açıldığı gündən sonra 60 (altmış) bank günü qüvvədə qalmalıdır. Tender təklifinin təminatı təklifin qüvvədə olma müddətindən 30 (otuz) bank günü çox olmalıdır. İddiaçılar tender üzrə yalnız bir təklif verə bilərlər. İddiaçıların tender təklifi, həmçinin tenderlə əlaqədar bütün yazışmalar və sənədlər Azərbaycan dilində tərtib edilməlidir.

Tender təklifləri 02 iyun 2021-ci il saat 17:00-da Bakı şəhəri, Xətai prospekti, 49, Təhsil Nazirliyinin iclas zalında açılacaqdır (İddiaçıların nümayəndələri tender iclasında iştirak edə bilərlər). Tender üzrə azı üç təklif təqdim olunduqda tender baş tutmuş hesab edilir. Üçdən az təklif daxil olan tender baş tutmamış elan edilir, həmin tenderin davamından imtina edilir.

Tenderin prosedur qaydaları, təkliflərin təqdim edilməsi və təkliflərin qiymətləndirilməsi və müqayisəsi Əsas şərtlər toplusunda öz əksini tapır. İddiaçı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunu, Əsas şərtlər toplusunun məzmunu, o cümlədən iştirakçılar üçün təlimatlar, tender sənədlərinin formaları, müqavilə şərtləri, texniki şərtlər və s. ilə tanış olmalıdır. İddiaçının bu sənədlər və tender təklifi haqqında tam təsəvvürü, məlumatı olmaması və Əsas şərtlər toplusunun tələblərinə uyğun gəlməyən təklif verməsi onun tender təklifinin kənarlaşdırılması ilə nəticələnə bilər. Tender təkliflərini qiymətləndirərkən və müqayisə edərkən tenderin Əsas şərtlər toplusunda müəyyənləşdirilən keyfiyyət tələblərinə cavab verən yerli mallar (işlər və xidmətlər) üzrə tender təkliflərinin xeyrinə xaricdən idxal olunan eyni malların (işlər və xidmətlərin) təklif edilən qiymətinin 20 faizi həcmində güzəştli düzəliş tətbiq edilir.

Tenderdə iştirak etmək istəyənlər aşağıda qeyd olunan hesaba 500 (beş yüz) manat məbləğdə iştirak haqqını ödədikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edirlər.

**Azərbaycan Respublikası Təhsil Nazirliyi**
**VÖEN: 1500046011**
**DXA**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T. - CTREAZ22**
**Hesab : AZ30CTRE00000000000002168501**
**Fond 7**
**Büdcə gəlirlərinin təsnifatı 142330**

Tenderlər üzrə istehsal edilmiş poliqrafik məhsulların Təhsil Nazirliyinin Əsaslı Tikinti və Təchizat İdarəsinin Salyan şosesi, 14 ünvanında yerləşən anbarına son təhvil verilmə tarixləri aşağıdakı kimidir:

5, 7, 8 və 9-cu sinfin dərslikləri - 15 iyun 2021-ci il tarixədək
6-cı sinfin dərslikləri - 01 avqust 2021-ci il tarixədək

Əlavə məlumat üçün tender üzrə əlaqələndirici Aynurə Novruz qızı Həsənovaya müraciət etmək olar. Əlaqə məlumatları:

Ünvan: Bakı şəhəri, Xətai prospekti, 49
Telefon: 599-11-55 (daxili 5126)
e-mail: aynura.hasanova@edu.gov.az

***Tender komissiyası***



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi agentliyin aparatı, filialları və tabeliyindəki sosial xidmət müəssisələri üçün mətbəə mallarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412525-41-30 (daxili 5157) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 14.04.2021-ci il saat 09:00-dan 19.04.2021-ci il saat 12:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Ziya Bünyadov prospekti, 1965, “Çinar Park” Biznes Mərkəzi, bina 1, mərtəbə 2.**
**e-mail: shahriyar.r.mammadov@sosial.gov.az**

***Tender komissiyası***


# “Azərenerji” ASC-də qanvermə aksiyası keçirilib

Dünən Milli Hematologiya və Transfuziologiya Mərkəzinin təşəbbüsü, “Azərenerji” ASC-nin təşkilatçılığı ilə talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlara kömək məqsədilə könüllü qanvermə aksiyası keçirilib.

“Azərenerji” ASC-nin Baş İdarəetmə, Elm, Tədris və Laboratoriya Kompleksinin binasında keçirilən qanvermə aksiyasında səhmdar cəmiyyətin 100 nəfərdən artıq əməkdaşı xəstə uşaqların sağlamlığı, onların qanla təmin olunması üçün xoş məramlı və xeyirxah missiyada könüllü iştirak ediblər.

Qanvermə aksiyası karantin rejiminin tələblərinə uyğun olaraq, təhlükəsizlik tədbirləri nəzərə alınmaqla xüsusi qrafiklə, kütləvilik yaratmadan həyata keçirilib.



Qeyd edək ki, 2005-ci ilin fevral ayında Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva “Talassemiyasız həyat naminə” proqram layihəsinin başlanmasını elan etmişdi və həmin gündən başlayaraq “Azərenerji” ASC də bu layihənin ən fəal davamçılarından birinə çevrilmişdir.

***“Azərbaycan”***

# Beynəlxalq aləm

## ABŞ-da məktəbə silahlı hücum olub



ABŞ-ın Tennessi ştatının Knoxville şəhərindəki məktəbdə silahlı insident olub. Bu barədə “RİA Novosti” agentliyi şəhər polisinin “Twitter” səhifəsindəki məlumata istinadən xəbər verir.

Bildirilir ki, atışma nəticəsində polis əməkdaşı daxil olmaqla bir neçə adam yaralanıb. Yerli polisin verdiyi açıqlamada Austin-East Magnet liseyinə silahlı hücum olduğu və təhlükəsizlik qüvvələrinin bölgəyə cəlb edildiyi deyilir. Hadisə zamanı bir nəfər həlak olub, lakin onun kimliyi barədə məlumat açıqlanmayıb. Araşdırma aparılır.

## Meksikada HDD-nin 30 əməkdaşı adam oğurluğuna görə həbs edilib

Meksikada ölkənin Hərbi-Dəniz Donanmasında xidmət edən 30 nəfər 2014-cü ildə baş vermiş adam oğurluğu ittihamı ilə həbs olunub. Bu barədə “Rosbalt” agentliyi nazirliyin məlumatına istinadən xəbər verir.

Bildirilir ki, həmin dövrdə hərbçilər Tamaulipas ştatında patrul əməliyyatlarını yerinə yetiriblər. Ölkənin Baş Prokurorluğu onları Nuevo-Laredo şəhərində baş vermiş oğurluqlarda ittiham edir.

Agentlik qeyd edir ki, bundan əvvəl Meksika mətbuatı 34 nəfərin 2018-ci ildə Nuevo-Laredoda itməsi ilə bağlı istintaqın aparıldığını bildirmişdi. KİV-in xəbərinə görə, həmin cinayətləri də Hərbi- Dəniz Donanmasının xüsusi təyinatlıları törədib.



## Sankt-Peterburqda dəhşətli yanğın



Sankt-Peterburqda “Nevskaya manufaktura” fabrikində güclü yanğın baş verib. Rusiya KİV ölkənin Fövqəladə Hallar Nazirliyinə istinadən xəbər verir ki, hadisə nəticəsində 1 yanğınsöndürən ölüb, 3 nəfər isə müxtəlif dərəcəli yanıq xəsarətləri alıb.

Yanğın 10 min kvadratmetr sahəni əhatə edib və getdikcə genişlənərək ətrafdakı tikililərə yayılıb. Fabrik binasından 40, yaxınlıqda yerləşən hosteldən 50 nəfər təxliyə olunub. Əraziyə çox sayda yanğınsöndürən texnika, o cümlədən helikopterlər cəlb edilib.

Hüquq mühafizə orqanlarının ilkin mülahizəsinə əsasən, yanğın bilərəkdən törədilib. Fabrikin baş direktoru və onun müavini həbs olunublar.

## "Azərbaycan İnvestisiya Şirkəti" ASC ofis texnikası və kompüterlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusu prosesində iştirak etmək üçün sənədlər 16.04.2021-ci il saat 17:00-dək qəbul olunur.

*Tender komissiyası*

---

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xidmətin Aparatının inzibati binasının mərkəzi isitmə və soyutma sistemlərinə, server otağının soyutma sisteminə və icarəyə götürülmüş Bakı şəhəri Yasamal rayonu, H.Cavid prospekti, 81 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin isitmə və soyutma sistemlərinə texniki xidmətlərin göstərilməsinin, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aparatının əsas server otağında yanğından mühafizə avadanlıqlarına texniki xidmətlərin göstərilməsinin, habelə tərcümə xidmətlərinin göstərilməsinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şəxslər (+994 12) 403-87-91 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 14 aprel 2021-ci il saat 09:00-dan 20 aprel 2021-ci il saat 18:00-a qədər qəbul olunur.

Ünvan: AZ1073, Bakı şəhəri Yasamal rayonu, Akademik Lev Landau küçəsi, 16.

*Tender komissiyası*

---

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası dəftərxana ləvazimatları, təsərrüfat malları, katric və tonerlərin satın alınmasına dair elektron tender elan edir

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 500.00 (beş yüz) manat**
**TƏŞKİLAT: Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**
**VÖEN: 1500374911**
**H/hesabı: AZ20AIIB38090019440138430118**
**Bank: "Kapital Bank" ASC Gənclik Filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir/ hesabı: AZ37NABZ01350100000000001944**
**SWIFT BIK: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04.05.2021-ci il saat 11:00-a qədər, tender təklifi və bank təminatını isə 17.05.2021-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 18.05.2021-ci il saat 11:00-da açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılacaqdır.*

*Tender komissiyası*

---

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi mətbəə məhsullarının satın alınması üzrə *açıq tender elan edir*

Tender proseduru Qanunun 50-1.1-ci maddəsinin tələblərinə uyğun olaraq mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə açıq tender üsulu tətbiq etməklə elektron satınalma vasitəsilə keçirilir. Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər LOT üzrə müəyyən edilmiş məbləğdə iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə və müsabiqə üzrə təkliflərini elektron qaydada təqdim edə bilərlər.

***LOT 1 - Mətbəə məhsulları.***
***İştirak haqqı: 400 manat.***
***İştirak haqqı heç bir halda geri qaytarılmır.***
***Bankın adı: Dövlət Xəzinədarlıq Agentliyi***
***Kod: 210005***
***VÖEN: 1401555071***
***M/h: AZ41NABZ01360100000000003944***
***S.W.I.F.T BIK: CTREAZ22***
***Fövqəladə Hallar Nazirliyi Maddi-Texniki Təchizat İdarəsi***
***H/h: AZ11CTRE00000000000002658402***
***VÖEN: 1401347471***
***Büdcə təsnifatının kodu: 142330***
***Büdcə səviyyəsinin kodu: 7***
***Əlaqə telefonu: (012) 512-47-35***
***Elektron poçt ünvanı: info.mtti@fhn.gov.az***

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 30 bank günü müddətində icra olunmalıdır.

Tenderin Əsas şərtlər toplusunda qeyd olunan mətbəə məhsullarının nümunələrinin tenderdə iştirak edəcək iddiaçılar tərəfindən tender təklifi ilə birlikdə təqdim edilməsi zəruridir.

Tender təklifləri Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun olaraq vahid internet Portalı www.etender.gov.az vasitəsilə elektron qaydada keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 may 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 25 may 2021-ci il saat 17:00-a qədər elektron qaydada təqdim etməlidirlər.

İddiaçıların təklifləri 26 may 2021-ci il saat 17:00-da Portal vasitəsilə elektron qaydada açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi, yazışmalar, sual-cavablar və digər prosedurlar yalnız elektron qaydada vahid internet Portalı vasitəsilə aparılır.*

*Tender komissiyası*

---

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

---

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

*2021/2022-ci tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir*

- **050406 Maliyyə**
- **050409 Mühasibat**
- **050405 İqtisadiyyat**
- **050401 Beynəlxalq ticarət və logistika**
- **050410 Statistika**
- **050408 Menecment**
- **050404 Dövlət və bələdiyyə idarəetməsi**
- **050402 Biznesin idarə edilməsi**
- **050407 Marketinq**
- **050807 Sosial iş**
- **050504 Ekologiya**
- **050616 İnformasiya texnologiyaları**
- **050615 İnformasiya təhlükəsizliyi**
- **050509 Kompüter elmləri**
- **050638 Sənaye mühəndisliyi**
- **050606 Ekologiya mühəndisliyi**
- **050635 Qida mühəndisliyi**
- **050622 Maşın mühəndisliyi**
- **050623 Materiallar mühəndisliyi**
- **050619 Kommunikasiya sistemləri mühəndisliyi**
- **050607 Elektrik və elektronika mühəndisliyi**
- **050306 Dizayn (sahələr üzrə)**

**UNEC-in Zaqatala filialı üzrə**

- **050406 Maliyyə**
- **050405 İqtisadiyyat**
- **050409 Mühasibat**
- **050408 Menecment**
- **050616 İnformasiya texnologiyaları**
- **050402 Biznesin idarə edilməsi**
- **050407 Marketinq**
- **050810 Turizm işinin təşkili**

Təkrar ali təhsilə sənəd qəbulu ancaq elektron qaydada **http://www.kabinet.unec.edu.az/** internet linki vasitəsilə həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda təkrar ali təhsil almaq hüququnu qazanırlar. Təkrar ali təhsil almaq hüququ qazanacaq şəxslər üçün vəziyyət nəzərə alınmaqla tədrisin distant formada təşkili istisna edilmir.

Sənədlərin qəbulu 2021-ci il aprel ayının 15-dən iyul ayının 1-dək aparılacaq.

***Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:***

- rektorun adına ərizə;
- ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
- 3x4 sm ölçüdə fotoşəkil;
- şəxsiyyət vəsiqəsinin surəti.

**QEYD:** 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra universitetdə təkrar ali təhsil ala bilərlər.

**Ünvan: Akademik Həsən Əliyev küçəsi, 135, otaq 518**
**Tel.: (012) 564 38 92**
**Mobil : (070) 578 08 59 (həmçinin WhatsApp ünvan)**
**Facebook ünvanı: https://www.facebook.com/unectekraralitehsil/**

*Rektorluq*

---

## B İ L D İ R İ Ş

01.03.2021-ci il tarixdə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 03.03.2021-ci il tarixli nömrəsində Dövlət Sosial Müdafiə Fondunun 7 saylı regional ərazi filialının Astara qəbul şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması üzrə elan edilmiş açıq tender iştirak etmək istəyən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

*Tender komissiyası*

---

## B İ L D İ R İ Ş

01.03.2021-ci il tarixdə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 03.03.2021-ci il tarixli nömrəsində Dövlət Sosial Müdafiə Fondunun 20 saylı regional ərazi filialının Qazax qəbul şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması üzrə elan edilmiş açıq tender iştirak etmək istəyən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

*Tender komissiyası*

---

## B İ L D İ R İ Ş

01.03.2021-ci il tarixdə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 03.03.2021-ci il tarixli nömrəsində Dövlət Sosial Müdafiə Fondunun 19 saylı regional ərazi filialının Şəmkir qəbul şöbəsinin inzibati binasının cari təmir işlərinin satın alınması üzrə elan edilmiş açıq tender iştirak etmək istəyən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

*Tender komissiyası*

---

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı "91-lər"-in nümayəndəsi, "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev "Azərbaycan" nəşriyyatının baş direktoru Ağabəy Əsgərova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə anası

**FƏRİDƏ MƏCİDLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi

**RƏŞİD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi Maliyyə Nazirliyinin İqtisadi sahələrin maliyyəsi şöbəsinin müdiri Vüqar Məcidliyə anası

**FƏRİDƏ MƏCİDLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin rəhbəri və məhkəmənin kollektivi Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi

**RƏŞİD HÜSEYNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Fikrət, Ramiz, Rəşad Əzizovlar və Raqif Abbasov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərova oğlu

**FƏRİD ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Samux Rayon Məhkəməsinin kollektivi Əlövsət Paşayevə qardaşı

**ZAHİD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5188
Sifariş 622
Qiyməti 40 qəpik